# 20 Yanvar Ümumxalq Hüzn Günüdür

Xalq qəzeti

Xalqın qəzeti!

№ 11 (30980) 20 yanvar 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# 20 Yanvar – Azadlığın ilk səhəri

## Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini yad edib



Qanlı 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ilə bağlı məsələ ilk dəfə məhz ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapdı. Faciənin səhəri günü - 1990-cı il yanvarın 21-də Ulu öndər Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirdi, bu qırğını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi. Dahi şəxsiyyət bu hadisənin hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu bəyan edərək, onun törədilməsini kobud siyasi səhv kimi qiymətləndirdi. Xalqımızın başına gətirilən müsibəti dünyaya çatdıran Ümummilli lider 20 Yanvar faciəsinin Azərbaycanın ovaxtkı rəhbərlərinin xalqımıza qarşı xəyanəti nəticəsində baş verdiyini və bunun cinayət olduğunu dəfələrlə bəyan edib. Bununla da Ulu öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha nümayiş etdirib.

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən qərar qəbul olundu. Bu qərar ulu öndər Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı. Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü ildə 20 Yanvar hadisələrinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

**Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib.**

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

*

20 Yanvar hadisələri Azərbaycan xalqının tarixinə həm faciəli, kədərli, həm də qəhrəmanlıq, rəşadət səhifəsi kimi daxil olub, müstəqillik, azadlıq uğrunda mübarizənin və yenilməz iradənin rəmzinə çevrilib. 36 il əvvəl doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən üstün tutan Azərbaycanın mərd övladları həmin qanlı gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Həmin gün Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Azadlığa gedən yolda həyatlarını qurban verən Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə tarixi səhifə yazdılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur.





Azərbaycan xalqı 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Vətənimizin azadlığı uğrunda mübarizədə canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. 20 Yanvar şəhidlərinin ailə üzvlərinin və əlillərinin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Onların pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı qanunvericilik bazası yaradılıb.

Ulu öndərin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş bütün şəhidlərin ruhları bu gün şaddır. Çünki Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoydu, torpaqlarımızı erməni işğalından azad etdi və suverenliyimiz tam bərpa olundu. İndi bütün ərazilərimizdə Azərbaycanın üçrəngli Bayrağı qürurla dalğalanır. Hazırda Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri gedir, Böyük Qayıdış Proqramı uğurla icra olunur.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası bütün şəhidlərimizin, o cümlədən 20 Yanvar faciəsi qurbanlarının qanının yerdə qalmadığını sübut edir.

## Prezident İlham Əliyev 20 Yanvar faciəsi ilə əlaqədar paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 Yanvar faciəsi ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**

Paylaşımda deyilir: "Allah bütün şəhidlərimizə rəhmət eləsin!"

## Birinci vitse-prezident Mehriban Əliyeva 20 Yanvar faciəsinin ildönümü ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında 20 Yanvar faciəsinin 36-cı ildönümü ilə bağlı paylaşım edib.**

Paylaşımda deyilir: "20 Yanvar faciəsinin günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin!".

## Bakının qlobal gündəlikdə imzası

*2026-cı il Davos İqtisadi Forumunun Azərbaycan üçün əhəmiyyəti*




**İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumu bəşəriyyətin gələcək yol xəritəsinin müəyyən olunduğu strateji platforma rolunu oynayır. Təqvim 2026-cı ilin 19-23 yanvar günlərini göstərdikdə qlobal diqqət mərkəzi yenidən İsveçrə Alplarına yönəlib.**

Məhz bu məkanda Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın nümayiş etdirdiyi mövqe, təqdim etdiyi layihələr və Prezident İlham Əliyevin praqmatik siyasəti ölkənin beynəlxalq nüfuzunun hansı yüksəkliyə çatdığını əyani şəkildə sübut edir. Forum bu il "Dialoq ruhu" devizi altında keçirilir və rəsmi Bakı məhz bu körpülərin həm fiziki, həm də siyasi memarı kimi çıxış edir. İllər öncə neft kontraktları ilə dünyaya səs salan dövlətimiz indi COP29 sammitinin uğurlu ev sahibi, Avropanın enerji təhlükəsizliyinin qarantı və Şərq–Qərb nəqliyyat dəhlizinin əvəzolunmaz qovşağı kimi Davos tribunasına qədəm qoyub.

*(ardı 4-cü səhifədə)*

# Prezident İlham Əliyev Ümumdünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrəyə gəlib

## Sürix beynəlxalq hava limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün yanvarın 19-da İsveçrə Konfederasiyasına səfərə gəlib.**

Dövlətimizin başçısını və birinci xanım Mehriban Əliyevanı Sürix şəhərinin beynəlxalq hava limanında rəsmi şəxslər qarşıladılar.

## “Vestas Wind Systems” şirkəti qrupunun baş vitse-prezidenti ilə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davosda “Vestas Wind Systems” şirkətinin marketinq, kommunikasiya, davamlılıq və ictimaiyyətlə əlaqələr üzrə qrupunun baş vitse-prezidenti Morten Dirholm ilə görüşüb.**

Söhbət zamanı bu şirkətin ölkəmizdə bərpaolunan enerji, xüsusilə külək enerjisi sahəsində fəaliyyətinə toxunuldu, mövcud əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Azərbaycanın xarici investorlar üçün cəlbedici məkan olduğu vurğulandı, ölkəmizdə əlverişli investisiya və biznes mühitinin mövcudluğu məmnunluqla qeyd edildi.

Görüşdə Azərbaycan ilə “Vestas Wind Systems” şirkəti arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru ilə dialoq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 19-da Davosda Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus ilə görüşü olub.**

Söhbət zamanı dövlətimizin başçısı ilə Tedros Adhanom Qebreyesusun əvvəlki görüşləri məmnunluqla xatırlandı.

Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, ölkəmizin təşkilatın dünyanın müxtəlif bölgələrində həyata keçirdiyi layihələrə dəstəyi qeyd edildi. Bu xüsusda COVID-19 pandemiyası zamanı Azərbaycanın bir sıra ölkələrə könüllü maliyyə yardımı göstərməsi xüsusi olaraq vurğulandı.

Görüşdə Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Braziliyanın “BTG Pactual” şirkətinin sədrini qəbul edib





**Yanvarın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində Braziliyanın aparıcı investisiya banklarından və aktivlərin idarə edilməsi şirkətlərindən biri olan “BTG Pactual” şirkətinin sədri Andre Esteves ilə görüşüb.**

Prezident İlham Əliyev Azərbaycanın makroiqtisadi sabitliyinə və fiskal intizamına, həmçinin uzunmüddətli inkişaf strategiyasına toxunaraq, bu istiqamətdə həyata keçirilən siyasətin ölkəmizin beynəlxalq maliyyə bazarlarında etibarlı tərəfdaş kimi mövqeyinin daha da möhkəmlənməsinə müsbət təsir göstərdiyini dedi.

Dövlətimizin başçısı vurğuladı ki, dünyanın beynəlxalq reytinq agentlikləri ölkəmizin kredit reytinqini daha da artıraraq, investisiya və müsbət proqnozu olan reytinq səviyyəsinə qaldırıb.

Rəhbərlik etdiyi şirkətin qlobal fəaliyyət coğrafiyası və institusional investorlarla iş təcrübəsi barədə danışan Andre Esteves “BTG Pactual”ın müxtəlif regionlarda tətbiq etdiyi investisiya yanaşmaları barədə məlumat verdi.



Qeyd olundu ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə bu şirkət arasında son dövrlərdə mümkün əməkdaşlıq istiqamətləri və strateji prioritetlər ətrafında ilkin müzakirələr aparılır, qarşılıqlı maraq doğuran məsələlər üzrə dialoq davam etdirilir.

Söhbət zamanı qlobal iqtisadi proseslər, beynəlxalq maliyyə bazarlarında mövcud vəziyyət və institusional investorların müxtəlif regionlara yanaşması, həmçinin inkişaf etməkdə olan bazarlarda investisiya mühiti, uzunmüddətli investisiya yanaşmaları və qarşılıqlı investisiya layihələri ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, 1983-cü ildə təsis edilmiş “BTG Pactual” təxminən yarım trilyon ABŞ dollarından çox aktivləri idarə edir.

## “DP World” şirkətlər qrupunun sədri və icraçı direktoru ilə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davosda dünyanın ən böyük liman operatorlarından biri olan “DP World” şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşüb.**

Görüşdə “DP World” şirkətinin Azərbaycanda uğurlu fəaliyyəti məmnunluqla qeyd edildi.

Ölkəmizin mühüm beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşdiyi vurğulanaraq, son dövrlərdə Azərbaycanda müasir nəqliyyat infrastrukturunun qurulması istiqamətində icra edilən layihələrdən bəhs olundu. Bu xüsusda “DP World” şirkəti ilə əməkdaşlığın genişləndirilməsinin potensialının olduğu vurğulandı.

## “Carlsberg Group” şirkətinin baş icraçı direktoru ilə müzakirə

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davosda “Carlsberg Group” şirkətinin baş icraçı direktoru Yakob Aarup-Andersen ilə görüşüb.**

Söhbət zamanı tam yerli xammal əsaslı məhsulun buraxılması istiqamətində artıq bir sıra layihələrin həyata keçirildiyi qeyd edildi.

Bu xüsusda İmişlidə pivə istehsalında əsas xammal hesab olunan arpanın emalı müəssisəsinin fəaliyyətinə toxunuldu. Gələcəkdə isə qablaşdırma materiallarının istehsalının da tam lokallaşdırılacağı bildirildi.

Yakob Aarup-Andersen “Carlsberg Group”un Azərbaycanda istehsal etdiyi məhsulun ixracının 2025-ci ildə əhəmiyyətli dərəcədə artdığını vurğuladı.

Görüşdə Azərbaycanda xarici investorlar üçün yaradılmış şəraitdən məmnunluq ifadə olundu.



***AZƏRTAC***

# Azərbaycanın sülh diplomatiyası və “Zayed mükafatı”

**Müasir dünya nizamında hərbi qələbəni dayanıqlı sülhə çevirmək hər bir liderin qarşısında duran çətin və ali missiyadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu tərəfindən layiq görüldüyü “Zayed İnsan Qardaşlığı Mükafatı” məhz bu missiyanın qlobal səviyyədə təqdir olunmasının bariz nümunəsidir. Bu mükafat, sadəcə, diplomatik uğurun deyil, həm də Azərbaycanın sülh gündəliyinin dünya tərəfindən qəbul edilməsinin təsdiqidir. AZƏRTAC-ın mövzu ilə bağlı məqaləsini təqdim edirik.**





## Şeyx Zayed Fondu: Humanizm və qlobal həmrəylik rəmzi

Şeyx Zayed Fondu BƏƏ-nin banisi Şeyx Zayed bin Sultan Əl Nəhyanın irsini yaşatmaq üçün təsis edilib. Fondun əsas missiyasının fəlsəfəsi dünyada humanizm, dözümlülük, ətraf mühitin qorunması və xalqlararası sülhün təşviqidir. “Zayed İnsan Qardaşlığı Mükafatı” dünyada sülh, həmrəylik və dinc-yanaşı yaşama prinsiplərini təşviq edən şəxslərə və qurumlara verilən nüfuzlu beynəlxalq mükafatdır. İndiyədək bu mükafata layiq görülənlər arasında BMT-nin Baş katibi Antonio Quterreş, İordaniya Kralı II Abdullah və kraliçası Raniyə Əl Abdullah, mərhum Roma Papası Fransisk, Misirin Əl-Əzhəri Şərifinin şeyxi, böyük imam Əhməd Əl-Tayyib, IMAD Assosiasiyasının təsisçisi və ekstremizmə qarşı fəal, əslən Mərakeşdən olan xanım Lətifə İbn Ziyaten, keniyalı sülh və icma fəalı xanım Şəmsa Əbubəkr Fadhil, Barbadosun Baş naziri xanım Mia Amor Mottley və digər şəxslər var.

Onu da qeyd edək ki, Fond bir neçə sahə üzrə mükafatlar təqdim edir. Bu mükafatlar yalnız müstəsna xidmətləri olan şəxsiyyətlərə və qurumlara verilir. Prezident İlham Əliyevin “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülməsi isə Azərbaycanın həm regional, həm də qlobal miqyasda sülh quruculuğu prosesindəki aparıcı roluna beynəlxalq səviyyədə verilən yüksək qiymətdir.

## Müharibədə Qalib Lider, sülhdə Qalib Dövlət

Tarix sübut edir ki, güclü sərkərdələr çoxdur, lakin onlardan yalnız bir neçəsi qazandığı hərbi zəfəri siyasi sülhə çevirməyi bacarıb. Azərbaycanın 44 günlük Vətən müharibəsində və 2023-cü ilin antiterror tədbirlərində əldə etdiyi mütləq Qələbə beynəlxalq hüququn bərpası idi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strategiya göstərdi ki, döyüş meydanında qazanılan uğur, həm də uzaqgörən diplomatik manevrlərlə möhkəmləndirilməlidir. Azərbaycan, sadəcə, torpaqlarını azad etmədi, həm də regionda yeni geosiyasi reallıq yaradaraq uzunmüddətli sülhün təməlini qoydu. Bu prosesdə hərbi gücün beynəlxalq hüquq prinsipləri ilə uzlaşdırılması ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsinə şərait yaratdı.

Zəfərdən sonra həyata keçirilən genişmiqyaslı quruculuq işləri və “Böyük Qayıdış” Proqramı hərbi Qələbənin necə mülki tərəqqiyə çevrilməsinin ən bariz nümunəsidir. Beləliklə, Azərbaycan dövləti sübut etdi ki, əsl sərkərdəlik məharəti yalnız müharibədə qalib gəlmək deyil, həm də sülh yaratmaq və gələcək nəsillər üçün sabitlik təmin etməkdədir.

Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə münaqişədən sonrakı dövrdə “məğlub tərəfi əzmək” deyil, “regionun inkişafı üçün sülh təklif etmək” yolunu seçdi. Bu, qalib tərəfin nümayiş etdirdiyi ən böyük siyasi iradə və humanizm nümunəsidir.

Bakının təklif etdiyi prinsiplər üzərində qurulan sülh gündəmi bölgədəki bütün xalqların rifahına xidmət edən yeni iqtisadi modelin əsasını qoyur. Dağıdıcı müharibə ritorikasını quruculuq və bərpa prosesi ilə əvəz edən Azərbaycan Cənubi Qafqazın nəqliyyat və logistika mərkəzinə çevrilməsi üçün real imkanlar yaradır. Bu yanaşma dövlətimizin yalnız hərbi qüdrətini deyil, həm də strateji baxışını və beynəlxalq təhlükəsizliyə sadiqliyini bütün dünyaya nümayiş etdirir. Beləliklə, sülh təşəbbüsləri regionda nifrət səhifəsini bağlayaraq, qarşılıqlı hörmətə əsaslanan yeni dövrün qapılarını açır.

## Revanşizmə qarşı qətiyyətli mövqe

Müstəqil siyasət yürüdən Azərbaycan bölgədə sabitliyin əsas təminatçısı kimi strateji hədəflərinə doğru inamla irəliləməkdə davam edir. Lakin Azərbaycanın sülh əlini uzatmasına baxmayaraq, regionda hələ də Ermənistanı revanşizmə sürükləmək istəyən qüvvələr mövcuddur. Xarici dairələrin Ermənistanı silahlandırmaq və regionu yeni qarşıdurmaya sövq etmək cəhdləri bölgədəki kövrək sülhü təhdid edir. Bu cür təzyiqlər və süni gərginlik yaratmaq cəhdləri Azərbaycanın sarsılmaz iradəsi və hərbi hazırlığı qarşısında hər zaman iflasa məhkumdur. Rəsmi Bakı dəfələrlə qeyd edib ki, Ermənistan öz gələcəyini xarici qüvvələrin maraqlarına qurban verməməlidir, sülh müqaviləsini imzalayaraq regional əməkdaşlığa qoşulmaq onun üçün yeganə çıxış yoludur.

Prezident İlham Əliyevin prinsipial və qətiyyətli siyasəti bu kimi cəhdlərin qarşısında keçilməz bir səddə çevrilib - Azərbaycan öz suverenliyini tam bərpa edərək diktə edən tərəf statusunu qoruyub. Həmçinin regionda "boz zonalar"a və separatizm qalıqlarına son qoyulub. Bütün təzyiqlərə baxmayaraq, milli maraqlar hər şeydən üstün tutulub.

## Vaşinqton görüşü: İllərin münaqişəsinə tarixi son

Sülh prosesinin ən mühüm mərhələlərindən biri kimi, 2025-ci ilin avqust ayında keçirilən Vaşinqton görüşünü qeyd etmək olar. Bu görüşdə məsələyə faktiki olaraq nöqtə qoyulması Azərbaycanın iradəsinin dünya gücləri tərəfindən qəbul edildiyini göstərdi. Bu, sadəcə, bir sülh sazişinin paraflanması deyil, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tam və şərtsiz tanıması, revanşist xülyalardan rəsmən imtina etməsi demək idi.

Bu diplomatik qələbə göstərdi ki, Azərbaycanın hərbi sahədəki qətiyyəti artıq beynəlxalq hüquqi sənədlərdə öz əksini tapan mütləq reallığa çevrilib. Vaşinqtonda əldə olunan razılaşma Cənubi Qafqazda kənar manipulyasiyaların qarşısını alaraq, birbaşa dialoqun və qarşılıqlı etimadın ən yüksək zirvəsi hesab olunur. Ermənistanın bu rəsmi öhdəliyi regionun iqtisadi dirçəlişi üçün illərdir gözlənilən maneələri aradan qaldırdı və genişmiqyaslı əməkdaşlıq üçün hüquqi zəmin yaratdı. Beləliklə, dünya birliyi Azərbaycanın haqlı mövqeyini və yeni regional düzənin qurucusu olduğunu bir daha təsdiqləmiş oldu.

## Münaqişənin həllində Azərbaycan modeli

Azərbaycanın mütləq Qələbəsi və ondan sonrakı sülh quruculuğu prosesi dünya üçün nümunəvi təcrübədir. Beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiyini Azərbaycan təkbaşına, həm döyüş meydanında, həm də diplomatik masada həll etdi.

*- Hərbi güclə beynəlxalq hüququn uzlaşdırılması;*

*- İşğaldan azad edilmiş ərazilərin sürətli bərpası (“Böyük Qayıdış”);*

*- Qonşu dövlətlərlə balanslı və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq.*

Azərbaycanın sadalanan bu istiqamətlərdə əldə etdiyi təcrübə göstərdi ki, beynəlxalq hüququn dondurulmuş münaqişələr qarşısındakı acizliyi yalnız milli iradə və güclü dövlət strategiyası ilə aradan qaldırıla bilər. Azərbaycanın tətbiq etdiyi model həm hərbi əməliyyatların dəqiqliyi, həm də mülki əhalinin təhlükəsizliyinin qorunması baxımından müasir hərb tarixinə yeni standart gətirdi. Ölkəmiz sübut etdi ki, ədalətli sülhə gedən yol status-kvonu qəbul etməkdən deyil, işğala son qoyaraq əsl legitimliyi bərpa etməkdən keçir. Beləliklə, Bakının nümayiş etdirdiyi qətiyyət dünyada suverenlik və ərazi bütövlüyü uğrunda mübarizə aparan digər dövlətlər üçün mənəvi və siyasi mayaka çevrildi.

Dövlətimizin başçısının layiq görüldüyü Şeyx Zayed Fondunun mükafatı bu böyük iradənin, ədalətli sülhün və Azərbaycanın seçdiyi əməkdaşlıq yolunun rəmzidir. Prezident İlham Əliyevin diplomatik məharəti sayəsində Cənubi Qafqaz artıq münaqişə zonası deyil, qlobal sabitlik, logistika və enerji mərkəzinə çevrilməkdədir.

Eyni zamanda, bu nüfuzlu mükafat Azərbaycanın humanist addımlarına və sülh quruculuğuna verilən yüksək qiymətin təzahürüdür. Ölkəmiz artıq yalnız enerji resursları ilə deyil, həm də regionda təhlükəsizliyin əsas dayağı kimi qlobal miqyasda nüfuz qazanıb. Zəngəzur dəhlizi kimi strateji layihələrin reallaşması ilə Azərbaycanın beynəlxalq tranzit xəritəsindəki yeri daha da möhkəmlənir və bu, bütün Avrasiya regionu üçün yeni inkişaf imkanları vəd edir. Beləliklə, qazanılan hər bir uğur Azərbaycanın suveren gücünün və sülhsevər siyasətinin sarsılmazlığını bir daha təsdiq edir.

## Prezident İlham Əliyev 2026-cı il üçün “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülüb

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu 2026-cı il üçün “Zayed İnsan Qardaşlığı Mükafatı”nın qaliblərinin adlarını açıqlayıb.**

Mükafata layiq görülənlər arasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də var.

Bu barədə Şeyx Zayed Fondunun rəsmi internet səhifəsində məlumat verilib. Məlumatda qeyd edilir ki, bu mükafat Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan - “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş”in paraflanmasına görə verilib.

2026-cı ilin mükafatçıları dialoq və birgəyaşayış sahəsində tanınmış şəxslər və mütəxəssislərdən ibarət müstəqil beynəlxalq münsiflər heyəti tərəfindən seçilib.

“Zayed İnsan Qardaşlığı Mükafatı”nın münsiflər komitəsinin üzvü və Mükafatın baş katibi Məhəmməd Əbdülsəlam deyib: “Bu il “Zayed İnsan Qardaşlığı Mükafatı” komitəsi Ermənistan və Azərbaycan arasında tarixi sülh müqaviləsini seçib. Bu müqavilə mükafatın dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi və inkişaf etdirilməsi sahəsindəki missiyasını və məqsədlərini özündə təcəssüm etdirir. Bu, qlobal sülhün irəliləməsində mühüm mərhələ və böyük diplomatik nailiyyət hesab olunur”.

Mükafatlar bu il fevral ayının 4-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçiriləcək təntənəli mərasimdə təqdim olunacaq.

# İnsan qardaşlığının zəfəri

## *Prezident İlham Əliyevin humanizm siyasətinə verilən ali qiymət*



**Birləşmiş Ərəb Əmirliklərinin ali dövlət nişanələrindən sayılan, beynəlxalq aləmdə yüksək nüfuza malik Şeyx Zayed Fondunun “Zayed İnsan Qardaşlığı Mükafatı”nın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunması bütün qlobal siyasi arenada böyük əks-səda doğurub.**

Bəşəri dəyərlərin, sülhün, dözümlülüyün və humanizmin təntənəsi kimi qiymətləndirilən mükafat Azərbaycanın son illərdə yürütdüyü strateji kursun, hərbi zəfərlərin ardınca gələn diplomatik qələbələrin və Prezident İlham Əliyevin qlobal liderlik keyfiyyətlərinin beynəlxalq səviyyədə təsdiqidir. Əbu-Dabidən gələn müjdə Azərbaycanın sülh diplomatiyasının qızıl dövrünün məntiqi davamıdır.

Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, müdrik dövlət xadimi Şeyx Zayed bin Sultan Əl Nəhyanın adını daşıyan Fond və onun təsis etdiyi mükafat barədə məlumat vermək vacibdir. Şeyx Zayed dünyada sülhsevərliyi, xeyriyyəçiliyi, mərhəməti və müxtəlif mədəniyyətlər arasında dialoqun qurulmasını təşviq edən lider kimi tanınıb. Onun irsini yaşadan Fondun əsas missiyası irqi, dini, milli mənsubiyyətindən asılı olmayaraq bəşəriyyətin rifahına xidmət edən, konfliktlərin qarşısını alan, insanlar arasında qardaşlıq körpüləri quran şəxsiyyətləri aşkara çıxarmaq və onları dünyaya örnək kimi təqdim etməkdir.

"İnsanlıq Qardaşlığı" mükafatı 2019-cu ildə Roma Papası Fransisk və Əl-Əzhərin Böyük İmamı Əhməd Əl-Tayyib tərəfindən Əbu-Dabidə imzalanmış tarixi "İnsanlıq Qardaşlığı Sənədi"ndən ilhamlanaraq təsis edilmişdir. İndiki halda mükafatın məhz Prezident İlham Əliyevə verilməsi Azərbaycan liderinin qlobal miqyasda sülh carçısı, multikulturalizm ideyalarının hamisi və sivilizasiyalararası dialoqun aparıcı siması kimi qəbul edildiyini göstərir.

“Müharibədə qalib gələn lider sülhdə də qalibdir” tezisinin hər bir elementinin Azərbaycanın son beşillik tarixində necə dəqiqliklə işlədiyini görmək mümkündür. 2020-ci ilin Vətən müharibəsi və 2023-cü ilin lokal antiterror tədbirləri Azərbaycanın hərbi qüdrətini, Prezidentin Ali Baş Komandan kimi qətiyyətini nümayiş etdirdisə, 2023-2025-ci illər ərzində aparılan diplomatik danışıqlar prosesi onun strateji səbrini və diplomatik məharətini sübuta yetirdi. Sülhə aparan yol heç də hamar olmadı. Əksinə, sözügedən yol minalanmış sahələrdən, xarici təzyiqlərdən, diplomatik şantajlardan və Ermənistanın revanşist cəhdlərindən keçirdi. Rəsmi İrəvan, xüsusilə də onun Qərbdəki havadarları – Fransa başda olmaqla bəzi Avropa təsisatları – regionda sülhün əldə olunmasına hər vasitə ilə mane olmağa çalışırdılar.

Ermənistanın silahlandırılması, sərhədə müşahidəçi adı altında Avropa İttifaqının kəşfiyyat qruplarının yerləşdirilməsi, beynəlxalq platformalarda Azərbaycana qarşı qərəzli qətnamələrin qəbul edilməsi sülh prosesini pozmağa hesablanmış addımlar idi. Məqsəd aydın idi: Azərbaycanın qələbəsini natamam etmək, münaqişəni dondurulmuş vəziyyətə qaytarmaq və regionda xarici qüvvələrin iştirakını təmin edərək yeni qarşıdurma ocağı yaratmaq. Lakin Prezident İlham Əliyevin “dəmir yumruğ”u diplomatik masada da öz sözünü dedi. Dövlət başçısı bütün təzyiqləri dəf edərək prinsipial mövqe nümayiş etdirdi. Tarix 2025-ci ilin avqust ayını göstərdikdə bütün dünya Azərbaycan diplomatiyasının növbəti, bəlkə də ən həlledici zəfərinə şahidlik etdi.

Vaşinqtonda keçirilən yüksək səviyyəli danışıqlar zamanı məsələyə son nöqtə qoyuldu. ABŞ-ın vasitəçiliyi ilə baş tutan, intəhası məzmunu və şərtləri rəsmi Bakı tərəfindən diktə edilən yekun razılaşma prosesi Ermənistanın revanşizm xülyalarının birdəfəlik tabuta qoyulması ilə nəticələndi. Həmin görüşdə imzalanan sənədlər və əldə olunan razılaşmalar regionda onilliklər boyu davam edən düşmənçiliyin hüquqi müstəvidə bitməsini rəsmiləşdirdi. Vaşinqton görüşü, sadəcə, münaqişə tərəflərinin görüş mərasim deyildi. Bu görüş Azərbaycanın iradəsinin beynəlxalq güclər tərəfindən qeyd-şərtsiz qəbul edilməsi aktı idi.

Həmin ana qədər İrəvanı yeni müharibəyə sövq edən qüvvələr anladılar ki, İlham Əliyevlə hədə-qorxu dili ilə danışmaq mümkünsüzdür. Prezidentin qətiyyətli siyasəti sayəsində Cənubi Qafqaz regionu dağıdıcı müharibədən xilas edildi. Məhz 2025-ci ilin avqustunda əldə edilən tarixi nəticə Şeyx Zayed Fondunun mükafat komitəsinin diqqətini cəlb edən əsas amillərdən biri olmuşdur. Çünki əsl sülh real təhdidləri neytrallaşdırmaq və gələcək nəsillərin təhlükəsizliyini təmin etməkdir. Mükafatın siyasi əhəmiyyəti həm də ondadır ki, sözügedən hadisə Qərb dünyasında, xüsusilə də anti-Azərbaycan dairələrdə formalaşdırılmağa çalışılan yanlış rəyi darmadağın edir.

Bəzi Qərb mediası və siyasətçiləri Azərbaycanı "aqressor" kimi qələmə verməyə çalışarkən, dünyanın ən nüfuzlu humanitar fondlarından birinin məhz Azərbaycan Prezidentini sülh mükafatına layiq görməsi həqiqətin anıdır. Bu, Qlobal Cənubun, İslam dünyasının və ədalətli beynəlxalq ictimaiyyətin Azərbaycanın haqq işinə verdiyi dəstəkdir. BƏƏ-nin Şeyx Zayed Fondunun qərarı göstərir ki, dünya yalnız Qərbin ikili standartlarından ibarət deyil. Dünyada real işi, həqiqi liderliyi və sülhə verilən töhfəni qiymətləndirməyi bacaran güc mərkəzləri mövcuddur.

Tam məsuliyyətlə demək olar ki, Azərbaycan Prezidentinin "İnsanlıq Qardaşlığı" mükafatı ilə təltif edilməsi tarixi hadisədir. Həmin hadisə Cənubi Qafqazda yeni eranın başlanğıcını simvolizə edir. Postmünaqişə dövrü artıq başa çatıb. İndi inkişaf, inteqrasiya və qlobal əməkdaşlıq dövrü başlayır. Və sözügedən yeni dövrün memarı İlham Əliyevdir.

***Y.YAQUBOĞLU***
***XQ***

# Daxili Qoşunların 2025-ci il fəaliyyətinə dair müşavirə



**Yanvarın 19-da daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə Daxili Qoşunların 2025-ci ildə xidməti fəaliyyətinin yekunlarına dair əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, şəxsi heyətin sosial və maddi-texniki təminatının, xidmət şəraitinin daha da yaxşılaşdırılmasına xüsusi diqqət göstərdiyini vurğulayıb.

Sonra daxili işlər nazirinin müavini – Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti fəaliyyətin yekunları barədə məruzə ilə çıxış edib.

Bildirilib ki, hesabat ilində Daxili Qoşunlar qarşıya qoyulmuş bütün tapşırıqları məsuliyyətlə icra edib. İşğaldan azad edilmiş ərazilərdə mühafizə tədbirləri, minalanmış sahələrə keçmələrin qarşısının alınması istiqamətində görülən işlər xüsusi əhəmiyyət daşıyıb.

Məruzələrdə şəxsi heyətin döyüş, fiziki və ixtisas hazırlığının, idarəetmə və qarşılıqlı fəaliyyət bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən xüsusi-taktiki təlimlərin həm Daxili Qoşun hissələrinin, həm də polis orqanlarının birgə fəaliyyətinin səmərəliliyini daha da artırdığı diqqətə çatdırılıb.

Müşavirədə beynəlxalq əhəmiyyətli idman yarışları və kütləvi tədbirlər zamanı polis və Daxili Qoşunların şəxsi heyətinin peşəkar fəaliyyəti xüsusi qeyd olunub. Vurğulanıb ki, ölkəmizdə keçirilən mötəbər idman turnirləri, beynəlxalq forumlar və digər irimiqyaslı tədbirlər dövründə ictimai asayiş və təhlükəsizlik yüksək səviyyədə təmin edilib.

Müşavirəyə yekun vuran nazir V.Eyvazov ötən hesabat ilində DİN-in Daxili Qoşunlarının fəaliyyətini yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışaraq konkret tapşırıq və tövsiyələrini verib. Eyni zamanda, əmin olduğunu bildirib ki, şəxsi heyət qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəkdir.

***XQ***

# Ceyhun Bayramov və Marko Rubio Azərbaycan–Ermənistan normallaşma prosesini müzakirə ediblər

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ Dövlət katibi Marko Rubio arasında telefon danışığı aparılıb.**

Telefon danışığı zamanı Azərbaycanla ABŞ arasında ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri, eləcə də regional vəziyyət və Azərbaycan-Ermənistan normallaşma prosesi müzakirə edilib.

Ötən il avqustun 8-də keçirilən Vaşinqton Sülh Sammitindən sonra Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması istiqamətində ikitərəfli təmaslar və müzakirələr yüksək qiymətləndirilib, tərəflər layihənin qısa müddət ərzində razılaşdırılaraq imzalanacağına ümidvar olduqlarını bildiriblər. Bu istiqamətdə müəyyən ediləcək prioritetlərin iki ölkə arasında münasibətlərə əlavə təkan verəcəyi vurğulanıb.

Nazir Ceyhun Bayramov, öz növbəsində, Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi üzrə perspektivlər barədə ölkəmizin mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb. Azərbaycanla Ermənistan arasında normallaşma prosesi çərçivəsində atılan addımlar, etimad quruculuğu tədbirləri təqdir olunub. "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) icrası üzrə görülən işlərin əhəmiyyəti vurğulanıb.




# Bakının qlobal gündəlikdə imzası

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycanın Davos Forumundakı iştirak tarixçəsinə nəzər saldıqda ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin məntiqi nəticələrini görməmək mümkün deyil. 1995-ci ildə ölkənin hələ müharibənin yaralarını sarıdığı, daxili sabitliyin yeni bərqərar olduğu dövrdə Heydər Əliyevin Davosa ilk səfəri Qərb sərmayədarlarında inam yaratmaq, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması üçün zəmin hazırlamaq məqsədi daşıyırdı. Həmin vaxt skeptik yanaşan xarici ekspertlər bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qlobal enerji xəritəsini necə dəyişdiyinin şahidi olurlar.

Əgər 90-cı illərin sonlarında əsas müzakirə mövzusu Bakı–Tbilisi–Ceyhan neft kəməri idisə, 2026-cı ildə gündəm tamamilə dəyişib. İndi müzakirə masasında bərpaolunan enerji, yaşıl hidrogen, rəqəmsal tranzit və süni intellektin tətbiqi dayanır. Əvvəllər investisiya cəlb etmək üçün təşviqat aparılırdısa, indi dünyanın ən nəhəng şirkətləri – BP, TotalEnergies, Masdar, ACWA Power, Adani Group və digərləri Azərbaycanın "yaşıl enerji" layihələrində pay sahibi olmaq üçün yarışırlar.

Azərbaycanın Davosdakı mövqeyi postmünaqişə dövrünün reallıqlarını da əks etdirir. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş dövlət kimi regionda diktə edən tərəfdir. Ermənistanla sülh prosesinin irəliləməsi, Zəngəzur dəhlizinin açılması perspektivləri və Cənubi Qafqazda yaranan yeni təhlükəsizlik mühiti xarici investorlar üçün riskləri minimuma endirir. Qırmızı dənizdəki gərginliyin ticarət yollarını təhdid etdiyi hazırkı şəraitdə Orta Dəhliz yeganə təhlükəsiz və dayanıqlı alternativə çevrilib. Çindən Avropaya yük daşımalarının həcminin 2024-cü ildə 4.5 milyon tona çatması və 2030-cu ilə qədər 10 milyon tonu keçməsi proqnozu Azərbaycanın tranzit potensialının miqyasını göstərir.

***

Enerji sektorundakı transformasiya yalnız ixracla məhdudlaşmır. Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisi potensialının 157 QVt həcmində qiymətləndirilməsi ölkəni gələcəyin "yaşıl hidrogen" istehsalçısına çevirmək imkanı verir. Avropa İttifaqı gələcəkdə qazdan imtina etsə belə, Azərbaycandan gələn yaşıl elektrik enerjisinə və hidrogenə olan tələbat onilliklər boyu davam edəcək. Sözügedən strateji gediş, rəsmi Bakının postneft dövrünə mükəmməl hazırlığını nümayiş etdirir. Layihələrin maliyyələşdirilməsi üçün Dünya Bankı Avropa Yenidənqurma və İnkişaf Bankı kimi beynəlxalq maliyyə institutlarının ayırdığı vəsaitlər, Azərbaycan iqtisadiyyatına olan qlobal etimadın göstəricisidir. 2026-cı il Davos Forumu, həmçinin COP29-un yekunlarının müzakirəsi baxımından da xüsusi əhəmiyyət daşıyır. Bakıda qəbul edilən qərarlar, iqlim maliyyələşdirilməsi üzrə razılaşmalar və qlobal istiləşmə ilə mübarizədə Azərbaycanın liderliyi forum iştirakçıları tərəfindən yüksək qiymətləndirilir.

Rəqəmsal inkişaf və Dördüncü Sənaye İnqilabı mövzusu da Azərbaycanın Davos gündəliyinin ayrılmaz hissəsidir. Bakıda fəaliyyət göstərən Dördüncü Sənaye İnqilabı Mərkəzinin uğurlu fəaliyyəti Dünya İqtisadi Forumu ilə əməkdaşlığın yüksək səviyyəsini göstərir. Rəqəmsal İpək Yolu layihəsi çərçivəsində Xəzər dənizinin dibi ilə çəkilən fiber-optik kabel xətti Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizi yaradır. Layihə Azərbaycanı regional rəqəmsal haba çevirməklə yanaşı, internet trafikinin ötürülməsində tranzit rolunu gücləndirir. Süni intellect və kibertəhlükəsizlik sahəsində aparılan islahatlar xarici texnologiya nəhənglərinin Azərbaycana marağını artırır. Dövlət idarəçiliyində rəqəmsallaşmanın genişləndirilməsi, "ASAN xidmət" modelinin intellektual idarəetmə sistemləri ilə inteqrasiyası, Azərbaycanın müasir dövlət quruculuğu modelini dünyaya təqdim edir. Sadalanan bütün faktlar sübut edir ki, Azərbaycan Davos Forumuna qlobal gündəliyi müəyyən edən, həll yolları təklif edən və konkret nəticələr əldə edən strateji tərəfdaş kimi qatılır.

2026-cı il Davos Forumundan sonrakı mərhələdə Azərbaycanın Avropa ilə inteqrasiyası daha da dərinləşəcəyi şübhəsizdir. Xüsusilə enerji təhlükəsizliyi sahəsindəki əməkdaşlıq strateji müttəfiqlik səviyyəsinə yüksələcək. Cənub Qaz Dəhlizinin genişləndirilməsi, Yunanıstan-Bolqarıstan interkonnektorunun tam gücü ilə işləməsi və Serbiya, Albaniya kimi yeni bazarlara çıxış Azərbaycan qazının coğrafiyasını genişləndirir. Bu proseslərin mərkəzində dayanan Azərbaycan Şərq–Qərb və Şimal–Cənub dəhlizlərinin kəsişməsində yerləşən unikal coğrafi mövqeyini siyasi kapitala və iqtisadi dividendlərə çevirməyi bacarır. Prezident İlham Əliyevin "biz dediyimiz sözə əməl edirik" tezisi beynəlxalq aləmdə Azərbaycan imzasına inamın təməl daşıdır.

Müasir dünyada enerji təhlükəsizliyi milli təhlükəsizliyin sinoniminə çevrilib. Bu baxımdan, Azərbaycanın təklif etdiyi enerji layihələri regionda sülh və sabitlik amilidir.

Dövlət başçısının Davos səfərinin ən mühüm məqamlarından biri qlobal media qurumlarına verdiyi müsahibələr və panel çıxışlarıdır. Prezident İlham Əliyev hər zaman olduğu kimi, səlis məntiqi, dərin biliyi və arqumentləri ilə auditoriyanı ələ alır, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırır. Xüsusilə, anti-Azərbaycan kampaniyası aparan bəzi dairələrin əsassız iddialarını faktlarla darmadağın edən ölkə rəhbəri informasiya müharibəsində də üstünlüyü əldə saxlayır. Bu amili vurğulamaq yerinə düşər ki, Davos platforması erməni lobbisinin və onların havadarlarının yalan təbliğatına qarşı ən effektiv mübarizə meydanlarından biridir. Burada səslənən həqiqətlər, dünyanın qərar qəbul edən şəxslərinə birbaşa çatır və Azərbaycanın ədalətli mövqeyinin dəstəklənməsinə zəmin yaradır.

Yanvarın 19-dan 23-dək Davosda yaşanacaq proseslər Azərbaycanın müstəqillik tarixinin parlaq səhifələrindən biri kimi yadda qalacaq. Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən strateji kurs ölkəmizi qlobal səviyyəli liderə çevirib. İqtisadiyyatın şaxələndirilməsi, enerji təhlükəsizliyi, nəqliyyat infrastrukturu və rəqəmsal transformasiya sahələrində qazanılan uğurlar Azərbaycanın gələcəyinin etibarlı əllərdə olduğunu göstərir. Dünya iqtisadiyyatının flaqmanları ilə qurulan əlaqələr ölkəmizin davamlı inkişafını təmin edən amillərdir. Qlobal qeyri-müəyyənliklər dövründə Azərbaycanın sabitlik və tərəqqi simvolu kimi çıxış etməsi beynəlxalq aləmdəki dostlarının sayını artırır. Bakının bu platformadakı uğurlu iştirakı xalqımızın rifahına, dövlətimizin qüdrətinə və regionumuzun təhlükəsizliyinə xidmət edən missiyadır. Dünya dəyişir, lakin Azərbaycanın inkişaf əzmi və strateji hədəfləri dəyişməz olaraq qalır: güclü dövlət, müstəqil siyasət və xoşbəxt gələcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Dezinformasiya: "Ems teleqramı" və müasir dövr

## *Yaxud niyə ayıq-sayıq olmalıyıq?*

**"Ems teleqramı" və ya qısaca "Ems depeşası" tarixə dahi kansler Otto fon Bismarkın Fransa–Prussiya müharibəsini (1870–1871) başlatmaq və Prussiyanın qələbəsini təmin etmək naminə həyata keçirdiyi həlledici gediş olaraq düşüb. Söhbət informasiya manipulyasiyası kimi qiymətləndirilən gedişdən gedir. O gediş ki, müasir dövrümüzdə onun çoxsaylı nümunələri var. Yazımızda məsələyə sabah, yəni yanvarın 21-də Medianın İnkişafı Agentliyinin, Azərbaycan Mətbuat Şurasının və Azərbaycan Milli QHT Forumunun tərəfdaşlığı ilə keçiriləcək "Dezinformasiya: qlobal miqyasda və Azərbaycan reallığında ən ciddi təhlükə kimi" mövzusunda ictimai müzakirənin vacibliyi kontekstində toxunacağıq. Əvvəlcə isə "Ems depeşası" barədə.**

1870-ci ildə İspaniya taxtına Hohensollern sülaləsindən bir şahzadənin namizədliyi irəli sürülmüşdü. Bu, Fransa üçün strateji təhdid idi. Çünki ölkə şimalda və cənubda Hohensollernlərin mövcudluğunu qəbul etmirdi. Ona görə də Paris Prussiyaya qarşı ultimativ tələblər irəli sürdü. Fransa səfiri Ems kurortunda Prussiya kralı I Vilhelmlə görüşərək, gələcəkdə bu cür namizədlikləri dəstəkləməyəcəyinə dair rəsmi təminat istədi. Kral səfirin tələbini nəzakətlə, lakin qəti şəkildə rədd etdi və məsələ barədə kansler Bismarka yumşaq, diplomatik üslubda teleqram göndərdi. Bismark isə həmin teleqramı qısaltdı, oradan diplomatik ifadələri çıxardı, mətni Fransaya qarşı təhqiramiz və sərt təsir bağışlayan, Prussiyanı qürurlu və barışmaz göstərən tərzdə formalaşdırdı. Yəni mahiyyət dəyişməsə də, tonu ağırlaşdı. Ən əsası isə Bismark redaktə ilə ağırlaşdırılmış mətni mətbuata sızdırdı ki, bu, Fransa ictimai rəyinin partlamasına səbəb oldu. Nəticədə, III Napoleon hökuməti durumu şərəf məsələsi olaraq qiymətləndirdi və Prussiyaya müharibə elan etdi.

Gedişat Bismarkın arzuladığı kimi idi. Kansler Cənubi Alman İttifaqına üzv dövlətlərin Prussiyanın yanında müharibəyə qoşulmasına nail olmaq istəyirdi. Çünki ittifaq hücuma məruz qalan tərəfin müdafiəsi prinsipini rəhbər tuturdu və Bismark məqsədinə çatdı. O, beynəlxalq aləmdə ölkəsini müdafiəçi ampluasında göstərdi. Cəmi bir il davam etmiş savaş Fransanın acınacaqlı məğlubiyyəti ilə yekunlaşdı. Alman kansler isə tarixə, eyni zamanda, informasiya manipulyasiyasının mahir icraçısı kimi düşdü.

Heç şübhəsiz, Bismark hazırkı dövrdə yaşasaydı, müasir informasiya manipulyasiyaları metodlarından da istifadə edərdi. O metodlardan ki, sayı-hesabı yoxdur və ümumi ad altında onlara həm də dezinformasiya deyirik. Onu da deyirik ki, dezinformasiya informasiya əsrinin cəmiyyətlərə qazandırdığı son dərəcə qorxulu kabusdur. Bir andaca dinc birgə yaşam qaydalarını təhdid etmək potensialını daşıyan kabus. Adını qeyd etdiyimiz "Dezinformasiya: qlobal miqyasda və Azərbaycan reallığında ən ciddi təhlükə kimi" mövzusunda ictimai müzakirədə də bu kimi məqamlara aydınlıq gətiriləcəyi aşkardır.

Bəli, Azərbaycanda dezinformasiyaya qarşı mübarizədə innovativ dayanıqlılığın yaradılması mütləq əhəmiyyət daşımaqdadır. Bu, günün təxirəsalınmaz tələbidir. Prezident İlham Əliyevin ötən həftə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanuna etdiyi dəyişiklik də bundan qaynaqlanır. Dəyişikliyə əsasən sosial şəbəkələrdə, saytlarda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik yağdıran hərəkətlər, əxlaqsız ifadələrin səsləndirilməsi və ya belə məzmun təəssüratı yaradan jestlər qadağan edilir.

Reallıq budur ki, son illər rəqəmsal platformaların sürətli inkişafı cəmiyyətlərin informasiya mühitini köklü şəkildə dəyişdirməklə yanaşı, yeni çağırışlar və risklər formalaşdırıb. Sosial şəbəkələr və onlayn resurslar insanların fikir və mövqelərini sərbəst ifadə etmələri üçün geniş imkanlar yaratdığı kimi, eyni zamanda, açıq hörmətsizlik, əxlaqa zidd ifadələr və ictimai mənəviyyatı təhqir edən məzmunların yayılmasına zəmin hazırlayıb. Mövcud tendensiya artıq təkcə etik problem kimi deyil, sosial münasibətlərə, xüsusilə gənc nəslin dünyagörüşünə mənfi təsir göstərən ciddi ictimai təhlükə olaraq qiymətləndirilir. Belə bir şərait fonunda qanunvericiliyə edilən dəyişikliklər Azərbaycanın onlayn mühitində davranış standartlarının daha dəqiq müəyyənləşdirilməsinə və boşluqların aradan qaldırılmasına yönəlmiş mühüm addımdır.

Yeni hüquqi mexanizmlər rəqəmsal məkanda məsuliyyət anlayışını gücləndirməklə yanaşı, ictimai nizamın qorunmasına xidmət edən normativ çərçivə yaradır. Eyni zamanda, qanun sosial şəbəkə istifadəçilərində məsuliyyət hissinin formalaşmasına töhfə verir ki, bu yanaşma söz azadlığı ilə ictimai maraqlar arasında tarazlığın qorunmasına yönəlmiş rasional və balanslı mövqeni əks etdirir. Nəticə etibarilə, dəyişikliklər rəqəmsal məkanda davranış mədəniyyətinin formalaşdırılması, sosial məsuliyyətin artırılması və milli-mənəvi dəyərlərin qorunması baxımından strateji əhəmiyyət daşıyır.

Əlbəttə, informasiya azadlığı ilə etik məsuliyyət arasında harmoniyanın təmin edilməsi yalnız hüquqi mexanizmlər vasitəsilə deyil, eyni zamanda, ictimai şüurun inkişafı ilə mümkündür. Bu baxımdan "Dezinformasiya: qlobal miqyasda və Azərbaycan reallığında ən ciddi təhlükə kimi" kimi müzakirələrin sayının çoxluğuna ehtiyac var. "Media haqqında" Qanunda yer alan "Media savadlılığı" anlayışının təbliğinə də həmçinin. Nəzərə alınmalıdır ki, bu anlayış müasir informasiya cəmiyyətində əsas anlayışlardan biri kimi çıxış edir və özündə sadəcə informasiya istehlakını deyil, onun şüurlu, tənqidi və məsuliyyətli qavranılması bacarığını ifadə edir.

Bəli, media savadlılığı fərdin müxtəlif media mənbələrindən daxil olan məlumatları təhlil etmək, qiymətləndirmək, müqayisəsini həyata keçirmək, etibarlılığını yoxlamaq və nəticə etibarilə düzgün mövqe formalaşdırmaq qabiliyyətidir.




Deməli, bir qədər əhatəli desək, bu anlayış təkcə informasiyanı oxumaq və izləmək deyil, onun kim tərəfindən, hansı məqsədlə və hansı kontekstdə yayıldığını anlamağı da əhatə edir. Ona görə də media savadlılığı tənqidi düşüncə, mənbə analizi, fakt və rəyin fərqləndirilməsi, media mesajlarının dilini anlamaq, yəni, başlıqların, vizual elementlərin, simvolların və emosional çağırışların rolunu dərk etmək, məsuliyyətli paylaşım (təsdiqlənməmiş məlumatları yaymamaq, etik normalara riayət etmək) deməkdir.

Tam əminliklə vurğulaya bilərik ki, XXI əsrdə media savadlılığı oxuyub-yazmaq qədər vacib bacarıqdır. Çünki rəqəmsal dövrdə informasiya axınının sürəti və həcmi misilsiz dərəcədə artıb. Bu şəraitdə dezinformasiya və saxta xəbərlər asanlıqla yayılır, emosional və təxribat xarakterli məzmun ictimai rəyə təsir göstərir, xüsusilə gənclər manipulyasiyalara daha həssas olurlar. Belə bir durumda media savadlılığı fərdi bu cür risklərdən qoruyan intellektual müdafiə mexanizmi rolunu oynayır və cəmiyyətdə sağlam informasiya mühitinin formalaşmasına xidmət edir. Yəni media savadlılığının təmin olunduğu cəmiyyətdə informasiya kor-koranə qəbul olunmur, ictimai proseslərə şüurlu münasibət bəslənilir, fikir formalaşdırarkən fərziyələrə və ehtimallara yox, faktlara söykənilir. Bütün bunlar isə demokratiyanın, ictimai dialoqun və sosial sabitliyin müstəsna şərtlərindən birinə çevrilir.

Sonda yenidən Otto fon Bismarka qayıdaq. Onun müdrik kəlamlarının yekunu bunu söyləməyə əsas verir ki, hansısa konkret hadisənin özü qədər onun ictimai rəyə necə çatdırılması da həlledicidir. Haqqında söz açdığımız "Ems teleqramı" məhz bu yanaşmanın praktik nümunəsidir. Ancaq bir məqam var ki, Bismark informasiya manipulyasiyasından alman dövlətlərinin birləşməsi naminə bəhrələndi. Yəni o, yekunda mütərəqqi dövlətçilik amalını gerçəkləşdirdi. Müasir dövrün informasiya manipulyatorları isə, bir qayda olaraq, cəmiyyətləri, böyük anlamda götürsək, milli dövlətləri parçalamaq məqsədinə köklənirlər. Belə təmayüllərdən sığortalanmaq üçün ayıq-sayıq olmalıyıq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

*20 Yanvar qırğını – 36*

# Sovet imperiyasının Bakı məğlubiyyəti

## *Mixail Qorbaçov Azərbaycana deyil, xalqımız Kreml cəlladına dərs vermişdi*

**Sonuncu sovet diktatoru Mixail Qorbaçovun 70 il tarixə hökm etmiş sovet imperiyasını süquta aparan bədnam yenidənqurmasının ən böhranlı ünvanı Azərbaycan, ən mürəkkəb problemi Qarabağ münaqişəsi, ən dəhşətli cinayəti 20 Yanvar Bakı qırğını olmuşdu.**




O zaman törədilmiş vəhşiliyin qanlı görüntüləri, xəyanətkar izləri milyonlarla insanı yüksək cərəyan kimi silkələyib eyni məcraya yönəltdi. Yumruq halına gəlmiş xalqımız heç hərbi gücün ram edə bilməyəcəyi qüdrətli sipərə döndü. Şəhərə yeridilmiş zəhmli bir güc–gecə yatmış şəhərin başında fırtına qoparmış müasir hərbi texnikanın və mərkəzi obyektlərə sıx-sıx yerləşdirilmiş qoşun bölüklərinin özü səhərin açılması ilə güclü qasırğanın qoynuna düşüb acizləşdi.

Gecənin qana bələdiyi şəhərin yaralarına gur işıq salan o qırğın səhəri vətəndaşı olduğu dövlətdən xəyanət və qəddarlıq görmüş xalqımız gur axınlarla Mərkəzi Komitə deyilən respublikanın baş qərargahına tərəf axışıb, gecəni burada keçirmiş, qorxub-çəkinmədən yerində dayanaraq zirehli texnikanın əhatəsində qalmış dinc, əliyalın soydaşlarımıza qoşulmağa can atırdı. Qəzəblənmiş insan seli çox keçmədi ki, zirehli texnikadan "hörülmüş" dəmir hasarı uçuraraq, sanki, alov püskürən böyük vulkana döndü.

Çox keçmədi ki, yurdsevər rəssamlarımız Mərkəzi Komitənin qarşısında uzanan hündür divarı iri bir pannoya çevirib, qanlı "Bakı zəfəri"nin bədnam müəllifi, sovet rəhbəri Mixail Qorbaçovun böyük bir karikaturasını oraya rəsm etdilər. Nəhəng təsvirdə Qorbaçovun əlindəki baltadan qan süzülürdü. Rəsmin altında rusca, "Qorbaçov insan qəssabıdır" anlamı verən sözlər yazılmışdı.

Heç şübhəsiz, o anlarda və saatlarda Bakıda baş verənləri nəfəs dərmədən izləyən Kreml ağasına şəhərdəki digər önəmli təfərrüatlarla yanaşı, bu karikatura barədə də bilgi çatdırılmışdı. Lakin yanvarın 22-də şəhidlərin dəfnindən sonra–xalqın mübarizəsi 40 günlük dinc etirazlar məcrasına dönənədək bu karikaturanı heç bir qüvvə həmin yerdən yox edə bilmədi. Bu karikaturanı tirajlayan fotolarsa bütün dünyaya yayılaraq insan qəssabına çevrilmiş Qorbaçovu şiddətli bir hiddət və nifrətlə üz-üzə qoydu.

O saatlarda və günlərdə Qorbaçovun öz qanlı əməli barədə nə düşündüyünü söyləmək çətindir. Amma illər keçəndən sonra sonuncu sovet tiranı "Həyat və islahatlar" adı ilə çap olunmuş xatirələrində, yüngül də olsa, özünü suçlu bilib. O dövrü yada salan insan qəssabı səmimi, ya qeyri-səmimi yazıb: "1990-cı ilin yanvarında çoxlu sayda bakılının həyatı yarımçıq qaldı. Bu ağırdır, çox ağırdır". Bəs o vaxt bunu düşünmək olmazdımı? Əlbəttə, olardı, lakin ətrafını sarmaşıq kimi bürümüş erməni-daşnak guruhunun yaratdığı sədd bu həqiqəti görməyə imkan verməmişdi.

İllər sonra "əsas günahı" Qarabağ hadisələrində görən Qorbaçov, görəsən, "Qarabağ cinini" şüşədən çıxaranda nə düşünmüşdü? Bəlkə, elə bilmişdi ki, dünyanın ən gözəl bir məkanını min illər boyu öz qanı-canı ilə qoruyub Vətən etmiş Azərbaycan xalqı onun xatirinə Qarabağı siniyə qoyub özgə torpaqlarına təşnə olan ermənilərə peşkəş edəcək?! Axı o aylarda və illərdə, elə həmin gecə də Azərbaycan xalqı ona görə ayağa qalxmışdı ki, Qorbaçovun özünə anlatsın: "Torpaqdan pay olmaz!", "Həddini aşmış erməniləri yerində oturdun!" O gecə ermənilərə güzəştə getməməyin heyfini azərbaycanlılardan alan bədnam "Baş katib"in illər sonrakı əsassız bəhanəsi, əlbəttə, Bakıda "yarımçıq qırılmış ömürləri" bitişdirməyə qadir deyil.

Daha sonra "90-cı ilin yanvarından dərs götürülübmü? Şübhə edirəm: bunun sübutu erməni–azərbaycanlı müharibəsidir" - deyən Qorbaçov bu müharibəyə özünün bais olduğunu unutdurmaqmı istəyir? Bu qanlı hadisələrdən yaxasını kənara çəkməyə can atan M.Qorbaçov sovet qoşunlarının Bakıya hərbi müdaxiləsinə "fövqəladə şərait"in məcbur etdiyini yazıb: "1990-cı ilin yanvarında fövqəladə şərait bizi fövqəladə vəziyyətin elan edilməsinə məcbur etdi. Bu addım daha çox qan axıdılmasının qarşısını almaq üçün atıldı", – deyə eks-prezident vicdanı ağrımadan yazıb.

20 Yanvar qırğınının səhəri gün Moskvada Azərbaycan nümayəndəliyinə gələn xalqımızın qeyrətli oğlu Heydər Əliyev görün vəziyyəti vaxtında nizama salmağın mümkünlüyünü necə aydın göstərib: "Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün ikiillik müddət kifayət idi. Hesab edirəm ki, ötən ikiildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı".

M.Qorbaçov Bakıya qoşun yeridilməsinin bir səbəbini də "Azərbaycanda hakimiyyətin parçalanmasında" görüb. Axı bu parçalanmanı da o özü yaratmışdı. Onun naşı, gerçək toqquşmalara aparan hökmlərini yerinə yetirən Azərbaycan rəhbərliyi bu mütiliyi ilə öz xalqının gözündən düşmüşdü. Qorbaçov da öz xalqının maraqlarından heç vaxt bir addım geri çəkilməyən dünyaşöhrətli dövlət xadimi Heydər Əliyevi məhz onun məkrli niyyətlərinə qarşı olduğuna görə böyük siyasətdən uzaqlaşdırmışdı.

Daha sonra yeni qondarma arqumentlərə üz tutan M.Qorbaçov bildirib: "13 yanvarda Bakıda xuliqan elementlər insan itkisi ilə müşayiət olunan kütləvi iğtişaş törədiblər". Axı sovet diktatoru niyə yada salmır ki, bu iğtişaşlar onun sonrakı planlarını həyata keçirmək üçün məqsədli şəkildə törədilmişdi. Əgər o dinclik yaradan idisə, niyə bu fitnəkarlığın qarşısını vaxtında almaq əvəzinə, bütöv bir xalqın üstünə qoşun yeridirdi? Əgər o, günahsız insanları qorumaq istəyirdisə, niyə Ermənistandan 200 min azərbaycanlı qarət və təhqir olunub qovulanda özünü görməzliyə vurmuşdu?

Keçmiş SSRİ prezidenti ardınca yazıb: "Mən Prezident Şurasının üzvü Primakovu və Sov. İKP Mərkəzi Komitəsi adından Aleksandr Girenkonu Bakıya göndərdim. Onlar mənə zəng vurub bildirdilər ki, Azərbaycanda vəziyyət nəzarətdən çıxıb. 18 rayonda hakimiyyət orqanlarının fəaliyyəti dayandırılıb və İranla 200 kilometr sərhəd sökülüb". Yenə yalan və riyakarlıq. Axı sərhədlər rus sərhədçilərinin gözü qarşısında və onların iştirakı ilə sökülmüşdü. Qorbaçova da bu lazım idi ki, bəhanə gətirib "dikbaş", "sözəbaxmayan" azərbaycanlılara qanlı divan tutsun.

"20 Yanvar mənə dərs oldu" - yazan Qorbaçov 20 Yanvar qırğınının məsuliyyətini dolayısı yolla olsa da, etiraf edib: "Bu faciəli hadisədən dərs götürdüm. Hakimiyyət ekstremal situasiyada güc tətbiqindən imtina edə bilməz. Ancaq bu aksiya mütləq olaraq əsaslandırılmalı və çox sərt tədbirlərlə bağlı addım məhdudlaşdırılmalıdır. Problemin həlli yalnız siyasi yolla tapılmalıdır".

Bunu dərk etmək üçün illər lazım idimi? Belə sərt tədbirlərə ehtiyac olmadığını, qarşıdurmanı aradan qaldırmağı və vəziyyətin nizama salınmasını dinc üsullarla da həyata keçirməyin mümkünlüyünü Qorbaçovun özünə siyasi rəqib seçdiyi Heydər Əliyev Azərbaycan nümayəndəliyindəki bəyanatında qətiyyətlə söyləmişdi: "Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir. Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi".

Həmin bəyanatda Ulu öndərin söylədikləri Qorbaçovun, xala-xətrin qalmasın, etirafının qeyri-səmimiliyini qəti surətdə ortaya qoyur: "Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar".

Azərbaycan xalqının həqiqi lideri həmin bəyanatında Qorbaçovun gələcək qənaətini, azı, 20 il qabaqlamışdı: "Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir". Ulu öndər öz yekun qənaətini isə belə ifadə etmişdi: "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

Böyük siyasət və dövlət xadimi Heydər Əliyev az sonra Vətənə dönəndə Mixail Qorbaçovun 20 Yanvarla bağlı cinayətinə belə qiymət vermişdi: "Azərbaycan Respublikasının ali hakimiyyət orqanından tələb etməliyik ki, qısa müddətdə, yaxud heç olmasa, növbəti sessiyada bu məsələ müzakirə olunsun. Yanvar hadisələrinə siyasi qiymət verilsin və bu hadisənin günahkarları – kim olursa-olsun, Qorbaçovdan tutmuş aşağı respublika rəhbərlərinə kimi, keçmiş, ya indiki - fərqi yoxdur, bu, xalqa qarşı cinayətdir, - cəzalandırılsın. Bir nəfəri öldürənə qanunlara görə ən yüksək cəza verirlər. Ancaq burada gör nə qədər adam həlak olubdur – bir nəfər günahkar meydana çıxmayıbdır. Bu qədər qanunsuzluğa, demokratiyanın bu qədər pozulmasına dözmək olmaz. Ona görə bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın Ali hakimiyyət orqanından tələb etməliyik ki, buna baxsın və günahkarlar cəzalandırılsın".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə Ulu öndərin 20 Yanvar faciəsinə münasibətini belə ifadə edib: "Ulu öndər tarix yaradan bir şəxsiyyət olmaqla yanaşı, həm də tarixi hadisələrə ən doğru-düzgün qiymət verən mütəfəkkir dövlət xadimi, misilsiz bir şəxsiyyətdir. Bu baxımdan dahi siyasətçinin 20 Yanvar hadisələri ilə bağlı siyasi fəaliyyəti və bu faciəyə verdiyi qiymət özü mükəmməl bir tarixi nümunədir".

Xalqımızın böyük oğlu Heydər Əliyev, hər şeydən əvvəl, bu faciəni Azərbaycana qarşı törədilmiş bəşəri cinayət adlandırmışdır. İkincisi, 20 Yanvar xalqımızın həyatında dərin və sonsuz hüzn törətməsinə baxmayaraq, ulu öndər onu tarixi qəhrəmanlıq nümunəsi kimi dəyərləndirmiş, yeni nəsillər üçün örnək səviyyəsinə yüksəltmişdir. Üçüncüsü, müstəqilliyimizin banisi faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, onun zərədidələrinə dövlət qayğısı göstərilməsi üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. 20 Yanvar hadisəsi ilə bağlı Ulu öndərin mövqeyi, açıqlamaları, atdığı addımlar 36 il öncə baş vermiş mürəkkəb və qanlı hadisələrin mahiyyətini anlamaqda, onun ibrət dərslərini öyrənməkdə xalqımızın qiymətli mənəvi qaynağıdır.

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verildi. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Heydər Əliyev hələ sovet imperiyasının mövcud olduğu bir dövrdə heç nədən çəkinmədən öz millətinin hüquqlarının müdafiəsinə qalxdığını sübut etdi. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi Azərbaycan rəhbərliyindən tələb edilirdi.

Ölkəmiz müstəqillik qazandıqdan sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı. 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi ilə bağlı kifayət qədər vaxtları və imkanları olsa da, istər Ayaz Mütəllibov iqtidarı, istərsə də AXC–Müsavat qaragüruhu bunu etmədi. Baxmayaraq ki, hadisəyə siyasi-hüquqi qiymətin verilməsi istiqamətində çox iş görmək olardı. Əksinə, onlar müxtəlif səthi qərarlar qəbul edə-edə və ya etdirə-etdirə həmin günün müsibətlərini xalqımıza unutdurmağa çalışdılar.

Yalnız ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ulu öndər Heydər Əliyev bu barədə deyirdi: "Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Ulu öndərin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı fərmanda həm də Milli Məclisə hadisəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunurdu. Bu qiymət xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi. 1994-cü il mart ayının 29-da ölkə parlamenti "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Beləliklə də 20 Yanvar faciəsi məhz Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz siyasi-hüquqi qiymətini aldı.

Ümummilli lider Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının gücləndirilməsinə hər zaman böyük diqqətlə yanaşırdı. Ulu öndər hər il yanvarın 20-də Şəhidlər xiyabanına gələrək ziyarət edir, şəhid ailələri ilə görüşür, onların qayğıları ilə maraqlanırdı. Bu gün Şəhidlər xiyabanında ucalan "Əbədi məşəl" abidə–kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq inşa olunub. Heydər Əliyevin 2000-ci il yanvarın 17-də imzaladığı fərmanla isə 1990-cı ilin faciəli yanvar günlərində şəhid olmuş oğul və qızlarımıza "20 Yanvar şəhidi" fəxri adı verilib.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev şəhidlərin adının uca tutulmasına, onların ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir, hər il faciənin ildönümündə Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə–kompleksinin önünə əklil qoyur.

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar vermişdir. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" fərmanı ilə şəhid ailələrinə təqaüd verilir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Şəhidlər xiyabanında əsaslı təmir və yenidənqurma işləri aparılıb.

Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından 36 il keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecənin faciəsinin ağrısı ilə yaşayır, bu vəhşiliyi törədənlərə, xəyanət və fəlakətin səbəbkarlarına öz dərin nifrətini bildirir. Azərbaycan xalqı qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər il 20 Yanvarda onların xatirəsini dərin ehtiramla yad edir. Hər il dövlət səviyyəsində geniş tədbirlər planı hazırlanaraq həyata keçirilir, qanlı qırğının ildönümü respublikanın bütün şəhər və rayonlarında anılır.

Xalq o günlərdə böyük bir gerçəyi – həqiqi liderin meydanda olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş günlərdə Heydər Əliyevin – qüdrətli liderin yoxluğu günün ən böyük həqiqəti kimi dərk olundu. 20 Yanvar günündə xalqının səsinə hər kəsdən əvvəl səs verən də Heydər Əliyev oldu. Ümummilli lider 1990-cı il yanvarın 21-də oğlu, silahdaşı, o çətin günlərdə atasını bir an belə tək qoymayan İlham Əliyevlə birlikdə ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gəldi, təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi.

20 Yanvar hadisələri Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə həm də qəhrəmanlıq səhifəsi kimi yazılıb. Həmin gün öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini uca tutan Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə yüksəldilər. Vətənin azadlığı, suverenliyi uğrunda özlərini qurban verən şəhidlərin xatirəsi həmişə qəlbimizdə yaşayacaq.

***Tahir AYDINOĞLU,***
***Əməkdar jurnalist***

**Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə, nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür. Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır.**

***Ümummilli lider Heydər Əliyevin Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışından***

O böyük dövlət xadiminin qanlı faciənin ertəsi günü – 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində səsləndirdiyi etirazlar da riskli idi, inanıb etibar etdiyimiz dövlətin əli ilə başımıza açılan qanlı olaylardan təxminən, bir il sonra Bakıda səsləndirdiyi (yuxarıda iqtibas gətirdiyimiz) ittihamlar da. Çünki Sovet dövləti hələ süqut etməmişdi və onsuz da türkçülükdə ittiham edilən Heydər Əliyevin bədxahları çox idi. Ancaq Heydər Əliyev xalqın mənafeyi naminə risk etmək, fədakarlıq göstərmək nümunəsi yaratmağın ustası idi.



# Ümummilli lider Heydər Əliyev Bakı qətliamını kəskin ittiham etmişdi

*Qırğına məruz qalmış xalqımız həmin gün həqiqi liderini tapmışdı*

Doğrudur, Ulu öndər həm ölkəmizə rəhbərlik etdiyi 1969 – 1982-ci illərdə, həm də SSRİ rəhbərlərindən biri kimi Moskvada çalışdığı müddətdə gələcək müstəqil Azərbaycan dövləti naminə olduqca mühüm addımlar atırdı. Təbii ki, həmin illərdə onun böyük vəzifələri var idi və o vəzifələrin yaratdığı şəxsi münasibətlərdən istifadə edərək xalqımızın gələcəyinə hesablanmış layihələrin reallaşdırılmasına nail olurdu. Ancaq onun məlum faciədən sonra – "Kremlin qulağının dibində" ittihamlar səsləndirərkən heç bir vəzifəsi yox idi. Yəni ehtiyatlanmalı idi. Ancaq ehtiyatlanmadı, çəkinmədi, ailə üzvləri ilə birlikdə ölkəmizin bir parçası olan daimi nümayəndəliyimizə gələrək xalqımızın səsini dünya ictimaiyyətinə, özünün etirazlarını isə SSRİ rəhbərliyinə çatdırdı.

Ancaq tarixçilərin fikrincə, Ulu öndərin həmin çıxışı dünya ictimaiyyətindən də, Moskva rəhbərlərindən də əvvəl Azərbaycan xalqına ünvanlanmışdı. Heydər Əliyev milli azadlıq arzusuyla alışıb-yanan xalqımıza deyirdi ki, sınmayın, yolunuzdan dönməyin, möhkəm dayanın, mən sizin yanınızdayam: "Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm...". Diqqət yetirin, Azərbaycan rəhbərliyinə yox, bilavasitə Azərbaycan xalqına. Bu nə deməkdi? Xalq azadlıq hərəkatının fəallarına mesaj göndərilirdi ki, hazırda imkanım olmasa da, gec-tez bu imkan olacaq.

Azərbaycanda törədilmiş faciəyə gəlincə isə, Ulu öndər həmin faktı hüquqa, demokratiyaya yabançı, humanizmə və hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirdi: "Camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsəydi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə, hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur".

Bakı qırğınının təşkilatçısı və icraçısı olmuş Sovet rəhbərlərinin həmin vəzifədə olduğu günlərdə onların əməllərini səhv adlandırmaq o qədər də asan məsələ deyildi. Ancaq Heydər Əliyev cəsarətlə həmin addımı siyasi səhv adlandırmışdı: "Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, konkret siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəifləmişlər".

Tarixi sənədlərdə oxuyuruq ki, Azərbaycan xalqının böyük oğlu həmin hadisəni sovet imperiyasının cinayəti, Azərbaycan xalqına qarşı vəhşilik kimi qiymətləndirmişdi. Nəticədə, Azərbaycanın suverenliyi və torpaq bütövlüyü uğrunda mübarizə dəstəklənmişdi, qısa müddət sonra isə, o, Azərbaycanda Milli Qurtuluş hərəkatının əsas simalarından biri kimi ortaya çıxmışdı.

Ekspertlər sual verirlər ki, Bakıda baş verən 20 Yanvar faciəsinə ilk qiyməti məhz Moskvada Heydər Əliyevin verməsi, sovet rejiminin cinayətini kəskin şəkildə pisləməsi yeganə fakt idimi? Əlbəttə ki, yox.

Yuxarıda xatırlatdığımız kimi, 1991-ci il martın 7- də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxış edən xalq deputatı Heydər Əliyev 20 Yanvar hadisəsini növbəti dəfə çox sərt şəkildə şərh etmişdi. Ulu öndər qatillərin aşkarlanması məsələsini yenidən qaldırmış, 20 Yanvar faciəsinə Ali Sovetin sessiyasının qiymət verməli olduğunu bildirmişdi.

Bundan başqa, 20 Yanvar faciəsini törədənlərə daha sərt şəkildə etiraz edən Ulu öndər SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı 19 iyul 1991-ci il tarixli ərizəsi ilə kommunist partiyası sıralarından çıxdığını bildirmişdi. Həmin ərizədə kommunist rejiminin ölkəni uçuruma apardığı, SSRİ-nin dağılmasının labüdlüyü açıq şəkildə bəyan edilirdi: "Bu antihumanist, konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov. İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid edirdim. Artıq ilyarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil".

Başqa bir fakt. Moskvanın mövqeyi aydındır. Onlar müttəfiq adlandırdıqları respublikaları daim təzyiq altında saxlayırdılar. Ona görə də 20 Yanvar qırğınına nəinki siyasi, hüquqi qiymət vermək istəməzdilər, əksinə, o boyda faciənin ört-basdır edilməsinə çalışırdılar. Ancaq 1990-cı ilin yanvarından sonra ölkəmizdə hakimiyyətdə olan şəxslərin və qüvvələrin bu məsələdə ilk vəzifəsi faciəni təhlil etmək, günahkarları üzə çıxarmaq və dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermək olsa da, bununla bağlı 1993-cü ilə qədər, faktiki olaraq, heç bir tədbir görülməmişdi. Eləcə də 1990-cı il yanvarın 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoymuş və sonrakı sessiyalarda bu məsələnin müzakirəsi davam etdirilməmişdi. Ali Sovetin yanvar hadisələrini tədqiq etməli olan komissiyasının işi isə başa çatdırılmamış qalmışdı.

Təbii ki, Heydər Əliyev bu faktlarla barışa bilməzdi. Odur ki, Ümummilli lider 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə demişdi: "...Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Ancaq Heydər Əliyev bir çox məqamların bəyan edilməsi üçün "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanını imzaladı. Orada deyilirdi: "Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".

Həmin rəsmi dövlət sənədinə əsasən Milli Məclisdə geniş müzakirələr aparıldı və yekun olaraq həmin il martın 29-da müvafiq qərar qəbul edildi. Həhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli azadlıq hərəkatını boğmaq, suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

Başqa bir fakt. Heydər Əliyevin ölkədə siyasi hakimiyyətə qayıtmasınadək xalqımız, bütün siyasətçilərimiz, xarici ölkələrdəki dost və tərəfdaşlarımızın hamısı 20 Yanvar hadisələrini "qanlı faciə" adlandırırdılar. Ulu öndər isə həmin faktı "Azərbaycan tarixinin qanlı və şanlı səhifələrindən biri" adlandırmışdı. Bu isə 1990-cı ilin yanvarında verdiyimiz şəhidlərin xatirəsinə gösrtərilən böyük ehtiram nümunəsi idi. Yeri gəlmişkən, o, şəhidləri və şəhid ailələrini heç vaxt diqqətdən kənar qoymurdu. 20 Yanvar faciəsinin bütün ildönümlərində şəxsən Şəhidlər xiyabanını ziyarət edən Ulu öndər şəhid ailələrinə müraciətlə bütün Azərbaycan xalqı adından onlara başsağlığı verir, problemləri ilə yaxından maraqlanırdı.

Biz məmnunuq ki, həmin ənənəni Prezident, müzəffər Ali Baş Komandanımız İlham Əliyev də uğurla davam etdirir. Bu bir faktdır ki, Ümummilli lider Azərbaycan xalqının milli qurtuluş hərəkatının əsas siması kimi tarixə düşüb, Prezident İlham Əliyev isə 30 ildən çox düşmən tapdağında qalan torpaqlarımızın əsarətdən azad edilməsi, əsrlərlə davam edən erməni terroruna, təxribatına, separatizminə və işğalına son qoyulması ilə!

Bugünkü qüdrətli Azərbaycanın uğurlarına nəzər salarkən məmnunluqla deyə bilirik ki, 20 Yanvar faciəsi zamanı və ondan sonrakı illərdə canını fəda etmiş şəhidlərimizin qanı yerdə qalmayıb. Cənab Prezidentin də dediyi kimi, bütün uğurlarımızın təməlində Azərbaycan xalqının əzmi, ordumuzun qüdrəti və xüsusən şəhidlərimizin Vətən üçün əsirgəmədikləri qanı dayanır. Biz, onları da unutmayacağıq, tarix boyu başımıza gətirilənləri də.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# 20 Yanvar: siyasi-hüquqi qiymət və tarixi yaddaş

**1990-cı il, 20 yanvar...**

Bu tarixi Azərbaycan vətəndaşları unutmayacaqlar. Yanvar ayının 19-dan 20-ə keçən gecə sovet əsgərləri Bakını qana boyadılar. Rəsmi məlumata görə, 131 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı və yüzlərlə insan həbs edildi. Bu, həmin dövrdə sovet ordusunun SSRİ-yə daxil olan respublikalarda yaratdığı ən iri miqyaslı və amansız qırğın idi. Hadisə həm fəlakət, qırğın, qətliam, faciə, həm də azadlıqsevər xalqın mücadilə nümunələrindən biri idi. Silahsız Azərbaycan vətəndaşları özlərini vəhşiləşmiş sovet əsgərlərinin üstünə atır, hətta bir sıra gənclərimiz özünü tank altına ataraq şəhid olurdular. Müəyyən hallarda hərbiçilər ziyalıları, qadınları, uşaqları və gəncləri heç bir səbəb olmadan məhv edirdilər. Sumqayıta gedən yolda salonunda 4 Azərbaycan aliminin olduğu minik avtomobilinin üstündən tankın keçməsi bunun çox ağrılı və faciəvi nümunəsidir.

20 Yanvarla bağlı çox yazılıb və təhlillər aparılmışdır. Bu proses uzun illər davam edəcəkdir. Azərbaycan xalqının yaddaşından isə 20 Yanvar hadisəsi silinməyəcəkdir. Bununla yanaşı, ölkə üçün ən böhranlı zamanda siyasi liderlərin atdıqları addımların təhlili də çox önəmlidir. Çünki məhz belə anlarda kimin kim olduğu aydınlaşır. Ölkə, xalq və dövlət üçün taleyüklü hadisələrə siyasi liderlərin verdikləri reaksiya və qiymət bir sıra hallarda həlledici olur. Bütün xalqın taleyini dəyişdirir. Bu prizmada 20 yanvar 1990-cı ilə bir daha nəzərə salmağa ehtiyac vardır.

**Moskva: 21 yanvar 1990-cı il**

Etiraf edək ki, həmin dövrdə Azərbaycanda hakimiyyətdə olanlar yalançı beynəlmiləlçilik və imperiyaya köləlik təfəkküründən azad olmamışdılar. Onlar müxtəlif bəhanələrlə yanvar ayının 19-dan 20-nə keçən gecə sovet əsgərlərinin Bakıda törətdikləri qətliamlara süni "don geyindirməyə" çalışır və əsasən xalqı günahkar çıxarmaq istəyirdilər. Siyasi müxalifətin bir sıra səhvlərini və ölçülüb-biçilməmiş addımlarını bütövlükdə Azərbacyan cəmiyyətinin boynuna qoymaq cəhdləri hiss edilirdi. Bir sözlə, 1990-cı ilin yanvarında Azərbaycan SSR hakimiyyəti xalqın yanında deyildi.

O dövrdə Moskvada olan Heydər Əliyev isə 1990-cı il yanvarın 21-də Azərbaycan SSR-in oradakı nümayəndəliyinin binasına gələrək çox sərt, lakin ədalətli bəyanat verdi. Ulu öndər hadisəni "cinayət" kimi qiymətləndirmiş və onu törədənləri kəskin şəkildə tənqid etmişdir. Onu hüquqa tam zidd hadisə olaraq qiymətləndirmişdir.

Burada siyasi liderlikdə əhəmiyyəti olan bir məqamı vurğulamaq yerinə düşərdi. 1989-cu ildən başlayaraq bütövlükdə SSRİ ərazisində respublikalarda etirazlar baş verirdi. 1989-cu il aprelin 9-da Tbilisidə etirazçılara qarşı hərbi güc tətbiq edilmişdi və 21 nəfər həlak olmuş, 290 adam isə xəsarət almışdı. 1991-ci ilin 11-13 yanvarında isə Vilnüsdə xüsusi təyinatlılar hərbi güc tətbiq edərək 10-dan çox insanı qətlə yetirmişdilər. Çoxlu sayda dinc sakin xəsarət almışdı. Lakin onların heç birindəki qətliamın miqyası Bakıda olan səviyyədə deyildi.

Bundan başqa, Azərbaycan vətəndaşlarına qarşı olan amansızlıq və güzəştsizlik, antihumanist davranış başqa heç bir yerdə müşahidə edilmirdi. Özü də bu hadisələr Ermənistanın fürsətdən istifadə edərək Azərbaycana təcavüzünü daha da genişləndirməsi fonunda baş verirdi.

Bəs həmin dövrdə SSRİ respublikalarında siyasi fəaliyyətlə məşğul olan şəxslər baş verənlərə necə reaksiya verirdilər? Onlardan heç biri Heydər Əliyev qətiyyəti, cəsarəti və milli maraqlara uyğun davranmağı nümayiş etdirmədi. Baltikyanı respublikaların fəaliyyətlərinin öz məntiqi vardı və orada əsas olaraq Avropa siyasi konyukturasına görə davranırdılar. Həmin respublikalar üçün liderin siyasi iradəsindən çox Qərbdən alınan təlimatlara uyğun Moskvaya qarşı çıxmaq xətti seçilmişdi və o da uğurlu oldu.

Cənubi Qafqazda isə vəziyyət tamamilə fərqli idi. Burada Azərbaycana qarşı xüsusi amansızlıq, Gürcüstana qarşı sərt mövqe, Ermənistana qarşı isə böyük loyallıq vardı. Ermənistan hətta eyni bir dövlətin tərkibində olduğu qonşusuna hərbi təcavüz edirdi, lakin ona qarşı Moskva heç bir addım atmırdı. Sözdə siyasətçilər əhəmiyyətsiz bəyanatlar verirdilər. Ancaq praktiki olaraq ermənilərə heç bir məhdudiyyət qoyulmurdu.

**Liderin cəsarəti və milli maraqlara sadiqliyi**

Həmin dövrdə Eduard Şevardnadze SSRİ-nin xarici işlər naziri idi. Tbilisi hadisələrinə bir qədər loyal münasibət göstərdi. Hətta siyasi müxalifəti qınayan bəyanat verdi. Bir sözlə, gürcü cəmiyyətinin maraqları naminə postundan imtina etmədi. O yalnız 1990-cı il dekabrın 20-də SSRİ-nin xarici işlər naziri postundan istefa verdi. Yəni Tbilisi hadisələrindən 1 il 8 ay sonra!

Əlbəttə, bizim E.Şevardnadzeni qınamaq fikrimiz yoxdur. Lakin faktlar göstərir ki, Heydər Əliyev qətiyyəti başqa kimsədə olmamışdır. Özü də Azərbaycan üçün olduqca çətin və mürəkkəb bir dönəmdə Ulu öndər siyasi qətiyyət və millilik nümayiş etdirmişdir! Bu, liderin tarixi seçimi idi!

Belə ki, Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 21 noyabr 1990-cı il tarixli qərarı ilə 20 Yanvar faciəsinə ilk siyasi qiymət verdi. Həmin qərarda yazılmışdır: "Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər.

Bununla SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinin tələbləri kobudcasına pozulmuş və Azərbaycan SSR-in suveren hüquqlarına açıq-aşkar qəsd edilmişdir.

Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır".

**Qərarda günahkarların isimləri də göstərilmişdir. Bütün bunları nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı il 20 Ynvar hadisəsinə aşağıdakı kimi qiymət vermişdir:**

*"1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.*

*2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.*

*3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR Ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış xüsusi deputat komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun. Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın.*

*4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında milli matəm günü kimi qeyd edilsin.*

*5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də milli matəm günü kimi qeyd edilsin".*

Tam aydın və dəqiq mövqedir. Heydər Əliyev Azərbaycana rəhbərliyi dönəmində bütövlükdə dövlət səviyyəsində 20 Yanvar hadisəsinə dəqiq siyasi qiymət vermişdir. Hələ 1991-ci il martın 7-də xalq deputatı statusunda Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxışında vurğulamışdır: "...1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə, nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür".

**Milli Məclisin 29 mart 1994-cü il tarixli qərarı**

Heydər Əliyevin davamlı fəaliyyəti və birbaşa təşəbbüsü ilə Milli Məclis 1994-cü il martın 29-da 1990-cı ilin qanlı 20 Yanvar faciəsi ilə bağlı qərar qəbul etmişdir. Orada həmin hadisəyə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilmişdir. Vurğuladığımız sənəddə "1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli azadlıq hərəkatını boğmaq, suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirilmişdir".

**20 Yanvar tarixi yaddaş kimi**

Ulu öndər Heydər Əliyevin 20 Yanvar hadisəsi ilə bağlı atdığı addımlar dövlətçilik və tarixi yaddaş əlaqələri baxımından çox əhəmiyyətlidir. Hər bir cəmiyyət üçün tarixi yaddaşın mövcudluğu onun, ümumiyyətlə, var olmasının mühüm şərtlərindəndir. O cümlədən bütövlükdə toplum üçün ciddi təsirləri olan hadisələrin yaddaşlarda doğru, düzgün milli mənafeyə uyğun formalaşdırılması prinsipial psixoloji və siyasi məna kəsb edir. Buna görə ulu öndər Heydər Əliyevin 20 Yanvar 1990-cı il hadisələrinə həm bir vətəndaş kimi emosional münasibəti, həm də siyasi lider, böyük dövlət xadimi olaraq verdiyi siyasi-hüquqi qiymət fövqəladə əhəmiyyətlidir.

Azərbaycan xalqının tarixi yaddaşında 20 Yanvar milli mənafelərimizə və müstəqil dövlətçiliyimizə tam uyğun olaraq rəmzləşdirilmişdir. Həmin günün xüsusi qeyd edilməsinin anlamlarından biri bundan ibarətdir. Burada bir cəmiyyət olaraq buraxdığımız siyasi səhvlərin, həm də müstəqil olmamağın hansı faciələr və fəlakətlər meydana çıxara biləcəyi təkrar-təkrar gözdən keçirilməlidir. Çünki hər tarixi dönəmdə Azərbaycanın müstəqil dövlətçilik ənənəsində 20 Yanvarın yeri və rolu yenidən siyasi və geosiyasi situasiyanın fonunda adekvat qiymətləndirilməlidir.

Prezident İlham Əliyevin fikirləri həmin prizmada çox əhəmiyyətlidir. Dövlət başçısı demişdir: "Azərbaycan xalqına qarşı növbəti təxribat 1990-cı ildə törədilmişdir - Qanlı Yanvar cinayəti. Günahsız insanlar öldürülmüşdür, qətlə yetirilmişdir. 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı törədilmiş böyük cinayətdir. Heydər Əliyev dərhal Öz səsini ucaltdı. Ertəsi gün Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmişdir. Mən də Onunla bərabər orada idim. Mətbuat konfransında sovet rəhbərliyini ittiham etmişdir. Onların hərəkətlərini pisləmişdir".

Azərbaycan Prezidenti ulu öndər Heydər Əliyevin bu addımının böyük siyasi mənası olduğunu ifadə etmişdir. İlham Əliyev vurğulamışdır: "Deyə bilərəm ki, o vaxt sovet məkanında bu, çox nadir bir hadisə idi. Çünki Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı kimi nəhəng bir dövlət dağıla bilər. O vaxt belə cəsarətli addımın atılması bir daha onu göstərdi ki, Heydər Əliyev Öz xalqına nə qədər bağlıdır, bu insan nə qədər fədakardır, nə qədər cəsarətlidir".

Bu qiymətləndirmələri, əlbəttə, xalq unutmamalıdır və bütövlükdə "20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir" (Azərbaycan Prezidenti İlham Əliyev) məzmununda kollektiv səviyyədə tarixi yaddaş elementinə çevirməlidir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Heydər Əliyev Bakıda yaşanan o müsibəti mütləq önləyərdi

## *Oljas Süleymenov 20 Yanvar hadisələri barədə*

**Bu yaxınlarda Almatıda UNESCO-nun nəzdində fəaliyyət göstərən Mədəniyyətlərin yaxınlaşması üzrə mərkəz tərəfindən keçirilən Beynəlxalq Forum Oljas Süleymenovun dərk olunmuş qarşılıqlı asılılıqlar fəlsəfəsinin təbliğinə həsr olunmuşdu. Tədbirin keçirildiyi Caspian Universitetinin iclas zalında hələ 1990-cu ildə Oljas Ömər oğlu "Sülhün tərəfdarları – nüvə silahına qarşı" adlı beynəlxalq konqres təşkil etməklə, planetin bütün nüvə əleyhdarlarını və sülhsevər qüvvələrini bir yerə toplamışdı. Sözügedən Forumun iştirakçıları isə onu sülh üzrə Nobel mükafatına ilk dəfə namizəd göstərmişdilər.**



Həmin forumun ideyalarının inkişafı və təbliği işində Azərbaycanı təmsil edən mədəniyyət xadimləri yüksək fəallıq sərgiləmişdilər. Azərbaycanın xalq yazıçısı, səfir və tanınmış tarixçi-memuarist Elmira Axundova tədbirin mövzusuyla bağlı bir neçə analitik məqalə dərc etdirmişdi.

Türk Ədəbiyyat Vəqfinin "Türk dünyasının yaşayan Dədə Qorqudu" adlanan beynəlxalq ödülü Almatıda Oljas Ömər oğluna təqdim ediləndə Elmira Axundova qazax şairinə verdiyi dəyəri son dərəcə dəqiq və səmimi şəkildə belə ifadə eləmişdi: "Oljas Süleymenova biz nə hədiyyə eləsək, yenə də az olacaq. Çünki o, bizə daha çox şey bəxş edibdir".

1990-cı il yanvarın 20-də Bakıda "Qara Yanvar" faciəsi törədilmişdi. Özünün yeni məqaləsində Oljas Süleymenov bu barədə söz açarkən, o vaxt cərəyan edən hadisələrdə iştirakını həyatının ən başlıca məqamlarından biri adlandırıbdır.

### Bakıda Yanvar

…1990-cı ilin 20 yanvar günü mən Moskvadaydım. SSRİ Ali Sovetinin sessiyası qızğın şəkildə keçirdi. Axşamüstü otelə qayıdıb, yuxu həbi içdim, çünki həmin günlər güclü soyuqdəymədən əziyyət çəkirdim (hərarətim 39 dərəcəyə çatmışdı).

Gecə saat üçdə telefon zəngi məni oyatdı. Şəhərlərarası zəngə oxşayırdı. Dəstəyi qaldırdım. Səs uzaqdan və qırıq-qırıq gəlirdi. Dostum, Azərbaycan şairi Bəxtiyar Vahabzadə sanki haray çəkməyə çalışırdı: "Oljas! Tanklar Bakıya girib! Adamları şil-küt edirlər! Durma, gəl, qardaş!"

Bu imdad qarşılığında necə deyəydim ki, "bağışla, xəstəyəm, bu halda durub gələ bilmərəm"?!

Həblərimi içib, yır-yığışa başladım, maşın sifariş verdim və Azərbaycan SSR-nin nümayəndəliyinə yollandım. Qurumun qarşısındakı kütləni görüncə, birbaşa hava limanına getmək qərarına gəldim. Hamı çaşqınlıq içində idi. Bakıya uçuşlar ləğv olunmuşdu. Deputat mandatımın köməyi ilə hərbi-nəqliyyat təyyarəsində yer almağa, çətinliklə də olsa, imkan tapdım.

Bakıya endiyimiz vaxt gecə düşmüşdü. Baqajı olmayan bütün sərnişinlər təyyarənin gövdəsinə söykədilən nərdivanla aşağı enirdilər.

Şəhərə getmək üçün hər hansı nəqliyyat – avtobus, yaxud taksi – yox idi. Hərbçilər dadıma yetişdi və məni nisbətən yaxınlıqdakı metroya qədər apardılar. Bomboş eskalatorla aşağı endim. Metroda heç kəs yox idi. Vaqon qapılarına matəm nişanəsi sayılan qara lentlər bağlanmışdı. Mexaniki bələdçi bir-bir stansiyaları elan edirdi. Əvvəlki səfərlərim zamanı qaldığım mehmanxananın qarşısındakı meydanın və ona yaxın stansiyanın adları yadımda idi.

Qatardan çıxıb, yuxarı qalxdım. Küçələr kimsəsizdi. Komendant saatı idi. Patrul mənə yaxınlaşdı. Deputat vəsiqəmi təqdim elədim. Mehmanxanaya necə gedəcəyimi mənə izah etdilər.

Hündür və çoxmərtəbəli otelin fasadı başdan-ayağa şüşə ilə örtülüydü. Amma heç bir pəncərədə işıq yanmırdı. Şüşə qapını döydüm. Qarşı tərəfdə ahıl bir kişinin üzü zühur elədi və o: "Oljas bəy! Oljas bəy!" deyə mənə səsləndi… Son aylarda SSRİ Ali Sovetinin iclasları günlər uzunu televiziya ilə translyasiya olunurdu axı.

Sonra qapılar laybalay açıldı və oteldə çalışan bir dəstə qadın məni hərarətlə qarşılayaraq qucaqladı, sonra isə həyəcanla nəsə söyləyərək qalacağım nömrəyə qədər müşayiət etdi. Liftlər işləmirdi. Mən ikinci, yaxud üçüncü mərtəbədə bir nömrə istədim. Onlar əllərini yellədilər: "Olmaz! Yuxarı qatlar yaxşıdır!" Məni on birinci mərtəbəyə qədər ötürüb: "Buraya çıxmazlar!" – dedilər.

Nömrədə işığı yandırdılar. Döşəmədə bir neçə dənə avtomat gülləsi gördüm. "Burada hələ azdır! Alt mərtəbələrdə daha çoxdur. Meydanda durub, hər tərəfə güllə yağdırırlar. Hətta mehmanxanaya da!".

Mənim üçün isti çay gətirdilər, feldşer Zakir Məmmədovu çağırdılar: o, hərarətimi salmaqdan ötrü sonradan bədənimi bir neçə dəfə spirtlə ovuşdurdu.

Səhəri gün mən Bakıda baş verənləri anlamağa çalışdım. Qaldığım nömrəyə hələ gecədən bəri gizlicə qonaqlar gəlməyə başlamışdı: aralarında filoloq-ərəbşünas, yaxın vaxtlara qədər dissident olan, indi isə Xalq Cəbhəsinin liderinə çevrilən və özünə "Elçibəy" təxəllüsünü götürən Əbülfəz Əliyev də vardı. Həmin günlər onu möhkəm axtarırdılar, çünki hakimiyyət dairələri məhz onu iğtişaşların baisi sayırdı.

Həmin gecə yanıma gələrkən o, məndən dəstək və müdafiə umurdu.

Ölkənin süquta uğradığı şəraitdə iqtidar uğrunda mübarizəyə dildən pərgar olan, "bircə sözüylə kütləni ayağa qaldırmağı bacaran" elmi işçilər də qoşulmuşdu. Gürcüstanda yazıçı Konstantin Qamsaxurdianın oğlu Zviad, Azərbaycanda isə Əbülfəz Əliyev məhz belələrindən idi. İlkin mərhələdə onlar hakimiyyətdə yaranan boşluqdan məharətlə yararlandılar. Nəticədə bu savadlı, yetkin natiqlər milli azadlıq hərəkatlarının başında durdular. Amma gələcəyə aparan yola bələd olmadıqlarından bu cür "siyasətçilərin" çoxusu xalqı uçurumun kənarına sürüklədi.

Bakıda artıq qan tökülmüşdü. "Xalq Cəbhəsi" əhalini şəhərdə barrikadalar qurmağa çağırırdı. Bir qədər sonra şəhərə girən tanklar o maneələri yerləbir etdilər, küçələrin kənarlarında saxlanan avtomobilləri əzib-keçdilər. Bəzilərinin içində hətta sərnişinlər də var idı...

Yerli MK-ya zəng edib, həm gəldiyimi, həm də baş verən hadisələrə münasibətimi - "Tanklar – şəhər nəqliyyatı deyillər!" şəklində bildirdim. (Daha sonra Moskvada, Ali Sovetin qapalı iclasında çıxış edərkən gördüklərim barədə əsl həqiqətləri açıb-söylədim, tank qruplarının fəaliyyətini isə "faşistsayağı" adlandırdım).

Elə həmin gün maşın göndərməklə, məni MK-ya apardılar. Böyük foyedə iki piyada bölük və dayaqlar üstə qurulan pulemyotlar vardı. Birinci katibin otağında İttifaq parlamentində yuxarı palatanın sədri Primakovu və müdafiə naziri, marşal Yazovu gördüm. Kabinetin sahibi isə istefaya getdiyindən orada deyildi, yeni rəhbər isə hələlik seçilməmişdi.

Orada toplaşanlarla danışdım. Bildirdim ki, deputat qrupunu təmsil edirəm və buradakı hadisələrlə bağlı öz həmkarlarıma məlumat verəcəyəm. Heç şübhəsiz, Primakov mənim rəsmi qaydada Bakıya ezam olunmadığımdan xəbərdar idi. Ancaq əmin idi ki, qayıdınca, mən çıxış edəcəyəm, öz müşahidə və qənaətlərimi bütün deputat korpusu qarşısında dilə gətirəcəyəm. Həm bütün ölkəyə, həm də bütün dünyaya car çəkəcəyəm.

Bildirdim ki, Elçibəy hazırda mənim nömrəmdədir: "O, mövcud şəraiti anlamaqda mənə yardım edir. Necə deyərlər, "birinci əldən" məlumatlar alıram".

**Primakov soruşdu:**

– Xəbəriniz var ki, "Xalq Cəbhəsi"nin radikal qanadının rəhbərləri artıq həbs olunub?

– Əbülfəzin onlara aidiyyəti yoxdur və o, hansısa hərbi qarşıdurmaya əsla çağırış etməz. Adam dilçidir, ziyalıdır, demokratdır. Onun həbs olunmaması, əksinə, yaranmış vəziyyətin nizamlanması işinə cəlb olunması barədə təlimat verməyi sizdən xahiş edirəm.

– Yaxşı, onda qoy o, başqa bir nömrəyə keçsin və xəstə deputatımızın yerini dar eləməsin. Bir müddət burada işləyək, sonra birlikdə Moskvaya gedərik.

**Mən mehmanxanaya qayıtdım. Bir qədər sonra Azərbaycan hökumətinin rəhbəri mənə zəng vurdu:**

– Oljas müəllim, üç gündür qəzetlər çap olunmur. Jurnalistlər və nəşriyyat işçiləri işə çıxsalar da, heç nə eləmirlər. Hətta bu davranışa ad da tapıblar – "Bakı tətili". Bizdə artıq nüfuzlu bir adam da qalmayıb. Heç kəsi dinləmirlər. Xahiş edirik, jurnalistlər və nəşriyyat işçiləriylə görüşəsiniz, çünki Sizə hörmət bəsləyirlər.

**Nəşriyyatın ən iri sexinə gedib, çıxış etdim:**

– Qəzetlər çıxmadığından xalq nələrin baş verdiyindən xəbərsiz qalıb. Dünyada ən ağlasığmaz şayiələr baş alıb, gedir. Əsl həqiqəti açıb söyləmək isə məhz sizin peşə borcunuzdur. Bu məsələdə heç kəs sizə maneçilik törətməyəcək, senzura da ləğv olunur.

**Kütlənin arasından nüfuzlu bir çapçı önə çıxdı:**

– Oljas bəy, buraya gəldiyiniz üçün Sizə minnətdarıq. Tanklar Bakının küçələrilə şütüyüb, başımıza od yağdıranda bizim şairlərin Moskvadakı ən məşhur yazıçılara müraciət etdiyindən biz də xəbərdarıq. Amma o şəxslərin hamısı özlərini dərhal "xəstəliyə" vurmuşdular. Siz isə həqiqətən xəstə olsanız da, durub, bura gəldiniz. Siz – bizim qardaşımızsınız, ona görə də çağırışınızı qəbul edəcəyik. Qəzetlər çap olunacaq. Təkcə "Azərbaycan kommunisti"ndən başqa. Çünki srağagün hamımız o partiyadan çıxmışıq.

**Ona dedim:**

– Ölkənizdəki həqiqi kommunistləri də, yaranmış bu çətin vəziyyətdən çıxış yolu tapacaq adamları da mən tanıyıram. Təəssüf ki, Heydər Əliyev burada deyil, yoxsa o, srağagünkü hadisələrin qarşısını mütləq alardı. Onları törədənlər də kommunist yox, sadəcə, partiya üzvü idilər. Və vecsiz üzvlər idilər. Həqiqi kommunistlər isə indi öz qəzetlərinin çapını gözləyirlər. O qəzet 20 Yanvar barədə, "Qara Yanvar" barədə onlara əsl həqiqəti çatdırmalıdır.

Sabahı gün səhər saatlarında telefonum zəng çaldı.

Azərbaycan hökumətinin başçısı yenə də xətdə idi:

– Sağ ol, əziz qardaşım! Bu gün bütün qəzetlər çapdan çıxıb. Hətta "Azərbaycan kommunisti" də. Öz səhhətiniz necədir? Növbəti xahişim isə televiziyanın fəaliyyətinin bərpasıyla bağlı olacaq. Xahiş edirəm!

Televiziya mərkəzinə yollandım. Jurnalistlər oradakı zalda toplaşmışdılar, ölkənin quru qoşunlarının komandanı, general Varennikov da orada idi. Çox yəqin, şəxsən onun göstərişinə əsasən iğtişaşlar amansızlıqla yatırılmışdı. Görünür, bu səbəbdən indi o, həmin zalda özünü xeyli naqolay hiss edirdi.

Qəzetlərin çapdan çıxmasından isə jurnalistlərin artıq xəbəri vardı.

**Çıxışa başladım:**

– Bəli, faciəli hadisələr yaşanıb və onlara gerçək qiyməti vermək sizin borcunuzdur. İlk şəhidlər torpağa tapşırılıb. Dünən respublikanın yeni rəhbəri seçilib, amma bu barədə qəzetlər də susub, televiziya da. Yeni birinci katibin çıxışıyla bağlı kaset əlinizdə olsa da, siz onu efirə verməkdən imtina edibsiniz.

**Məndən sonra əsas fəallardan biri söz aldı:**

– Yalnız Sizin çıxışınızın ardınca biz o kaseti efirə verə bilərik.

**Dedim:**

– Yox. Qonağın ev yiyəsindən qabaq söz söyləməsi heç yerinə düşməz.

Beləcə, Bakıda televiziya da öz fəaliyyətini bərpa elədi.

...1992-ci ildə Mütəllibovun istefasının ardınca Elçibəy prezident seçildi. Amma qısa müddətə. Artıq xalqın ən çətin problemlərin həllinə görə məsuliyyəti öz üzərinə götürəcək təşkilatçıya, siyasətçiyə ehtiyacı vardı, mitinqlərdə kütləni qızışdıran rəhbərə yox. Fəaliyyətindəki bır sıra yarıtmaz hallar ucbatından və daxildəki müxalif qüvvələrin təzyiqləri nəticəsində 1993-cü ildə Elçibəy həm öz postunu, həm də Bakını tərk etdi. Xalqı işıqlı gələcəyə aparacağını vəd edən bu adamın həmin gələcəyin harada olması barədə zərrəcə təsəvvürü yox idi.

Əgər Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, Azərbaycan daha betər fəlakətlərlə qarşılaşacaqdı. Hər şey dərhal fərqli bir məcraya düşdü. Bir neçə ilin içində ölkə dirçəldi, gücləndi və öz lideri sayəsində inamlı, dinamik dövlətə çevrildi.

Əldə olunan bu nəticələri XXI yüzildə qorumaq və artırmaq missiyası Prezident İlham Əliyevin öhdəsinə düşdü. Onun uğurları isə Azərbaycanın bütün dünyadakı dostlarını həqiqi mənada birləşdirir.

Onun bu yaxınlarda qazax şairinə ünvanladığı sözlər də eyni ruhdadır: "Ölkəmizin ən çətin vaxtlarında siz Azərbaycan xalqının yanında olubsunuz... Biz bunu unutmur və yüksək dəyərləndiririk. Azərbaycan xalqı Sizi də, yaradıcılığınızı da sevir. Sərgilədiyiniz vətəndaş mövqeyi yüksək ehtirama layiqdir".

Öz tarixi keçmişini bilən xalqın gələcəyi var. Mən bunun fərqindəyəm, çünki çətin saatlarda yanında olduğum Azərbaycan xalqı həyatda qalmaq uğrunda girdiyi sınaqdan üzüağ çıxdı və indi gələcəyə doğru irəliləyir.

Məhz çiyin-çiyinə və bir-birini dəstəkləyərək irəliləmək hesabına biz öz zirvəmizə yüksələcəyik. Bu qarşılıqlı asılılıq formulu həm ayrı-ayrı şəxsiyyətlərin, həm xalqların, həm də dövlətlərin həyat təcrübəsində özünü doğruldubdur. Biz yazarlar da təmsil etdiyimiz xalqların bunu dərk etməsinə yardımçı olmalıyıq.

Məhz o halda hazırda hamımızın arzuladığı sülh bərqərar ola bilər.

***Olja SÜLEYMENOV,***
***Qazaxıstanın Xalq şairi,***
***UNESCO nəzdində Mədəniyyətlərin yaxınlaşması üzrə Beynəlxalq mərkəzin direktoru***

**Tərcümə etdi: Azad Yaşar**

# 20 Yanvardan 6 gün sonra Lənkəranda…

## *Haftonu meşəsində sovet hərbçiləri ilə qanlı atışma*



**Çağdaş tariximizin qürur, qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən 36 il ötür. O ağır, müdhiş şənbə gecəsi xalqımızın qan yaddaşına əbədi həkk olunub. Sovet hərbçiləri Bakıdan 6 gün sonra Lənkəran ərazisində də ağır qırğın törətmişdilər.**

Əvvəlcə qeyd edək ki, Azərbaycan paytaxtındakı dinc əhaliyə qarşı kütləvi qırğınlarda lənkəranlılardan Telman Bağırov, Mircamal Əbülfətov, Asif Əsədullayev, Azad Mirzəyev və Əflatun Kazımov şəhidlik zirvəsinə ucalıb.

Hər biri ailənin çırağı, bir elin dayağı idi. Telmanın cəmi 30 yaşı vardı. Liman şəhərində dünyaya göz açmışdı, 4 bacının yeganə qardaşı idi. Bakı şəhərində mühafizə polisində işləyirdi. Şuşanın Malıbəyli kəndindən növbəti xidmətdən qayıtmışdı. 20 Yanvar gecəsi vəhşicəsinə qətlə yetirilərək şəhid oldu.

Mircamal Əbülfətov isə Lənkəranda tikinti idarəsində fəhlə işləyirdi. Təzə ailə qurmuşdu. Bir qızı vardı. Tez-tez Qarabağ bölgəsinə soydaşlarımıza yardım aparırdı. 20 Yanvar faciəsində əbədiyyətə qovuşdu. Asif Əsədullayev Lənkəran rayonunun Şağlaser kəndində dünyaya göz açmışdı. Bakı fəhləsi adına maşınqayırma zavodunda işləyirdi. İstehsalatdan ayrılmadan ali təhsil almışdı. İki uşaq atası idi. Gələcəyə böyük ümidlərlə baxır, sonsuz arzularla yaşayırdı. 20 Yanvarda ömrü qırıldı, arzuları yarımçıq qaldı.

Lənkəran şəhərində boya-başa çatmış Azad Mirzəyevin yanvarın 22-də 29 yaşı olacaqdı. Azərbaycan Dövlət İqtisad Universitetini bitirsə də, ixtisasına uyğun iş tapa bilməmişdi. Bakıda fəhlə işləyirdi. Ən böyük arzusu Azərbaycanı müstəqil, suveren dövlət kimi görmək idi. Arzusuna çatmadı. Qanlı şənbə gecəsində namərd gülləsinə tuş gəldi, ad günündə torpağa tapşırıldı.

...Yanvar şəhidlərinin izdihamlı dəfn mərasimini respublika televiziyası ilə izləyəndə bir epizod diqqətimi həmişə cəlb edib. Təxminən 5-6 yaşlı oğlan şəhid şəklini ürəyinə sıxaraq qəbrinin yanında dayanıb. Şəkildən üz-gözündən qəm, kədər yağdığı, dərin sarsıntı keçirdiyi hiss olunur. Xeyli axtarışlardan sonra həmin məsum uşağın 20 Yanvar şəhidi Əflatun Kazımovun oğlu Surac olduğunu öyrəndim.

Əflatunun uşaqlıq və məktəb illəri Lənkəranda keçib. Girdəni kəndində orta məktəbi, sonra Lənkəran şəhərindəki 34 nömrəli texniki peşə məktəbini bitirib. Ordu sıralarında xidmətdən sonra Bakıda metro tikintisində işləyib. Əflatun sovet rəhbərliyinin Azərbaycana qarşı birtərəfli, qərəzli mövqeyi ilə bir vətəndaş olaraq barışmırdı. Azadlıq hərəkatının fəallarından idi. İşdən sonra mitinqlərə gedir, Kremlin Qarabağ məsələsinə qeyri-obyektiv münasibətinə kəskin etiraz edirdi.

Yanvarın 19-dan 20-ə keçən gecə azğınlaşmış ordu tərəfindən odlu silahdan açılan atəş nəticəsində Əflatun Kazımov döş qəfəsindən və qarın boşluğundan 4 ağır yara aldı. O gecə azadlıq aşiqi ölkəmizin azadlığı, suverenliyi yolunda əbədiyyətə qovuşdu. İki oğlan, iki qız uşağı atasız qaldı. Ailənin böyük övladı Vüsalənin 7, Suracın 5, sonbeşik Vüsalın isə cəmi iki yaşı var idi. Atasının iş yoldaşları dəfn mərasimində Suracı Şəhidlər xiyabanına gətiriblər. Bu gün Suracın ocağında şəhid babanın adını daşıyan 13 yaşlı Əflatun Kazımlı böyüyür.

Yaxşı xatırlayıram. 1990-cı ilin yanvarı Lənkəranda da çox kədərli, ağır, üzüntülü keçdi. SSRİ məkanında ilk dəfə olaraq 1990-cı il yanvar ayının 11-də Lənkəranın partiya, sovet, inzibati orqnlarının fəaliyəti müvəqqəti dayandırılmışdı. Azərbaycan Xalq Cəbhəsinin Lənkəran şöbəsi tərəfindən yaradılmış müvəqqəti müdafiə şurası nəzarəti, məsuliyyəti öz üzərinə götürmüşdü. Şuranın yaydığı bəyanatda deyilirdi ki, Moskva Dağlıq Qarabağ məsələsini müsbət həll edənə qədər aksiya davam etdiriləcək.





Lənkəran hadisələri o vaxt Kremlə qədər gedib çatmışdı. Sov.İKP MK-nın fevral (1990-cı il) plenumunda Ermənistanın birinci katibi S.Arutunyan çıxışında həqiqəti təhrif edərək Lənkəran hadisələrini hakimiyyət davası adlandırmışdı.

Bakıda yanvar qırğınını törədənlər, Azərbaycanı matəmə bürüyənlər Lənkəranı da hədəf seçdilər. Qanlı Yanvarın sərt küləkləri cənub bögəsinin də başı üstündən əsdi. Lənkəranın tarixinə qanlı bir səhifə yazıldı.

...Yanvarın 26-da təpədən dırnağadək silahlanmış sovet ordusunun desant dəstələri qırğın törətmək, azadlıq mücahidlərini cəzalandırmaq məqsədilə Lənkərana daxil oldu. Azadlıq hərəkatının fəalları cəllad xislətli qüvvələrin bəd niyyətini başa düşüb üzü dağlara – Haftonu meşəliyinə çəkildilər.

**Hadisələrin canlı şahidi, Lənkəran rayonundakı Haftonu qəsəbə tam orta məktəbinin direktor müavini Baləddin Calalov o günü belə xatırlayır:**

– Gənc müəllim idim. 1990-cı ilin 26 yanvarı çox dəhşətli tarix kimi yaddaşımda qalıb. Gündüz saat 11 radələrində keçmiş sovet ordusuna məxsus 3 helikopter kəşfiyyat məqsədilə qəsəbəmizin üstündə 15-20 dəqiqəlik uçuş etdi. Günorta təxminən saat 14-də desantçılar tank, zirehli texnika ilə qəsəbəyə daxil oldular. Giriş-çıxış yollarını bağlayaraq hər küçəyə 10-15 əsgərin iştirakı ilə nəzarət qoydular. Əhali nə baş verəcəyini bilmirdi. Hamı təşviş, qorxu, həyəcan içində nə baş verəcəyini gözləyirdi. Desantçılar sakinləri qorxutmaq məqsədilə odlu silahlardan atəş açaraq ağır texnika ilə meşəyə tərəf qalxdılar. Onların atdıqları güllə evimizin birinci mərtəbəsində pəncərəyə dəyib şüşələri qırdı. Yaxşı ki ailəmiz zirzəmidə gizlənmişdi.

Baləddin müəllim sonra dedi ki, saat 16 radələrində 4 helikopter qəsəbənin yuxarısında "İbadi istisu" deyilən ərazidə yerə endi. BTR-lər, tanklar və helikopterlərlə silahlanmış quldur dəstəsi azadlıq mücahidlərinə qarşı hücuma keçdi. Yerdən, göydən sanki od yağırdı. Alovsaçan silahların səsi, vahiməsi müharibə səhnəsini xatırladırdı. Əməliyyat 2 saatdan çox çəkdi.

...Havadan qan iyi gəlirdi. Desantçılar beş igid, qeyrətli gənci qətlə yetirdi. Hərəkatın digər üzvlərini vəhşicəsinə döyərək vertolyotla Bakıya, istintaq təcridxanasına apardılar. Tariyel Abdullayevin qollarını arxadan bağlayıb məftili boğazına keçiriblər. Yolda boğaraq amansızlıqla qətlə yetiriblər. Cinayətin izini itirmək üçün Bakıda meyidini gizlədblər.

Dəhşətli qətliamın qurbanı olmuş 6 Vətən mücahidi nəsillərə örnək həyat yolu keçib. Azadlıq hərəkatının fəal üzvü Şahin Məmmədov Lənkəranda texniki peşə məktəbində oxuyurdu. İki bacının tək qardaşı idi. Əqidə dostu Rövşən Bədəlov avtomobil məktəbində işləyirdi. İdmanı çox sevirdi. Motosiklet yarışlarında idman ustalığına namizəd dərəcəsini qazanmışdı. Minsk şəhərində keçiriləcək çempionata hazırlaşırdı. Desantçılar hər ikisini amansızlıqla qətlə yetirib getdikləri motosikleti yandırmışdı.

Vaqif Məmmədov isə tikintidə fəhlə işləyirdi. Evli idi. Üçüncü-sonbeşik övladı bir ay əvvəl dünyaya gəlmişdi. Xalq hərəkatının fəallarından idi. 21 yaşlı Rahim Məmmədov isə peşə məktəbində avtomobil çilingəri peşəsinə yiyələnmişdi. Hər iki gənc ölkəmizin azadlığı, müstəqilliyi uğrunda gedən mübarizədə ön sıralarda idi.

**Salman Baxşiyev yaşca onlardan böyük idi. Dörd övladını, ailəsini halal zəhmətlə dolandırırdı. MTS-də çilingər işləyirdi. Oğlu, Lənkəran Şəhər-Rayon Polis Şöbəsinin əməkdaşı, polis mayoru Faiq Baxşiyev o dəhşətli günü belə xatırlayır:**

– O vaxt 7 yaşım var idi. Atam bütün varlığı ilə doğma Azərbaycana bağlı əsl vətənpərvər idi. 20 Yanvar faciəsi baş verəndə milləti nahaqdan qırdılar, - deyib evdə hönkür-hönkür ağlamağı yadımdan çıxmır. O günlər heç yerdə qərar tutmurdu.

Sovet ordusunun qaniçən cəza dəstəsi Lənkəran üçün xüsusi plan hazırlamışdı. Hər an nəsə baş verəcəyi gözlənilirdi. Yanvarın 26-da atam, əmim Əliqismət, bibim oğlu Hicran azadlıq hərəkatının digər fəal üzvləri ilə şəhərdə və ətraf kəndlərdə qırğın olmasın deyə Haftonu meşəliyinə çəkildilər. Həmin gün atam desantçılar tərəfindən xüsusi amansızlıqla qətlə yetirilib. Əmim və bibim oğlunu helikopterlə Bakıya, oradan Rusiyanın Ulyanovsk şəhərinə həbsxanaya apanblar. Onlara çoxlu işgəncələr veriblər. Müvafiq orqanların köməyi ilə 40 gündən sonra azadlığa çıxıblar. O qanlı faciəni ailəmiz, doğmalarımız daim kədərlə, həm də qürurla xatırlayır.

25 yaşlı Tariyel Abdullayev Lənkəran cihazqayırma zavodunda işləyirdi. Xocavənd rayonunun Muğanlı kəndinə tez-tez yardım aparır, soydaşlarımıza arxa-dayaq olurdu. Yanvarın 26-da Haftonu meşəsində desantçılar Tariyeli və azadlıq hərəkatının fəallarını Lənkəran şəhərindəki hərbi hissəyə gətiriblər. Burada onları möhkəm döyüb ağır işgəncələr veriblər. Hadisə şahidlərinin dediyinə görə Tariyel Abdullayev onların suallarına çox sərt cavablar verib, Vətənin azadlığı yolunda canımızı qurban verməyə hazırıq, - deyib.

**Bacısı Nəzakət Ağayeva deyir:**

– Ailəmiz həyəcan, təlaş içində idi. Hara müraciət edirdiksə Tariyel haqqında məlumat ala bilmirdik. Qardaşlarım, yaxın qohumlar Bakı şəhərində xəstəxanaları, ölüxanaları gəzir, Tariyelin nəşini axtarırdı. Dörd gündən sonra qardaşımın şəhadət xəbərini aldıq. Yanvar ayının 31-də Tariyel Bakı şəhərində Şəhidlər xiyabanında torpağa tapşırıldı. Sevdiyi, könül verdiyi bir qız da var idi. Novruz bayramında nişan aparacaqdıq. Faciəli qətl arzularımızı yarımçıq qoydu.

...Beləcə, 1990-cı ilin yanvarın 26-da Qanlı Yanvarın Lənkəran səhifəsi yazıldı. Qədirbilən lənkəranlılar azadlıq mücahidlərini heç vaxt unutmurlar. Faciənin ildönümündə şəhidlərin məzarları ziyarət olunur, ehsanlar verilir və əziz xatirələri böyük ehtiramla yad edilir.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# "Onlar şəhid oldular, mən isə şahid"

## *Müsahibimiz 20 Yanvar qurbanları barədə ilk toplunun müəllifi Qulu Kəngərlidir*

**Xalqımız 20 Yanvar hadisələri zamanı imperiya buxovlarından azad olmaq, həsrətində olduğu milli istiqlalına, həqiqi azadlığına qovuşmaq üçün əsl şücaət və qəhrəmanlıq nümayiş etdirib. Bu barədə çox sayda bədii və sənədli əsərlər, parlaq publisistika nümunələri yazılıb, araşdırmalar, təhlillər aparılıb. Heç bir şübhə yoxdur ki, bundan sonra da bu mövzuda xalqımızın qan yaddaşını təzələyəcək, mədəniyyətimizin və mənəviyyatımızın qürur və şərəf səhifələrinə çevriləcək yeni əsərlər yazılacaq, teatr və televiziya tamaşaları oynanılacaq, filmlər çəkiləcək.**

Bu gün ədalət naminə demək lazımdır ki, 20 Yanvar hadisələrinə həsr olunan əsərlərin içərisində tanınmış jurnalist Qulu Kəngərlinin hadisələrin isti izi və ürəkağrısı ilə qələmə aldığı kitabları öz sanballı, məzmunu və mötəbərliyinə görə xüsusilə seçilir. Hazırda Daşkənddə "Xalq qəzeti"nin Türküstan üzrə xüsusi müxbiri vəzifəsində çalışan hörmətli həmkarımız ilə söhbətimizdə 36 il bundan əvvəlki hadisələri bir daha yada salmışıq. Həmin müsahibəni oxucularımızın diqqətinə çatdırırıq.

Beləliklə, müsahibimiz 20 Yanvar faciəsi ilə bağlı 2 "Şəhidlər" bukletinin, Azərbaycan və rus dillərində çap olunan "Qara Yanvar şəhidləri" kitabının, "Erməni lobbisi... Azərbaycan faciəsi", "Qanlı şənbəyə gedən yol" kitablarının, "Bakıda insan ovu" sənədli filminin müəllifi, yazıçı-publisist Qulu Kəngərlidir.

***– Qulu müəllim, sizin kitablarınızda o müdhiş gecədə xalqımızın başına gətirilən ağır faciədən bəhs olunur, necə oldu ki, siz bu hadisələrin istirakçısı oldunuz?***

– Mən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində radionun "Xəbərlər Baş Redaksiyası"nda redaktor idim. 1990-cı il yanvarın 19-da təxminən saat 17:00 radələrində bir neçə iş yoldaşımla birlikdə işdən çıxıb Mehdi Hüseyn küçəsi ilə üzüaşağı Prezident Aparatının binasına doğru getməyə başladıq. Yadımdadır, hava bərk soyuq idi, üşüyürdük. Amma ölkədə o dövrdə cərəyan edən olduqca gərgin ictimai-siyasi hadisələrdən dolayı havadakı sazağın fərqinə varmırdıq.

Prezident Aparatının binası qarşısına çatanda nə görsəm yaxşıdır, burada izdiham vardı, o qədər insan vardı ki, iynə atsan yerə düşməzdi, irəli keçmək isə mümkün deyildi. Bir neçə gün idi ki, meydanda kəskin etiraz mitinqləri gedirdi. Camaat arasında belə bir xəbər də dolaşırdı ki, Kreml şəhərə qoşun yeritməyə hazırlaşır. Görünür, elə buna görə də tribunadan çıxış edən natiqlər şəhərdə sovet ordusunun mümkün hücumunun qarşısını almaq məqsədilə qurulan barrikadaları gücləndirməyə çağırırdılar.

Həmin gün tribunadan bir-birinin ardınca alovlu çıxışlar səslənirdi. Ara-sıra səsgücləndirici vasitəsilə şəhərdəki barrikadalarda gecə növbəsi çəkmək üçün əlavə adamlara ehtiyac olduğu elan olunurdu və könüllü surətdə ora getmək istəyənlər üçün avtobusların ayrıldığı diqqətə çatdırılırdı.

Qeyd etmək lazımdır ki, barrikadalarda növbə çəkmək istəyənlər kifayət qədər çox idi. Hər dəfə bu barədə elan səslənəndə adamların avtobuslara doluşması ilə yola düşmələri cəmi 5-10 dəqiqə çəkirdi. Yadımdadır, "Qurd qapısı", "Əzizbəyov" (hazırkı "Koroğlu") metro stansiyası yaxınlığında qurulan barrikadalara bir neçə avtobus adam göndərildi. Bu arada "Salyan kazarması" tərəfdə qurulan barrikadaya getmək istəyənlər üçün avtobus ayrıldığı da elan olundu.

Mən o illərdə şəhərin həmin ərazisində yaşayırdım. Çiynimdə reportyor (səs yazan aparat) vardı. Aparat xeyli ağır olduğu üçün çiynimi aşağı basırdı. Xeyli yorğun idim və acmışdım. Düşündüm ki, o istiqamətə gedən avtobusla əvvəlcə barrikadaya gedərəm və oradan şam etmək üçün evə də baş çəkər, reportyoru evdə qoyub geri gələrəm. Beləcə, evə gəldim və tələm-tələsik yüngül şam edib yenidən "Salyan kazarması"na getmək istəyəndə düşündüm ki, reportyor birdən mənə lazım ola bilər. Əynimə isti paltar geyinib, reportyoru da götürüb yenidən "Salyan kazarması"nın qarşısına getdim.

Xatırlatmaq istəyirəm ki, şəhərdə sovet qoşunlarının hərəkət edəcəyi ehtimal olunan bir çox istiqamətdə qurulan barrikadalarda olduğu kimi, burada da sovet hərbi texnikasının hücumunun qarşısını kəsmək üçün iri avtobuslar, yük maşınları, hətta qaldırıcı kranlar var idi. Barrikadanın ətrafında xeyli insan toplaşmışdı. Aralarında, hətta kiçik yaşlı uşaqları ilə bura gələn gənc analar da vardı. Yaşlı adamlar, ahıl və qocalar da az deyildi. Təbii ki, gənclər daha çox gözə dəyirdilər.

Barrikada ətrafına toplaşanların çoxu əsəbi idi. Hamı bir ağızdan ermənipərəst Mixail Qorbaçovun Qarabağla bağlı ədalətsiz mövqeyini kəskin pisləyirdi. Mən bir sıra çıxışları reportyor vasitəsilə yazırdım. Səhəri gün bu lentlərdən verilişimdə istifadə edəcəyimi düşünürdüm.

***– Həmin gecə insanların güllələnməsi nə vaxt başladı?***

– Gecə saat 12:00-yə kimi sakitlik idi. Amma düz saat 12:00-dən sonra sovet qoşunlarının Biləcəri tərəfdən şəhərə daxil olduğu barədə xəbərlər yayıldı. Heç 10-15 dəqiqə keçməmiş ətrafımızda avtomat və pulemyotlardan güllələr yağış kimi yağmağa başladı. Əvvəlcə düşündük ki, bunlar "traser", yəni işıqsaçan, qurğuşunu olmayan güllələrdir. Sonra gördük ki, tanklar yolun üzərindəki sədləri – ağır yük maşınları və avtobusları asanlıqla yarıb keçirlər.

Bu məqamda sağımda, solumda olan insanlardan bir neçəsi güllə zərbələrindən yerə yıxıldı. Ağır yaralananlar da vardı. Onlar ağrıdan zarıyırdılar. Bu dəhşət və vəhşəti görmək son dərəcə ağır idi. Çoxumuz sovet ordusunun əliyalın, günahsız insanlara odlu atəş açacağına inanmırdıq. Amma fakt faktlığında qalır. Üzərimizə yeriyən tanklardan açılan güllələr ətrafa ölüm saçırdı. Demək olar ki, hamımız özümüzü itirmişdik, nə edəcəyimizi bilmirdik..

Bir anlığa düşündüm ki, bəlkə mən də yaralanmışam, isti-isti olduğundan hələ hiss etmirəm. Kurtkamın yaxasını açıb bədənimin yaralanıb-yaralanmadığını yoxladım. Gördüm ki, xeyr, yaralanmamışam. Həmin an yaşlılardan kimsə dedi ki, yaralıları təcili olaraq xəstəxanaya aparmaq lazımdır. Dərhal yaralıları maşınlara daşımağa başladıq. Nisbətən yaxınlıqda yerləşən "Semaşko" xəstəxanasına 4 dəfə yaralı apardıq.




...Sonuncu dəfə maşında 4 nəfərlə 4 yaralı aparırdıq xəstəxanaya. Bir gənc çox sayda güllə yarası almışdı, ağrıdan bərk zarıyır, elə hey anasını çağırırdı. Ürəkdağlayan bir səhnə idi. Mən onun başını sağ qolumun üstünə aldım, bircə bunu dedi: "Anama deyərsən ki, mən Fəridəni istəyirəm (ad şərtidir) və başı sağa doğru düşdü. Yaralıları xəstəxanaya çatdıranda məlum oldu ki, o artıq keçinib.

***– Siz sonrakı günlərdə həmin gəncin anasını gördünüzmü?***

– Mən, əlbəttə, onun anası ilə də görüşdüm. Amma anaya oğlunun son arzusunu heç cür söyləyə bilmədim. Düşündüm ki, anaya əlavə dərd vermiş olaram. Haqq dünyasında o Anadan üzr istəyəcəyim gün isə qarşıdadır. Bu gün həmin səhnə gözlərim önündə canlananda ürəyim bərk ağrıyır.

**Bir an audio bağlantı zamanı pauza yaranır. Hiss olunur ki, həmkarım kövrəlib... Sonra sözünə davam edir:**

– O gecə xəstəxanada gördüyüm başqa bir mənzərə də məni heyrətə gətirmişdi. Təsəvvür edirsinizmi, ruslar şəhərdəki elektrik enerjisini büsbütün hər yerdən kəsdikləri üçün həkimlər ağır yaralıları kağız və qəzet parçalarını yandıraraq cərrahiyyə əməliyyatları həyata keçirirdilər.

Təkcə "Semaşko"nun deyil, şəhərdəki digər xəstəxanaların həkimləri, təcili tibbi yardım maşınlarının sürücüləri hər an onları izləyən ölümdən belə qorxmur, öz peşə və vətəndaşlıq borclarını şərəflə icra edirdilər. Bu, yenilməz bir xalqın kütləvi qürur və şərəf, əsl qəhrəmanlıq nümayişi idi.

O anları yada salanda qəlbimdən bir nida qopur: Azərbaycan xalqına eşq olsun!

Sonuncu dəfə 123 nömrəli avtobusla xəstəxanadan yenidən "Salyan kazarması" istiqamətində qayıdanda camaat arasında "Papanin" deyilən ərazidəki tramvay xəttinin yaxınlığında sovet tankları və zirehli texnikanın yanında duran əsgərlər bizi saxladılar, avtomatlarını hazır vəziyyətə gətirib avtobusdan düşməyi əmr etdilər. Dedik ki, gedirik yaralıları xəstəxanaya gətirək, "orada adam tapılar yaralıları maşına qoymağa" deyə bağırdılar və yenidən maşından düşməyi əmr etdilər.

Onlar adi əsgər deyildi, demək olar ki, hamısının 35-45 arası yaşları vardı. Uzun saç-saqqallı adamlar idi, belə də hərbçimi olar, baxış və ədalarından qaniçən cinayətkarlara oxşayırdılar?!

Biz avtobusdan düşdük, 123 nömrəli avtobusun sürücüsü təxminən 23-24 yaşlarında cavan oğlan hərbçilərin əmrinə əməl etməyib irəli qaçdı. Dərhal aramsız avtomat səsləri eşidildi (Mən "Qara Yanvar şəhidləri" kitabını hazırlayanda biləcəkdim ki, o oğlan, Rüstəm Əliyev Vətənin azadlığı yolunda şəhid olub!).

Mən məcbur olub evə qayıtdım. Subay idim, evdə tək yaşayırdım. Radionu açanda eşitdim ki, marşal Yazovun başçılığı ilə sovet ordusu Bakıya yeridilib və şəhərdə komendant saatı elan edilib. "Azadlıq" radiosunda Mirzə Xəzər Bakıdan birbaşa reportajlar verirdi. Bir çox dəyərli ziyalılarımız, eləcə tanınmış jurnalist, dostum Ramiz Əskər də sovet ordusunun ağlasığmaz qanunsuzluqlarından danışdılar.



Gecəni dirigözlü açdım. Səhər tezdən isə helikopterlərlə şəhər üzərinə Bakıda fövqəladə vəziyyət elan olunması ilə bağlı



Mixail Qorbaçovun fərmanı olan blanklar tökürdülər. Təsəvvür edirsinizmi, Bakıda qoca, qadın, uşağa baxmadan 130-dan artıq adamı güllələyəndən sonra Azərbaycanda fövqəladə vəziyyət elan olunması ilə bağlı Qorbaçovun sərəncamı yayılırdı. Sübhə kimi evimizin ətrafındakı küçələrdən güllə səsləri gəlirdi. Səhəri gün tələbə yoldaşım jurnalist Elşad Qoca bizə gəldi. Həyəcanla bir-birimizə aman vermədən dünən gecə eşidib gördüklərimiz barədə danışdıq. Elşad təklif etdi ki, gəl, birlikdə şəhərə çıxaq, nə olursa-olsun!

Küçəyə çıxdıq və piyada addımlamağa başladıq. "Salyan kazarması"nın qarşısında güllələnən çoxlu mülki adam vardı, qocalar, cavan oğlanlar...

Oradan "Beşmərtəbə" tərəfə, sonra da Prezident Aparatı istiqamətində bir neçə kilometr yolu piyada getdik. Küçələr tanklar və zirehli texnikalarla dolu idi. Ətrafda əzilmiş vəziyyətdə avtobus və yük maşınları vardı. Yolda bizi bir neçə dəfə saxladılar, hər dəfə jurnalist vəsiqələrimizi göstərməli olduq. Yaxşı ki, həbs etməyib buraxdılar.

***– O gecə öz mənzilində və ya həyətində, mənzilində güllələnən şəhidlər də olub...***

– Bəli, həmin gecə yəhudi qızı Vera Bessantina evlərində divanda oturduğu yerdə güllələnmişdi, yanvarın 20-də saat təxminən gündüz 14-də güllə evində çörək yeyərkən Şəmsəddin Orucovu "tapmışdı". Güllə əvvəl xanımının əlinə dəyib və sonra Şəmədddinin ürəyinə taxılıb. 77 yaşlı Sürəyya Babayeva isə Biləcəridəki evində xörək bişirərkən gülləyə tuş gəlmişdi, Fəridə Abbasova həmin gecə həyətində paltar sərərkən güllələnmişdi. İlqar İsmayılov və Larisa Məmmədova güllələnəndə 13 yaşları vardı, İlqar barrikadada keşik çəkənlərə ocaqda qalamaq üçün odun aparırkən, Larisa isə atasının yanında, avtobusda güllələnmişdi.

26 yaşlı Yusif Sadıqovun bədənindən ayrılmış sağ qolu "Semaşko" xəstəxanasının "morq"undan (ölüxanadan tapılıb, bədəni isə ilim-ilim itib, gördüm deyən olmayıb. Milliyyətcə rus olan, dünya işığına həsrət Boris Yefimiçev küçədə təhlükə hiss etdikdə ruslara belə demişdir: "Rebyata, ya slepoy, menya ne troqayte!" (Tərcüməsi belədir: "Uşaqlar, mən koram, mənə dəyməyin!). Kim idi ona baxan, süngü və avtomat gülləri ilə qətlə yetirilmişdi.

Yanvarın 24-də professorlar Svetlana Məmmədova, İsmayıl Mursaqulov İbrahim İbrahimovun fərdi avtomobildə Bakıdan Sumqayıta işə gedərkən yolda tank dəstəsinə rast gəlib maşını saxlayıblar. Tanklardan biri yolun kənarında saxlanan maşını əzib keçmişdi.

Doğma və əzizləri şəhid Müzəffər Həsənovu iki dəfə dəfn etmişdilər. Birinci dəfə övladları tanınmaz hala salınan cəsədin şalvarının rəngindən ataları bilib dəfn ediblər. Müzəffər Həsənov isə "Semaşko" xəstəxanasında ağır vəziyyətdə müalicə alırmış. Özünə gələndə həkimlərə deyib ki, mən bu ünvanda yaşayıram, ailəmə xəbər verin. Övladları gəlib görürlər ki, ataları buradadır, bir həftədən sonra Müzəffər Həsənov ağır yaralardan keçinib. Övladları bu ağrı-acını iki dəfə çəkiblər, nəhayət, öz həqiqi atalarını dəfn ediblər.

***– O gecə qadağan olunan 5.45 kalibrli zəhərli, necə deyərlər, "mayallaq aşan" güllələrdən də istifadə olunub...***

– Bəli, o biri güllələrdən fərqli olaraq zəhərli güllələr insana dəyən kimi zəhər insanın bədəninə yayılır, şoka salır və məhv edir. Digər yandan da 5.45 kalibrli güllə ayağa dəyib başdan çıxa bilər, ələ dəyib ayaqdan çıxa bilər, yəni o güllələr insan bədənində "mayallaq aşır" və insan orqanizmini tam məhv edir. Həmin güllə dəyən adamın yaşamaq şansı sıfıra bərabərdir. Sovet hərbçiləri belə güllələrdən qəddarcasına istifadə ediblər.

***– Siz rəhmətlik Məmməd Nazimoğlu ilə birlikdə şəhidlər haqqında ilk bukletin də müəllifisiniz. O ağır günlərdə bu arzunu necə reallaşdıra bildiniz? Axı, mətbəələr işləmirdi, ciddi senzura vardı...***

– 20 Yanvar hadisələrindən sonra bərk sarsıntı keçirmişdim. Gecələri yata bilmir, yuxudan qışqırıb ayılırdım. Bir müddət müalicə də aldım. Özümə gələndən sonra fikirləşdim ki, əgər atılan güllələr mənə dəyməyibsə, mütləq nəsə etməliyəm. Tələbə dostum, rəhmətlik istedadlı publisist Məmməd Nazimoğlu ilə şəhidlərin evlərinə getməyə başladıq. Bu daha ağır və əzablı iş idi. Elə qapı olub ki, 3 dəfə getmişəm, daxil ola bilməmişəm. Qapıdır, gedirsən, döyəcəksən, açacaqlar...

Ancaq mən döyə bilməmişəm o qapını... Çünki o qapılardan məni qova da bilərdilər, "bizim günümüzə bax, sənin gününə bax" deyə bilərdilər, axı ailələr çox ağır vəziyyətdə idilər.

Bir gənc şəhidin yaşadığı mənzilin qapısının zəngini yalnız 4-cü cəhddən sonra çala bilmişdim. Şəhidlərin qırxına bir-iki gün qalmış birinci "Şəhidlər" bukletini buraxdıq. Orada 50-yə yaxın 20 Yanvar şəhidindən bəhs olunur. Bir müddət sonra digər 20 Yanvar şəhidləri barədə ikinci buklet "Azərbaycan" nəşriyyatında işıq üzü gördü. Hər iki buklet yüz min tirajla nəşr olunmuşdu. O dönəmdə bukletlərin hər biri əl-əl gəzirdi.

Sonra 20 Yanvar şəhidləri barədə böyük kitab hazırlamağa başladım. Yenidən şəhidlərin bir-bir yaşadıqları mənzillərə, evlərə getdim. Hamı başıma toplaşır, ağlaşırdılar. Hər gün işdən sonra axşamlar şəhid ailələri ilə görüşür, evə qayıdandan sonra materialları hazırlayırdım.

***– O dövrdə Gəncə, Sədərək, Lənkəran və Neftçalada da şəhidlər olmuşdu və bildiyimə görə, kitabda da bu haqda məlumatlar var...***

– Əslində, Qara Yanvar Gəncədən başlamışdı, orada 9 şəhidimiz var, mən o zaman Gəncəyə gedib şəhidlərin ailələri ilə görüşmüşdüm.

Yanvarın 18-də Naxçıvana, Sədərəyə ermənilərin hücumu olmuşdu, burada 10 şəhid vardı, onların ikisi kiçik yaşlı qardaşlar idilər – Elvin və Malik Nəsirovlar. Yanvarın 26-da Lənkəran altı, Neftçala iki şəhid vermişdi.

Beləcə, bir neçə ay ərzində "Qara Yanvar şəhidləri" kitabı ərsəyə gəldi. Kitab "Gənclik" nəşriyyatında Azərbaycan və rus dillərində böyük tirajla çap olundu.

"Erməni lobbisi... Azərbaycan faciəsi" adlı kitab 1992-ci ildə "Yazıçı" nəşriyyatında çap olundu. Bu nəşrin redaktoru rəhmətlik tələbə yoldaşım Nəsiman Yaqublu idi. Bir dəfə nəşriyyata getmişdim, görüm ki, kitab hazırlanır ya yox...

Nəsimanın otağına getdim, gördüm kitab masasının üstündədir, oxuyur, məni görüb ayağa durdu, qucaqladı. "Birinci fəsli yenicə bitirmişəm, çox təsirli yazmısan, lap kövrəltdin məni", –dedi. Beləcə, 1992-ci ildə o kitab işıq üzü gördü. 1997-ci ildə isə "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyində "Qanlı şənbəyə gedən yol" kitabı böyük tirajla nəşr edildi.

**"Xalq qəzeti"nin Türküstan üzrə xüsusi müxbiri ilə xeyli söhbət etdik, xalqımızı istiqlalımıza aparan şərəfli yolun nə qədər böyük ağrı-acılardan, ağlasığmaz çətinliklərdən keçdiyini, bu yolda canlarını fəda edən şəhidlərimizin hər birinin dastanlara sığmayan şücaət, fədakarlıq və qəhrəmanlığını dönə-dönə xatırladıq. Dostum və həmkarım Qulu Kəngərlinin son sözü bu oldu: 20 Yanvar faciəsinə, hələ ki, canlı şahidəm, şəhidlərə görüşənə qədər...**

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

20 Yanvar qırğını – 36

# O gecə Bakı metrosu işləməsəydi...

## *Qaranlıq tunellərdə şütüyən qatarlar gülləbarandan sağ çıxanları mənzillərinə çatdırmışdı*

**Təqvimin qara səhifələrindən biri də 1990-cı ilin o məşum Yanvar gecəsi bəşəriyyət tarixinə mürəkkəblə deyil, nahaq tökülən qanla həkk olundu. O gecə göy üzü “insanpərvərlikdən” dəm vuran imperiyanın riyakar kölgəsi ilə örtülmüşdü. Dəmir təkərlərin, zirehli texnikanın uğultusu küçələrə ölüm nəfəsi yaymışdı.**

Yaddaşımıza qanla yazılan o zülmət gecədə millətin iradəsini sındırmaq üçün qəddar hökm verildi. Lakin vətən fədailəri dəmir təkərlərin vəhşətinə sarsılmaz iradələri ilə sinə gərdilər. Onlar ölüm püskürən dəmir nəhənglərin qarşısına əliyalın çıxdılar, silahları yox idi, amma qəlblərindən alov püskürürdü. Analar fəryad etdilər, qocalar Tanrıdan aman dilədilər. O gecə güllə səsləri vicdanın səsini susdurdu. Yanvarın şaxtasında donmuş çöllər şəhid qanı ilə “isindi”. Ona görə də 20 Yanvar zülmün ifşası, xalqın direnişi, xalqımızın qəhrəmanlıq salnaməsidir. Həmin gün bir daha sübut edildi ki, azadlıq qanla yoğrularsa, əbədi olar.

O müdhiş gecədə yer üzü qana boyanarkən, Bakının yeraltı tunelləri xalqın sığınacağına çevrildi. Şəhərin küçələrində zirehli əjdahalar tüğyan edərkən, metro işçiləri öz cəsarətləri ilə, sanki, üsyan bayrağı qaldırdılar.

Qətliamı törədənlər “asayişi bərpa etmək” adı altında güllə yağdırarkən, yerin altında çalışan insanlar ölüm təhlükəsinə qarşı metronun polad qapılarını fəlakətdən qaçan biçarə insanların üzünə açdılar.

Həmin gecə qatarlar sanki azadlıq karvanlarına çevrildi. Maşinistlər, stansiya xidmətçiləri dumanın içində yolunu azanlara bələdçi oldular. Dəmir yollarının bu adsız qəhrəmanları, yerin altında qurulan o sarsılmaz istehkamla sübut etdilər ki, məzlumun da bir-birinə kəmənd olan qardaşlıq əli var. Yerin altında bu vətənpərvər insanlar hər kəsi öz himayəsinə alıb, qaranlıq tunelləri nicat yoluna döndərdilər. 20 Yanvar faciəsinin 36-cı ildönümü ərəfəsində onlardan bir neçəsi ilə həmsöhbət olduq.

**İbrət TAHİROV,**
**veteran metro içşisi:**

– 1977-ci ildən metroda təlimatçı-maşinist vəzifəsində çalışırdım. Həmin gün axşam növbəsində idim. Saat 8-də işə gəldim və hər zamankı kimi vəzifəmi yerinə yetirməyə başladım. Sonra iş yoldaşım Rasim Musayev mənə yaxınlaşdı, soruşdu ki, bəlkə metro səhərə qədər işləsin? Dedim ki, işləmək lazımdırsa, işləyək. Dispetçerlə məsləhətləşib qərara aldıq ki, metronun səhərə kimi fasiləsiz işləməsi məqsədəuyğundur.

Hamı səhərədək işdə qaldı, eyni zamanda, istirahət günü olan və yaxud da səhər növbəsində çalışan maşinistləri də çağırdım. Gecə 12-də qırğın başladı. Qatar az olduğundan dispetçerdən xahiş etdim ki, xəttə əlavə qatar buraxsın. Maşinistlər səhərə kimi cəsarətlə öz vəzifələrini, həm də Vətən qarşısında borclarını yerinə yetirdilər.

Həmin gecə metro işləməsəydi, faciə qurbanlarının sayı on dəfə çox olardı. 36 il keçməsinə baxmayaraq, həmin hadisələrin hər anı yaddaşımda canlanır. Camaatın qaçaraq təşviş içərisində vaqonlara minməsini, o təlaşı, həyəcanı unutmaq mümkün deyil. O zaman metronun təhlükəsizliyini polis qoruyurdu. Həmin gecə əsas mərkəzimiz Nəriman Nərimanov metrostansiyasında yerləşirdi. Gecə saat 1-də yaralı gətirdilər. Yaralını tibb otağına apardıq, orada ona tibbi yardım göstərildi. Daha sonra təcili yardıma təxliyə etdik.

20 Yanvar hadisələri insanların bir-birinə inamını möhkəmləndirdi və milli həmrəyliyi daha da gücləndirdi. Azərbaycan xalqı bu faciəni heç vaxt unutmayacaq, qəhrəmanlıq və vətənpərvərlik nümunəsini gələcək nəsillərə də ibrət dərsi kimi çatdıracaq. O hadisədən sonra bir müddət yata bilmədim. Həmin gecə qəhrəman və fədakar maşinistlərimiz Ağadadaş və İlham səhərə qədər fasiləsiz iş başında oldular. Onların göstərdikləri fədakarlıq və məsuliyyət, o dəhşətli gecədə insanların təhlükəsizliyini təmin etmək üçün yorulmadan çalışmaları heç bir zaman yaddaşımdan silinməyəcək.




**Cahil HƏSƏNOV,**
**maşinist:**

– Əslində, o gecə axşam saat 11-də işimi yekunlaşdırıb evə dönməyi planlaşdırmışdım. Lakin birdən eşitdik ki, sovet rəhbərliyi xaincəsinə Bakıya qoşun yeridib. Küçələrdə vəziyyət acınacaqlı, sözlə təsvir olunmayacaq qədər dəhşətli idi. Sovet ordusu bir neçə dəqiqənin içində şəhəri al-qana bürümüşdü. Hər addımda ölüm təhlükəsi var idi, güllələr sanki yağış kimi yağır, küçələri qana boyayır, meyitləri daşımaq isə mümkünsüz idi.

Metro stansiyaları həmin gün insanların ümid ocağına, sığınacaq yerinə çevrilmişdi. Biz, metropoliten işçiləri o gecə əlimizdən gələni etdik. Dörd nəfər maşinist yuxarı qalxdıq, şəhərin küçələrinin al-qana büründüyünü, atəş səslərinin hər tərəfə yayıldığını gördük. Küçəboyu irəlilədikcə, gördüklərimdən dəhşətə gəldim: yollar meyitlər və yaralılarla dolu idi. İndiki “20 Yanvar”, “İçərişəhər”, “Nəriman Nərimanov” və “Koroğlu” stansiyalarında vəziyyət xüsusilə ağır idi. Saat təxminən 12 radələrində “Nəriman Nərimanov” stansiyası istiqamətində yaralıları daşıyırdıq. Sonra bildirdilər ki, keçmiş “Bakı Soveti” stansiyasına getməliyik. Orada vəziyyət daha ağır idi. Qanlı Yanvar gecəsinin günahsız qurbanları arasında iş yoldaşlarım İlqar Qarayev və Əflatun Kazımov da vardı. Onları bu gün də ehtiramla yad edirəm.

**İlham MUSTAFAYEV,**
**böyük tunel ustası:**

– Yanvarın 19-dan 20-nə keçən gecə “20 Yanvar” stansiyasında növbətçi idim. Bir neçə gün əvvəldən şəhərin bütün girişlərində barikadalar qurulmuşdu. Həmin vaxta qədər metroda vəziyyət tam normal idi. Qatarlar qrafik üzrə hərəkət edir, sərnişin axınında heç bir fərq hiss olunmurdu. İnsanların davranışı da adi günlərdən seçilmirdi. Heç kim təsəvvür belə etməzdi ki, bir-iki saat sonra faciə baş verəcək. Qırğın başlandıqdan sonra isə insanların üzlərində qorxu, qəzəb, təşviş və çaşqınlıq oxunurdu. Hara qaçırdılarsa, güllə yağışına düşürdülər. Kim hara sığınacağını, canını necə qurtaracağını bilmirdi.

Gecə rəhbərlikdə qərar verildi ki, metro səhərə qədər işləyəcək. Biz yuxarıda vahimə içində qalan insanlara metronun gecəboyu fəaliyyət göstərəcəyini çatdırdıq. Metroya yaxın olan insanlar heç tərəddüd etmədən stansiyalara axışdı və orada sığınacaq taparaq canlarını qurtardılar.

O gecə metro bir növ təcili yardım rolunu oynadı, yüzlərlə insanın xilaskarına çevrildi. Qorxu və təşviş içində metroya sığınan insanların üzlərində yaranan sevinc, rahatlıq və minnətdarlıq hissi ömürlük yaddaşıma həkk olunub.

Səhər açılanda başqa bir mənzərə ilə rastlaşdıq. Bakı hərbi texnika və silahlı əsgərlərlə dolmuşdu. Şəhərdə hərbi vəziyyət elan olunmuşdu. İnsanlar onlara nifrətlə baxır, içindəki ağrını və qəzəbi saxlaya bilməyənlər əsgərlərin üzünə təhqiramiz sözlər yağdırırdı. Bu nifrət qorxudan yox, haqsız yerə tökülən qanlardan, tapdalanan insanlıqdan doğurdu.

**Məftun ABBASOV,**
**tunel ustası:**

– Mən tunel fəhləsi işləyirdim. O gecə növbəm keçmiş “Bakı Soveti” ərazisində — indiki “İçərişəhər” stansiyasında idi. Saat təxminən 23:45 radələri idi, hamı gərginlik içindəydi.

Elə bu vaxt xəbər gəldi ki, Salyan kazarması tərəfdə, keçmiş “Azərbaycan” kinoteatrının yerləşdiyi prospektdə vəziyyət son dərəcə gərgindir və oraya təcili kömək lazımdır. Dərhal avtobuslarla hadisə yerinə yollandıq. Çatanda gördük ki, təcili yardım maşınına atəş açılıb. Qapıları açmağa çalışdıq, amma içəridən heç kim çıxa bilmirdi. İki nəfər yaxınlaşıb kömək etmək istəyəndə onları da güllə atəşinə tutdular.

Gecə saat 23:55 idi. Atəş səsləri səngimirdi, əvvəlcə havaya, sonra isə birbaşa biz tərəfə atəş açmağa başladılar. Biz iriçaplı silahlarla açılan atəşdən yayınmaq üçün avtobusların arxasına sığınmağa məcbur olduq. Gecəyarısına yaxın, təxminən saat 00:00–00:24 aralığında kazarmanın qapıları açıldı. Zirehli texnika, tanklar meydana çıxdı. Blokada yaratmış maşınları sağa-sola itələyərək, əzə-əzə “20 Yanvar” istiqamətində hərəkət etməyə başladılar.

Şəhərin üzərinə qaranlıqla birlikdə ağır, qorxulu bir sükut çökdü. Dinc insanlara avtomatlardan od yağdırırdılar. Mən bir ağacın arxasında gizlənmişdim. Amma gördüm ki, bu cür gizlənmək mümkün deyil. Tez yerə uzandım, maşınların arasına sığındım. Onlar adi əsgər deyildilər, mənfur məxluqları xatırladırdılar: saçları uzun, üzləri bədheybət, baxışları insanı vahiməyə salırdı… Bir neçə dəqiqə sonra yadıma düşdü ki, fövqəladə vəziyyət baş verəndə metro səhərə qədər işləməli, insanları xilas etməli idi. Bu düşüncə ilə özümü toparladım və bütün çətinliyə baxmayaraq, “Elmlər Akademiyası” stansiyasına tərəf yollandım.

Ora çatanda gördüm ki, insanlar stansiyanın qarşısında vahimə içində donub qalıblar. Mən dərhal özümü ələ alıb onlara müraciət etdim: heç kim çəkinməsin, hamı sakit şəkildə stansiyaya daxil olsun. Dedim ki, metropoliten mühafizə olunan obyektdir, heç bir hərbi qüvvə ora daxil ola bilməz. Metro səhərə qədər işləyəcək. İnsanlar bir müddət tərəddüd etdilər, amma sonra sözlərimə inandılar və tədricən stansiyaya daxil olmağa başladılar.

Biz yaralıları eskalatorlarla aşağı daşıyır, qatarlara mindirirdik. Sağlam insanları da metroya yönləndirirdik. Bu minvalla, fasiləsiz şəkildə səhərə qədər çalışdıq. Səhər açılana yaxın artıq gücüm tükənmişdi, evə getmək istədim. “Qara Qarayev” stansiyasına çatanda ətrafda qan izləri gördüm. Bu mənzərə məni sarsıtdı, geri qayıtmaq qərarına gəldim.Geri dönəndə gördüm ki, o vəhşi görkəmli adamların yerində başqa əsgərlər dayanıb — təmiz formada, səliqəli saçlarda, təmiz üzlü. Sanki gecənin qanlı siması dəyişdirilmişdi…

O gecə nə təcili yardım vardı, nə də insanların sığınıb canını qurtara biləcəyi bir ümid yeri. Demək olar ki, o dövrdə qırğının qarşısını alan, əhalini ölümdən xilas edən yeganə yol Bakı Metropoliteni oldu. İnsanlar metro vasitəsilə daşındı, təhlükədən uzaqlaşdırıldı. Əminliklə demək olar ki, baş verə biləcək faciənin təxminən doxsan faizinin qarşısı məhz metro sayəsində alındı.

O qaranlıq gecədə şəhid olan həmvətənlərimiz bizim qarşımızda işıqlı bir yol – Azadlıq mübarizəsi meydanı açdılar. Onların əziz xatirəsi isə qəlbimizdə yaşayır.

*Söhbəti apardılar:*
***Ləman TƏHMƏZ,***
***Fidan ƏLİYEVA***
***XQ***

I Türkoloji Qurultay – 100

# Hənəfi Zeynallının “cinayəti” türklük sevdası idi

**Türk dünyasının məşhur türkoloqlarının 1 əsr əvvəl Bakıda toplanmış il məclisin fəal iştirakçılarından biri də istedadlı ədəbiyyatşünas, publisist Hənəfi Zeynallı olmuşdu. Bir çox qurultay nümayəndəsi kimi, o da 11 il sonra məşhur repressiyanın qurbanı kimi güllələnmişdi.**

1895-ci ildə Bakıda  nalbənd ailəsində dünyaya gələn Hənəfi Zeynallının uşaqlıq illəri yoxsulluq və çətinlik içində keçsə də o, təhsildən və maarifdən uzaqlaşmadı. Küçələrdə ayaqqabı silib qəzet satan bu azyaşlı oğlan mollaxanada aldığı  dini və rus-tatar məktəbində  dünyəvi təhsili  sayəsində  Azərbaycan elminin parlaq simalarından birinə çevrildi.

1916-cı ildə Bakıda fəaliyyət göstərən Orta Politexnik Məktəbini bitirmiş, elə həmin il müsabiqə yolu ilə İmperator Texniki Peşə Məktəbinə qəbul olunmuşdur. Lakin 1917-ci il Fevral inqilabından sonra təhsilini yarımçıq qoymuşdur.

Hənəfi Zeynallı 1922-ci ildə Azərbaycan Dövlət Universitetinə daxil olmuş, ali təhsilini başa vurduqdan sonra Şərq fakültəsinin Azərbaycan türk ədəbiyyatı tarixi kafedrasında çalışmış, daha sonra Azərbaycan Pedaqoji İnstitutuna təyinat almışdır. 1930-cu ildə dosent elmi adına layiq görülmüşdür.

1923-cü ildən Azərbaycan Dövlət Nəşriyyatının formalaşmasında fəal iştirak etmiş, burada baş redaktor vəzifəsini icra etmişdir. 1923–1931-ci illərdə “Azərnəşr”də fəaliyyəti dövründə “Kommunist”, “Maarif və Mədəniyyət”, “İnqilab və Mədəniyyət”, “Maarif işçisi” kimi mətbuat orqanları ilə sıx əməkdaşlıq etmiş, çoxsaylı ədəbi və publisistik məqalələrlə çıxış etmişdir.

1920-ci ilin yanvarında İstanbul Universitetinin hüquq fakültəsinə daxil olan Hənəfi Zeynallı, həmin ilin iyulunda Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə bağlı partiya işlərinə cəlb olunmuş və Bakıya qayıtmışdır. Onu bolşevik ideyalara yaxınlaşdıran səbəb, əslində, sosial ədalət və milli tərəqqi arzusu idi. Hənəfi Zeynallı maarifçilik və ədəbiyyat sahəsində yorulmadan çalışmışdır. 1922-ci ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinə daxil olsa da, elmi fəaliyyətini folklor və ədəbiyyatşünaslıq istiqamətində davam etdirmişdir.

1923-cü ildə “Azərnəşr”in yaradılmasında və Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin təşkilində fəal iştirak etmişdir. Burada Ağız ədəbiyyatı komissiyasına rəhbərlik edən Hənəfi Zeynallı xalq ədəbiyyatının toplanması, sistemləşdirilməsi və nəşrinə böyük önəm vermiş, folklorun elmi əsaslarla tədqiqini qarşıya məqsəd qoymuş, Avropa metodlarını Azərbaycan elminə gətirməyə çalışmışdır. Onun “Azərbaycan atalar sözü və məsəlləri” (1926) əsərinə yazdığı ön söz, eləcə də “Türk ədəbiyyatı üzrə iş kitabı”, “Ədəbiyyat dərsləri”, “Ədəbiyyat müntəxabatı” kimi dərs vəsaitləri Azərbaycan folklorşünaslığının və ədəbiyyatşünaslığının təməl əsərləri sayılır.

Hənəfi Zeynallı 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayın ən fəal  iştirakçılarından biri olmuşdur. O, qurultayda yalnız iştirakçı kimi deyil, həm də türkoloji elmin aktual problemlərinə münasibət bildirən ciddi alim mövqeyi ilə çıxış etmişdir. Zeynallının məruzə və müzakirələrdə səsləndirdiyi fikirlər dövrün elmi-estetik və ideoloji axtarışlarını əks etdirməklə yanaşı, türk xalqlarının gələcək inkişaf istiqamətlərinə dair aydın konsepsiya təqdim edirdi.

Alimin qurultaydakı çıxışında əsas mövzulardan biri Azərbaycan folklorunun sistemli şəkildə toplanması və elmi prinsiplər əsasında tədqiqi məsələsi idi. O, folkloru xalqın tarixi yaddaşı, milli kimliyi və mənəvi dünyasının daşıyıcısı kimi qiymətləndirir, bu irsin təsadüfi deyil, planlı və metodoloji əsaslarla toplanmasının vacibliyini vurğulayırdı. Zeynallıya görə, folklor nümunələrinin yalnız toplanması deyil, onların janr, mövzu və motivlər üzrə təsnif olunması, müqayisəli şəkildə digər türk xalqlarının folkloru ilə öyrənilməsi türkoloji elmin inkişafı baxımından mühüm əhəmiyyət daşıyırdı.

Hənəfi Zeynallı I Türkoloji Qurultayı türk xalqlarının elmi, mədəni və mənəvi birliyi yolunda dönüş nöqtəsi kimi dəyərləndirirdi. Onun çıxışlarında türklərin dil və mədəni inteqrasiyasına çağırış, ortaq elmi platformanın yaradılması ideyası açıq şəkildə hiss olunurdu. Məhz bu baxışlar Zeynallını dövrünün qabaqcıl türkoloqları sırasında tanıdır və onu yalnız Azərbaycan elmi mühitinin deyil, bütövlükdə türk dünyasının ziyalı simalarından biri kimi səciyyələndirirdi.



Stalin repressiyaları Hənəfi Zeynallının da ömür yolunu faciəvi şəkildə yarımçıq qoydu. 1929-cu ildən  alim davamlı təqib və təzyiqlərə məruz qaldı. O, cümhuriyyətçi dairələrlə, xüsusilə Bəkir Çobanzadə, Nazim Əfəndi, İsmayıl Hikmət, Xəlil Fikrət ilə əlaqə saxlamaqda, elmi və ədəbi irsində guya əks-inqilabi və millətçi ideyaların yer almasında, eləcə də antisovet təşkilatın üzvü kimi fəaliyyət göstərməkdə ittiham edilirdi.

1937-ci il yanvarın 27-də  həbs olunan alim ilkin mərhələdə bu iddiaların heç birini qəbul etməsə də, fevralın 24-də aparılan istintaq zamanı ona tətbiq olunan ağır və qeyri-insani işgəncələr nəticəsində saxta “etiraf” sənədinə imza atmağa məcbur edildi. Bu sənədlərdə onun guya əks-inqilabi ədəbiyyat yaydığı, gizli millətçi təşkilatın üzvü olduğu, bir sıra şəxsləri həmin quruma cəlb etdiyi və Azərbaycanın SSRİ-dən ayrılması ideyasını dəstəklədiyi yazılırdı.

İstintaq materiallarında Hənəfi Zeynallının “əks-inqilabi fəaliyyətə” Ruhulla Axundov tərəfindən cəlb olunduğu iddia edilirdi. Onun 1936-cı ilin sonlarından etibarən Bakıda və bölgələrdə gənclərin təşkilata cəlb olunması üçün göstərişlər aldığı qeyd edilirdi. Onun türk ziyalıları arasında guya terror, təxribat, casusluq və müharibə dövründə təslimçilik ruhu yaydığı iddia olunurdu. Bu “etirafların” hamısı yalnız fiziki və mənəvi işgəncələrin nəticəsi idi.

İnsan talelərini amansızcasına məhv edən Stalin repressiya maşını Azərbaycanın seçkin ziyalıları sırasında Hənəfi Zeynallını da öz qurbanına çevirdi. O, ən ağır cəzaya – güllələnməyə məhkum edildi və hökm 1937-ci il oktyabrın 13-də icra olundu.

Yalnız iyirmi il sonra, 1957-ci il martın 30-da SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qərarı ilə 1937-ci ildə çıxarılmış hökm ləğv edildi. Görkəmli alim Hənəfi Baba oğlu Zeynallı ölümündən sonra  bəraət aldı .

Hənəfi Zeynallının həyat yoldaşı Səyyarə Səttar qızı Zeynallı 1907-ci il oktyabrın 1-də Bakıda anadan olmuş, ali təhsil almışdır. Onların iki övladı - oğlu Azər (1930) və qızı Zemfira (1933) olmuşdur. 1937-ci ildə “vətən xaininin həyat yoldaşı” kimi həbs edilən Səyyarə Zeynallı 8 il müddətinə azadlıqdan məhrum edilmiş və sürgünə göndərilmişdir. Azadlığa çıxdıqdan sonra Zaqatalada yaşamış, 1956-cı ildə Azərbaycan SSR Ali Məhkəməsinin qərarı ilə tam bəraət almışdır.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Larisanın yarımçıq qalmış melodiyası…



**1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycan xalqının yaddaşına təkcə qanlı  faciə deyil, həm də milli azadlıq mübarizəmizin dönüş nöqtəsi kimi həkk olundu. Həmin müdhiş gecədə şəhid olanlar arasında bizim oxuduğumuz 134 nömrəli məktəbin şagirdi, sinif yoldaşım Larisa Məmmədova da var idi.**

13 yaşlı məktəbli qızın qətlə yetirilməsi bir nəslin uşaqlıq xatirələrində sağalmaz yara kimi qaldı: Larisa ilə eyni partada əyləşən, onun ən saf arzularına şahidlik edən rəfiqəsi kimi o günləri yenidən xatırlayıram.

Məktəbimizin yaxınlığında yaşayan Larisa yaddaşımda ağıllı, sakit və musiqiyə sonsuz həvəs göstərən bir qız kimi qalıb. Bizi təkcə eyni parta deyil, həm də musiqi məktəbindəki fortepiano dərsləri birləşdirirdi. Onun ən böyük arzusu gələcəkdə musiqi müəllimi olmaq idi. Dərsdənkənar vaxtlarda rəsmlər çəkir, yaşından çox böyük görünən mənzərələr yaradırdı. Evin böyük övladı olduğu üçün ailəsinə, xüsusilə kiçik bacı-qardaşına qarşı çox qayğıkeş idi. O, kiçik yaşlarından əllə toxumağı da öyrənmişdi, hətta qardaşı Emin və bacısı Nərminə üçün öz əlləri ilə geyimlər də hörmüşdü.

1977-ci ildə Ukraynada doğulan dostuma adını da orada qoymuşdular, lakin o, bu adı çox da sevmirdi. Tez-tez “5 ildən sonra şəxsiyyət vəsiqəsi alanda adımı dəyişib Lalə qoyacağam”, – deyirdi. Təəssüf ki, həyat ona nə adını dəyişməyə, nə də arzuladığı musiqi müəllimi olmağa imkan verdi. Cəmi bir neçə saat əvvəl gülə-gülə ayrıldığımız bir dostumuzun itkisi məktəbdə hamını sarsıtmışdı.

Bu günlərdə Larisanın bacısı Nərminə xanımla görüşdük. O, hələ də 19 yanvar gecəsinin yarasını qəlbində daşıyır. Söhbət zamanı Nərminə xanım anasından dəfələrlə eşitdiyi o son saatlardan belə danışır: “Yanvarın 19-u idi. Həmin gün Larisa, sanki, nəsə hiss edirmiş kimi, avtobus sürücüsü olan atamın yanından bir an belə ayrılmaq istəmirdi. Anam qəlbinə daman o qəribə narahatlıq hissi ilə onu evdə saxlamağa çalışsa da, Larisanın inadı qarşısında çarəsiz qaldı”.

Nərminə xanım deyir ki, o gün Larisa, sanki, öz bəlalı aqibətinə doğru can atırdı. Atası ilə onun iş yerinə gedəndə, heç kim bu ayrılığın əbədi olacağını ağlına gətirməmişdi. İndiki 20 Yanvar dairəsi yaxınlığında atası ayağından ağır yaralansa da, Larisa ürəyindən aldığı güllə yarası ilə əbədiyyətə qovuşmuşdu.

Nərminə xanım üçün Larisa o vaxtdan 13 yaşlı “böyük” bacı obrazıdır. O vaxtlar hələ kiçik olduğu üçün baş verənləri tam dərk etməsə də, illərdir ki, evdə qorunub saxlanılan o toxunma geyimlər, bacısının yadigarı olan hər bir əşya onun üçün Larisanın varlığını əks etdirən əziz nişanələrdir. Larisa onun yaddaşında anasının anlatdığı qayğıkeş, mehriban bacı obrazı ilə yaşayır.



Larisanın dəfnindən sonra sinif yoldaşlarımızla getdiyimiz Şəhidlər xiyabanındakı o izdiham qəlbimizdə silinməz izlər buraxmışdı. O gündən məktəbimizdə onun adını daşıyan sinfimiz bizim üçün müqəddəs yerə çevrilmişdi. O hadisələrdən 36 il keçsə də, Larisanın xatirəsi hər zaman bizimlə yaşayır.

Vətən müharibəsində qazanılan qələbə xalqımızın əyilməz iradəsini, qəhrəmanlığını dünyaya nümayiş etdirdi. Mənə isə elə gəlir ki, 13 yaşlı Larisanın – bizim sevimli Laləmizin 36 il əvvəl fortepianoda yarımçıq qalmış melodiyası, bu gün azad Şuşada, Qarabağda səslənir, zəfər sədalarına qarışaraq əbədiyyət nəğməsinə dönür.

***Arzu ƏLİYEVA***
***XQ***

# Leyla Əliyeva Efiopiyada

## Elm Muzeyini ziyarət

**Leyla Əliyeva Efiopiya Federativ Demokratik Respublikasında səfərdədir. Onu Efiopiyanın planlaşdırma və inkişaf naziri Fitsum Assefa Adela qarşılayıb.**



Leyla Əliyevanın şərəfinə Efiopiyanın qədim və zəngin mədəniyyətini əks etdirən ənənəvi qəhvə mərasimi təşkil olunub. Tədbir zamanı qonaqlara bu qədim ritualın detalı haqqında məlumat verilib. Mərasimin sonunda qonaqlara əsrarəngiz ətri və özünəməxsus dadı ilə seçilən təzə dəmlənmiş Efiopiya qəhvəsi təqdim olunub.



Daha sonra Leyla Əliyeva Efiopiya Elm Muzeyini ziyarət edib. Burada onu Efiopiya Federativ Demokratik Respublikası Baş nazirinin ofisinin rəhbəri və kabinet işləri naziri Alemtsehay Paulos qarşılayıb.

Məlumat verilib ki, Efiopiya Elm Muzeyi 2022-ci ilin oktyabrında ziyarətçilərin istifadəsinə verilib. Yeddi hektar ərazidə inşa olunmuş və 80 faizi yaşıl sahədən ibarət olan muzey iki möhtəşəm binadan ibarətdir. Bu nəhəng muzey kompleksi elmi-tədqiqat mərkəzi kimi fəaliyyət göstərmək, müxtəlif sahələr üzrə həm qədim, həm də müasir texnologiyaları qoruyub saxlamaq və onları gələcək nəsillərə ötürmək məqsədi daşıyır.

Efiopiyanın Baş naziri Abiy Ahmedin təşəbbüsü ilə inşa edilən kompleksdə elm və texnologiyaya həsr olunan müasir interaktiv eksponatlar, planetarium və Günəş panelləri kimi ekoloji cəhətdən təmiz dizayn elementləri yer alır.

Muzey xüsusilə gənclər arasında innovasiyanı və rəqəmsal bacarıqların inkişafını təşviq etməyi hədəfləyir, texnoloji tədbirlər və konfranslar üçün mühüm mərkəz rolunu oynayır. Uşaqlar və gənclər arasında böyük populyarlıq qazanan muzeyi indiyədək 7 milyon uşaq ziyarət edib. Bu kompleks Efiopiyanın rəqəmsal transformasiya istiqamətindəki səylərinin əsas elementi olmaqla yanaşı, həm müasir elmi, həm də milli irsi uğurla nümayiş etdirir.

## “MESOB” dövlət xidməti mərkəzində



**Efiopiya Federativ Demokratik Respublikasına səfəri çərçivəsində Leyla Əliyeva paytaxt Əddis-Əbəbədə yerləşən “MESOB” dövlət xidməti mərkəzində olub. Onu Efiopiyanın Dövlət qulluğu üzrə federal komissarı (nazir) Mekuria Haile qarşılayıb.**

Bildirilib ki, “ASAN xidmət” modeli əsasında yaradılmış “MESOB” vətəndaşların mühüm dövlət xidmətlərinə çıxışını asanlaşdırmaq üçün müasir “bir pəncərə” platformasıdır. Federal agentliklərin 140-dan çox xidmətini vahid rəqəmsal və fiziki mərkəzdə birləşdirən “MESOB” dövlət xidmətlərinin daha sürətli, rahat və etibarlı şəkildə göstərilməsini təmin edir.




Qeyd edək ki, “ASAN xidmət” təcrübəsinin Efiopiyada tətbiqi ilə bağlı 2024-cü ilin mayında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə bu ölkənin müvafiq qurumu arasında Anlaşma Memorandumu imzalanıb.

COP29 çərçivəsində 2024-cü il noyabrın 14-də Azərbaycan Prezidenti İlham Əliyev ilə Efiopiya Prezidenti Taye Atske Sellasie arasında keçirilən görüş zamanı Efiopiya tərəfi ölkədə “ASAN xidmət” təcrübəsinin tətbiqinə maraq göstərib və bu istiqamətdə Azərbaycanın dəstəyini xahiş edib.

Ötən dövr ərzində Dövlət Agentliyinin mütəxəssisləri Efiopiyanın dövlət qulluqçuları üçün təlimlər keçirib, Efiopiyada “ASAN xidmət” təcrübəsinin tətbiqi ilə bağlı hüquqi və digər zəruri sənədləri, həmçinin “ASAN xidmət” mərkəzlərində istifadə olunan texnoloji həllər əsasında tövsiyə sənədlərini hazırlayıb, xidmətlərin vahid standartını müəyyən ediblər.

## Adva Zəfər Muzey Kompleksində





**Leyla Əliyeva Adva Zəfər Muzey Kompleksində olub.**

Adva Zəfər Muzeyi 1896-cı il martın 1-də Adva döyüşündə İtaliya işğalçıları üzərində qazanılan qələbəyə həsr olunan memorial kompleksdir. Kompleks Əddis-Əbəbə şəhərinin mərkəzində, vaxtilə ölkənin hər yerindən gələn efiopiyalıların Adva döyüşünə yollanmazdan əvvəl toplandığı məkanda yerləşir. Bu tarixi hadisə həm Efiopiya, həm də bütövlükdə Afrika qitəsi üçün xalqın azadlıq uğrunda nümayiş etdirdiyi birlik və qətiyyəti simvollaşdıraraq böyük əhəmiyyət kəsb edir. Sözügedən döyüşdə Efiopiya parlaq qələbə qazanaraq öz müstəqilliyini qoruyub və Afrika tarixində müstəmləkəyə çevrilməyən yeganə dövlət olub.

Memorialın girişində imperator II Menelik və imperatriça Taytu Bitulun, eləcə də həmin dövrdə orduya rəhbərlik etmiş 12 generalın heykəlləri ucaldılıb.

Muzeydə panafrikaçılığa həsr olunan, Efiopiyanın digər Afrika ölkələri və onların liderləri ilə əməkdaşlığını vurğulayan xüsusi bölmə mövcuddur. Kompleksdə müxtəlif müasir və qədim sənət əsərləri ilə yanaşı, həmin dövrə aid nadir artefaktlar – qalxanlar, qılınclar, atıcı silahlar, sənədlər və digər tarixi relikviyalar nümayiş olunur. Kompleksə sərgi salonlarından əlavə, amfiteatr, kitabxanalar və gənclər mərkəzləri də daxildir.

***



**Leyla Əliyeva Əddis-Əbəbənin ən böyük istirahət məkanı olan “Dostluq” parkını da ziyarət edib.**

Parkın mərkəzindəki möhtəşəm musiqili fəvvarənin nümayişi ətrafda sehrli bir atmosfer yaradıb. Azərbaycan xalq mahnılarının həzin sədaları altında rəqs edən su damlaları musiqinin akkordları ilə harmoniya təşkil edərək zərif bir sənət əsərini xatırladıb.

## Efiopiyanın Baş naziri ilə görüş

**Leyla Əliyeva ilə Efiopiyanın Baş naziri Abiy Əhməd Əli arasında görüş keçirilib.**



Söhbət zamanı Azərbaycan ilə Efiopiya arasındakı ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivləri ətraflı müzakirə olunub.

Səmimi dialoq şəraitində keçən görüşdə Leyla Əliyeva Azərbaycan Respublikası Prezidentinin salamlarını qarşı tərəfə çatdırıb və dövlətimizin başçısının adından Baş naziri ölkəmizə səfərə dəvət edib.

Efiopiyanın Baş naziri Abiy Əhməd Əli dəvəti böyük məmnuniyyətlə qəbul edərək, Azərbaycan Prezidenti haqqında yüksək ehtiramla danışaraq, xoş sözlərini ifadə edib.



Baş nazir ölkəmizdə gedən sürətli inkişaf prosesini təqdir etdiyini bildirib. O, Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasəti və beynəlxalq aləmdəki yüksək nüfuzunu xüsusi vurğulayaraq, iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsinin əhəmiyyətindən söz açıb.

Görüşdə, həmçinin işğaldan azad edilmiş torpaqlarda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə məlumat verilib.

Vurğulanıb ki, Azərbaycanın 2024-cü ilin noyabrında ev sahibliyi etdiyi COP29 tədbirinin uğurlu təcrübəsi böyük maraqla qarşılanıb. Bu təcrübənin 2027-ci ildə Efiopiyada keçiriləcək COP32 konfransında tətbiq edilməsi imkanları müzakirə olunub. Hər iki ölkə arasında bu mühüm sahədə təcrübə mübadiləsinin aparılmasının vacibliyi bir daha qeyd edilib.

## Sosial və mədəni obyektlərlə tanışlıq











**Leyla Əliyeva Efiopiyanın paytaxtı Əddis-Əbəbədə bir sıra sosial və mədəni obyektlərlə tanış olub.**

Leyla Əliyeva əvvəlcə Berhan Gözdən Əlillər üçün İnternat Məktəbini ziyarət edib.

Efiopiyanın birinci xanımı Zinaş Tayaçevin təşəbbüsü və himayəsi ilə inşa olunan məktəb ölkənin bütün bölgələrindən seçilmiş 9-cu sinifdən 12-ci sinfə qədər gözdən əlilliyi olan və görmə məhdudiyyətli 300-dən çox şagirdə xidmət göstərir. Məktəb milli tədris proqramını şagirdlərinin ehtiyaclarına uyğunlaşdıraraq Brayl əlifbasından, audioresurslar və kompüter ekran oxuyucusu texnologiyasından istifadə edir. Əsas akademik fənlərlə yanaşı, şagirdlər Brayl əlifbasını, oriyentasiya və hərəkətlilik, həyat bacarıqları və musiqi, əl işləri, kompüter istifadəsi üzrə təlimlər keçirlər. Akademik öyrənməni praktiki bacarıqlarla birləşdirərək, Berhan Gözdən Əlillər üçün İnternat Məktəbi şagirdləri ali təhsildə uğur qazanmağa və cəmiyyətdə müstəqil, məhsuldar həyata hazırlaşmağa imkan verir.

***

**Sonra Leyla Əliyeva “Lenegewa” Qadınların Reabilitasiya və Bacarıqların İnkişafı Mərkəzində olub.**

Bildirilib ki, Əddis-Əbəbə şəhərinin meri xanım Adaneç Abiebenin təşəbbüsü ilə tikilən mərkəzin fəaliyyəti səfil həyatı ilə üzləşən və insan alverinin qurbanı olan minə yaxın qadının həyat şəraitinin yaxşılaşdırılmasına yönəlib. Kompleks yanaşma prinsipi ilə fəaliyyət göstərən mərkəz 13 binadan ibarətdir. Buraya müasir sinif otaqları, yataqxanalar, peşə təlimi mərkəzləri, emalatxanalar, həmçinin psixoloji və tibbi yardım şöbələri daxildir.

Bildirilib ki, müəssisəyə qəbul edilən həssas təbəqədən olan qadınlar gələcəkdə işə düzəlmək üçün zəruri bacarıqlarla təmin edən 3–6 aylıq intensiv təlim proqramlarına cəlb olunurlar.

Onların potensialını maksimum səviyyədə istifadə etmələri üçün kompüter savadlılığı, tekstil və tikiş, elektronika, gözəllik xidmətləri, tədbirlərin təşkili üçün qida xidmətləri və digər istiqamətlər üzrə kurslar təklif olunur.

***

**Leyla Əliyeva, həmçinin Efiopiyanın Milli Sarayı ilə tanış olub.**

Saray bu ölkənin monarxlarının mirasını və xalqın sarsılmaz ruhunu təcəssüm etdirir. Sarayın tarixi, əsrlər boyu ölkəni formalaşdıran hakimiyyət, ənənə və müasirlik hekayələri ilə sıx bağlıdır. 1955-ci ildə imperator Hayle Selassienin gümüş yubileyini qeyd etmək üçün inşa edilən saray ona həyat yoldaşı Menen Asfav tərəfindən hədiyyə edilib. İtalyan memar Raffaele Petrone tərəfindən layihələndirilən bina yerli memarlıq motivlərini beynəlxalq üslublarla birləşdirərək ölkənin mədəni müxtəlifliyini və qlobal əlaqələrini əks etdirir.

Muzeydə imperatorun zəngin avtomobil kolleksiyası, həmçinin fəvvarələr, heykəllər və sıx yaşıllıqlarla bəzədilmiş saray kompleksi nümayiş etdirilir.

***XQ***

# “Qeyzer” müasir incəsənət sərgisi





**Heydər Əliyev Fondunun dəstəyi, bp şirkətinin sponsorluğu və Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə keçirilən “Neft bumu hamıya gülümsəyir” festivalı çərçivəsində yanvarın 17-də Müasir İncəsənət Muzeyində “Qeyzer” adlı müasir incəsənət sərgisinin açılışı olub.**

Sərginin açılışında Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, rəsmi qonaqlar, tanınmış incəsənət xadimləri və digər şəxslər iştirak ediblər.

2025-ci ilin noyabrından 2026-cı ilin fevralına qədər keçirilən “Neft bumu hamıya gülümsəyir” festivalı Azərbaycanın görkəmli yazıçısı Maqsud İbrahimbəyovun yaradıcılıq irsinə həsr olunub və neft bumu dövrünün mədəni və tarixi konteksti ətrafında qurulub. Müxtəlif incəsənət sahələrini bir araya gətirən festival müəllimuş və gələcəkdə də davam edəcək bayramlardan biri – incəsənət və ədəbiyyatın kəsişməsində yaranan bayram qeyd edilir. O, bp şirkəti olaraq belə gözəl bir tədbirin ərsəyə gəlməsində iştirak etməkdən məmnunluğunu bildirib.

Sərginin kuratoru Nigar Rzayeva çıxışında deyib ki, Maqsud İbrahimbəyovun yaradıcılığı o qədər canlı və müasirdir ki, layihə və təqdim olunan işlər rəssamlar üçün böyük ilham mənbəyinə çevrilib. O, bütün yaradıcı heyətə, eləcə də göstərilən dəstəyə görə Heydər Əliyev Fonduna, bp şirkətinə və Müasir İncəsənət Muzeyinə təşəkkürünü bildirib.

Sonra qonaqlar sərgi ilə tanış olublar.

Layihədə neft Bakının ritmini, insanların talelərini və bütövlükdə ölkənin inkişafını müəyyənləşdirən real qüvvə kimi çıxış edir. O, ölkə tarixi boyunca insan münasibətlərinin formalaşdığı mühiti yaradır.

“Qeyzer” adı neft fontanına, yəni təzyiq altında neftin yer səthinə çıxmasına, həmçinin qeyzerin yığılıb qalmış enerjini azad etməsi prinsipinə işarə edir. Eyni impuls Maqsud İbrahimbəyovun pyesi tərəfindən verilib və layihənin bədii işlərində inkişaf etdirilib.

Sərgidə doqquz rəssam iştirak edir. Ekspozisiya bir-biri ilə əlaqəli iki şərti hissədən ibarətdir: arxiv materiallarının yenidən işlənməsinə əsaslanan konseptual video-iş və əsas bədii məkanı formalaşdıran müasir rəssamların əsərləri.

Bununla yanaşı, sərgidə festivalın təşəbbüskarı və təşkilatçısı, Maqsud İbrahimbəyovun həyat yoldaşı Anna İbrahimbəyovanın foto işi də təqdim olunur. Bu iş sərginin əsas iştirakçı tərkibindən kənar təqdim olunur.

İştirakçılar Fidan Sadıq, İrina Eldarova, Kənan Əliyev, Müşfiq Heydərov, Nəzrin Məmmədova, Nigar Familsoy, Orxan Qarayev, Sərxan Hacıyev və Vüsalə Ağarazıyevadır.

Fidan Sadıq “Adsız” əsəri ilə neft bumunun yaşandığı dövrdə qadının görünməyən mövcudluğuna toxunur. Üzü olmayan qadın fiquru fərdiliyin itirilməsinin obrazına çevrilir, bədən qadının daxili vəziyyəti ilə sosial təzyiq arasında sərhəd kimi çıxış edir.

İrina Eldarovanın “Drakaris. Atəşpərəstlər” əsəri Günəş enerjisinə həyatın ilkin mənbəyi və Odlar Yurdunun simvolu kimi müraciət edir. Burada anilik hissi aradan qalxır və yerini davamlı enerji impulsu tutur. İnsan kollektiv obraz kimi təqdim olunur.

Kənan Əliyevin “Gözlənti” heykəltəraşlıq işi yüksəliş və gözlənti hissi üzərində qurulub. Postamentdən xaotik şəkildə qalxan borular qapalı kvadrat yaradır, bu isə neftin şərti vahidinə, kuba işarə edir. Əsər neft yüksəlişi dövründə Bakının yaşadığı təcrübəyə müraciət edir, həmin dövrdə neftin püskürməsinə yaxın eşidilən səs gələcək dəyişikliklərin əlaməti kimi qəbul olunurdu.

Müşfiq Heydərov “Postinsan” əsəri ilə konseptual heykəl cinsi və fərdi xüsusiyyətlərdən məhrum edilmiş insan obrazını təqdim edir. Fiqurun böyük ölçüsü onun postinsan xarakterli, müasir dövr tərəfindən formalaşdırılmış bir obyekt kimi qəbul edilməsini gücləndirir. Rəssam enerji, texnologiya və informasiyanın zamanla insanın yaşama və özünü dərketmə biçimlərini dəyişdirərək yeni reallıqlar yaratdığı fikrinə işarə edir.

Nəzrin Məmmədovanın “Qeyzer” abstrakt əsəri gizli enerjinin səthə çıxaraq insanın daxili hallarını dəyişdirməyə başladığı anı təsbit edir. Yeraltı qatlarından qalxan enerji tanış xətləri pozur və dağılma ilə formalaşma arasında qeyri-sabit hallar yaradır.





fin ədəbi mətnlərində yer alan transformasiya, gözlənti və daxili gərginlik mövzularına müraciət edir.

“Qeyzer” müasir incəsənət sərgisi festivalın əsas layihələrindən biridir. “Neft bumu hamıya gülümsəyir” pyesinə konseptual istinad kimi yanaşaraq, o, şəxsi təcrübə ilə kollektiv tarixin qovuşduğu anlayışa immersiv baxış təqdim edir.

Sərginin açılışında çıxış edən Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru Anna İbrahimbəyova bu günün festival üçün xüsusi əhəmiyyət daşıdığını deyib: “Bu gün həqiqətən möhtəşəm bir hadisədir, çünki festivalda gənc və istedadlı rəssamlar iştirak edirlər. Məni xüsusilə sevindirən məqam iştirakçıların bir çoxunun sadəcə çıxış etməsi deyil, həm də ideyalar üzərində dərindən düşünməsi və Maqsud İbrahimbəyovun kitablarına müraciət etməsidir”.

Anna İbrahimbəyova qeyd edib ki, təqdim olunan əsərlər daha çox təəssürat, şəxsi interpretasiya və bədii reaksiyadır, sözlərin və obrazların vizual sənət dilinə çevrilməsidir.

Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov çıxışında tədbirin ərsəyə gəlməsində əməyi olan bütün heyətə təşəkkürünü bildirib. O, 2025-ci ilin noyabr ayından bəri keçirilən “Neft bumu hamıya gülümsəyir” festivalının böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb: “Festival çərçivəsində təqdim olunan tədbirlər və tamaşalar böyük önəm daşıyır. Ümid edirəm ki, bu, ənənəvi bir hal alacaq. Bu gün rəssamlarla görüşdüm. Onların bir-birindən gözəl əsərləri təqdim olunur. Gələcək yaradıcılıqlarında hər birinə uğurlar arzu edirəm”.

Sonra çıxış edən bp-nin Xəzər regionu üzrə kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli bildirib ki, bu gün indiyədək mövcud ol-

Nigar Familsoyun “Yan təsir” rəsm əsərinin mərkəzi obrazı tarixi dəyişikliklərin və dönüş nöqtələrinin müşahidəçisi olan qarğadır. O, tərəqqinin gözqamaşdırıcı işığı kimi təsir göstərən aqressiv sarı sahənin içində meydana çıxır.

Əsər neft və texnoloji bumunun geri dönməz xarakterini ön plana çıxarır. Ümumi rifah illüziyası nəticələrin reallığı ilə toqquşur. Bu toqquşmada qarğa hərəkətsiz şahid olaraq qalır və tərəqqinin hər iki üzünü eyni anda özündə saxlayır.

Orxan Qarayev “Pərdə” əsəri ilə neft bumunu parlaq inkişafla gündəlik əməyin görünməz reallığı arasında formalaşan ziddiyyətlər sahəsi kimi təhlil edir. Üçbucaqlı lamellərdən ibarət konstruksiya iki vizual səth yaradır; bu səthlərin hər biri yalnız müəyyən baxış bucağından açılır və fiziki zəhmətlə zahiri parıltını qarşı-qarşıya qoyur.

Sərxan Hacıyevin əsəri olan “Aralıq” bədii videofantaziya maddi və rəqəmsal reallıqlar arasındakı vəziyyəti təsvir edir. Reallıqların dəyişməsi insan üçün tədricən və demək olar ki, hiss olunmadan baş verir, dəqiq başlanğıc və tamamlanma anı yoxdur. Bu fon üzərində neft ilkin materiya və qədim həyatın yaddaşı kimi ortaya çıxır və ondan şüur və ruhu xatırladan kəpənək obrazı yaranır.

Vüsalə Ağarazıyevanın “Sahə” əsəri neft bumunun dövrünə aid tarixi-sənədli obrazlara əsaslanır: neftin içində dizə qədər dayanan, bədənlə maddə arasında sərhədin itdiyi ağır və yapışqan mühitdə çalışan insanlar. Rəssamın sahə adlandırdığı bu məkanda insan və neft eyni varlığın elementlərinə çevrilir

“Qeyzer” adlı müasir incəsənət sərgisi fevralın 2-dək davam edəcək.

***XQ***

# “Bakı Marafonu 2026”ya qeydiyyat

“Bakı Marafonu 2026”ya qeydiyyat başlayıb.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2016-cı ildən ənənəvi təşkil edilən marafonda əsas yenilik isə odur ki, yarış yarımarafon deyil, ilk dəfə 42 kilometr məsafədə tam marafon olaraq və fərqli marşrutda keçiriləcək.

Bakı Marafonu mayın 3-də saat 10-da Dövlət Bayrağı Meydanından start götürəcək, finiş xətti isə “Sea Breeze” ərazisində olacaq.

Doqquzuncu Bakı Marafonunun marşrutu: Dövlət Bayrağı Meydanı - Dənizkənarı Bulvar - Bakı Beynəlxalq Dəniz Vağzalı – Neftçilər prospekti - Bakı Ağ Şəhər bulvarı - 8 Noyabr prospekti - Yusif Səfərov küçəsi - Heydər Əliyev prospekti - Böyük İpək Yolu küçəsi - Müzəffər Nərimanov küçəsi - Ziya Bünyadov prospekti - Böyükşor-Pirşağı yolu - Bilgəh-Pirşağı şosesi – “Sea Breeze”.

Marafonda iştirak etmək istəyən şəxslər aprelin 25-dək www.marathon.az saytı vasitəsilə, həmçinin “28 Mall”, “Dəniz Mall” və “Gənclik Mall” ticarət mərkəzlərindəki məntəqələrdə ödənişli qaydada qeydiyyatdan keçə bilər. Tələbələr üçün isə qeydiyyat pulsuzdur.

“Azercell”in baş sponsorluğu ilə keçiriləcək “Bakı Marafonu 2026”da kişi və qadın iştirakçılar ilk 3 yer uğrunda mübarizə aparacaqlar. Hər iki kateqoriyada qaliblər pul mükafatı və hədiyyələrlə, eləcə də medal və sertifikatlarla təltif olunacaq.




Birinci yerin qalibinə 6.000 AZN, ikinci yerin sahibinə 4.000 AZN, üçüncü yerin sahibinə isə 2.000 AZN mükafat təqdim olunacaq. Digər nominasiyalar üzrə də mükafatlar nəzərdə tutulub.

***XQ***

**Texnologiyanın sürətli inkişafı ilə smartfon, planşet və kompüter kimi cihazlardan istifadə həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bu cihazlar, sadəcə, ünsiyyət vasitəsi deyil, məlumat axınına əlçatanlıq yaradan və müxtəlif proqramlar sayəsində həyatımızı asanlaşdıran vacib alətlərdir. İnsanlar smartfonlar vasitəsilə sosial şəbəkələrdə ünsiyyət qurur, məlumat alır və hətta sağlamlıqlarını izləyirlər. Lakin bu cihazlar həyatımızı keyfiyyətcə yaxşılaşdırdığı kimi, sağlamlığımıza da mənfi təsir göstərir.**




## *Gecə yarıyadək ayrıla bilmədiyimiz elektron cihazlar buna imkan verirmi?*

Yatmazdan əvvəl sosial mediada zaman keçirmək, mesajlaşmaq və ya video izləmək bir çoxumuz üçün gecə vərdişlərinə çevrilib. Bəzi insanlar gecələr telefonunu əlindən buraxmaqda çətinlik çəkir, bəziləri isə bilərəkdən özlərini yuxudan məhrum edirlər. Mütəxəssislər xəbərdarlıq edirlər ki, bu vəziyyət yuxusuzluq yaratmaqla yanaşı, narahat yatmağa, ümumilikdə, sağalmayan ağır fəsadlara səbəb ola bilər.

**Müsahibimiz “Medistyle hospital”ın nevroloqu Aslan Əlizadə yuxunun insan orqanizmi üçün əhəmiyyətindən bəhs etdi:**

– İlk növbədə, onu qeyd edim ki, yuxu insan orqanizminin fiziki və ruhi sağlamlığında mühüm əhəmiyyət kəsb edən vacib bioloji proseslərdən biridir. İnsan həyatının təxminən üçdəbiri yuxu vəziyyətində keçir. Yuxunun fizioloji funksiyalarına insan orqanizminin yenilənməsi, enerjini qoruma, yaşlanma prosesinə qarşı davamlılıq, önəmli beyin bölgələrinin müdafiəsi, sinir hüceyrələrinin funksional bütövlüyünün qorunması aiddir. Yuxuda olarkən orqanizmdə maddələr mübadiləsi və əzələ tonusunun aktivliyi azalır, sinir sisteminin fəaliyyətində isə ləngimələr baş verir.

Bütün bu proseslər gündəlik əqli və fiziki yorğunluğun aradan qalxması üçün vacibdir. Ümumiyyətlə, yuxu sadəcə, istirahət deyil, həm də beynin fəaliyyətində önəmli mərhələdir. Belə ki, insan yatarkən gün ərzində beyində toplanmış informasiyanın təhlili və emalı gedir. Beynin informasiya çoxluğundan azad olub yeni günə gümrah başlaması məhz keyfiyyətli yuxudan asılıdır. Bu proses həm də insanın ümumi psixi vəziyyətini normada saxlayır.



**Elektron cihazlardan həddindən artıq istifadənin beynə vurduğu zərərlərdən danışan nevroloq, uzunmüddətli yuxusuzluğun fəsadlarına da toxundu:**

– İnsan bir gün yatmadıqda, ilk olaraq, beyində qərarvermə və nəticələrin qiymətləndirilməsini yerinə yetirən funksional əlaqələr zəifləyir, bu da özünüidarəetmə qabiliyyətini aşağı salır. Ardınca yorğunluq və reaksiya ləngiməsi artmağa başlayır ki, bu, ətraf mühiti qavrama qabiliyyətinə mənfi təsir göstərir. Yuxusuz keçən ikinci gecədən sonra orqanizmdə qlükoza metabolizmi və immun sistemdə pozuntular meydana çıxır. Üçüncü yuxusuz gecə isə artıq hallüsinasiyalarla müşahidə edilir.

**Həkim yatmazdan əvvəl rəqəmsal cihazlardan uzunmüddətli istifadənin yuxu keyfiyyətinə təsirlərindən danışdı:**

– Yuxu iki fazadan ibarətdir: REM (Rapid Eye Movement – Sürətli Göz Hərəkəti) və NREM (Non-Rapid Eye Movement – Yavaş Göz Hərəkəti) yuxu. NREM fazasının üç mərhələsi var. İlk iki mərhələ yüngül yuxu, sonuncu mərhələ isə dərin və ya yavaş dalğa yuxusu olaraq adlandırılır. NREM və REM fazaları gecə ərzində dövri şəkildə 4-5 dəfə təkrarlanır. Ən vacib fazalardan biri REM mərhələsidir. REM fazası isə kiçik amplitudlu və yüksək tezlikli olması səbəbi ilə oyanıqlığa bənzəyir. REM yuxusu oyanıqlıqdan əzələ tonusunun itməsi, sürətli göz hərəkətləri, tənəffüs və ürək ritminin pozulması kimi avtonom simptomlarla fərqlənir. Bu mərhələdə beyin gün ərzində toplanmış məlumatları emal edir və yaddaşa ötürür.

Yatmazdan əvvəl smartfondan istifadə REM yuxusunun müddətini kəskin şəkildə azaldır. Smartfon ekranlarından yayılan mavi işıq yuxu nizamının qorunmasında vacib rol oynayan melatonin hormonunun ifrazına mane olur ki, bu həm yuxuya getmə müddətini uzadır, həm də dərin yuxu mərhələlərinin qısalmasına gətirib çıxarır. Beyin gecələr bu işığa məruz qaldıqda hələ də gündüz olduğunu düşünür və melatoninin ifrazını dayandırır. Bu isə gün ərzində yorğunluğa, diqqət çatışmazlığına, iş qabiliyyətinin azalmasına və emosional gərginliyə səbəb olur.

**Aslan Əlizadə rəqəmsal cihazların həm də ruhi pozğunluğa səbəb olduğunu söylədi:**

– Telefon istifadəsi həm şüa, həm də zehni yüklənmə səbəbindən beyni daim oyaq saxlayır. Sosial mediadakı maraqlı videolar və ya oyunlar beyində dopaminin (motivasiya hormonu) ifrazını stimullaşdırır. Hər yeni məlumat beynimizi daha çox informasiya qəbuluna təşviq etməklə “psixoloji ayıqlıq” yaradır və bu, orqanizmin istirahət rejiminə keçməsinə mane olur.

Bundan əlavə, yatmazdan əvvəl aldığımız hər hansı bəd xəbər həyəcanlanma səviyyəsini artırır. Bu da bədənin “özünümüdafiə” rejiminə keçməsinə və beyində neyronlararası əlaqələrin zəifləməsinə gətirib çıxarır. Bəzi insanlar həftə ərzində yaranan yuxu tələbatını istirahət günlərində çox yatmaqla kompensasiya etməyə çalışır. Lakin bu, həftə stresini aradan qaldırmır, sadəcə, ağrıkəsici dərman qəbuluna bənzəyir, əsl problem isə həll olunmamış qalır.

**Həkim gecə yarıyadək telefonda vaxt keçirənlərdə “bioloji saat”ın pozulma ehtimalının çox olduğunu dedi:**

– Elektron cihazların yaydığı süni işıq bədənimizin yuxu və oyanma dövrünü tənzimləyən bioloji saatına (sirkad ritmə) mənfi təsir edir. Belə ki, gözdəki fotoreseptorlar mavi işığa çox həssasdır və bu dalğa uzunluğunu gündüz işığı kimi qəbul edir. Nəticədə, beyindəki epifiz vəzi qaranlıqda ifraz etməli olduğu melatonin hormonunun (yuxu hormonu) istehsalını azaldır. Melatonin səviyyəsinin azalması yuxuya getməyə mane olaraq dərin yuxu fazasının müddətini azaldır. Bioloji saatımız maddələr mübadiləsini, bədən istiliyini və kortizol kimi stres hormonlarının səviyyəsini tənzimləyir.

Gecələr elektron cihazların yaydığı işığa məruz qalmaq daxili saatın mərhələli şəkildə sıradan çıxmasına səbəb olur ki, bu da xroniki yorğunluq, depressiya, diqqətin yayınması kimi problemlərə gətirib çıxarır. Bundan əlavə, bədən istirahət mərhələsinə keçə bilmədiyindən hüceyrələrin bərpası və immun sisteminin gücləndirilməsi prosesləri də zəifləyir. Bu zərəri minimuma endirmək üçün yataq otağını tamamilə qaranlıq saxlamaq tövsiyə olunur.

**Müsahibimiz sonda normal yuxunu necə nizamlamağın yollarını izah etdi:**

– Yuxu rejimini sabit saxlamaq üçün hər kəs individual olaraq özünəuyğun qrafik tərtib etməlidir. Yatmazdan 1 və ya 2 saat əvvəl smartfonları kənara qoymaq ən optimal variantdır. Əgər bu mümkün deyilsə, ekran parlaqlığının minimuma endirilməsi tövsiyə edilir. Səhər yuxudan oyandıqdan sonra ən azı 1-2 saat elektron cihazlardan istifadə etmək tövsiyə olunmur, çünki beynin ən aktiv olduğu dövr bu saatlara təsadüf edir. Bu müddət ərzində smartfonlardan aldığımız bir çox informasiyalar beynin daha tez yorulmasına və performansının zəifləməsinə səbəb olur. Əgər yuxu gigiyenasına düzgün riayət edilməsinə baxmayaraq, bir ay ərzində yuxusuzluq şikayətləri davam edərsə, mütləq həkimə müraciət edilməlidir.

Qeyd edək ki, elektron cihazların insan beyninə təsiri müasir elmi-tədqiqatlarda ən çox diqqətçəkən mövzulardan biridir. Son illərdə aparılan müxtəlif tədqiqatlar göstərir ki, bu cihazlarla daimi təmas beynimizin həm strukturunda, həm də funksional fəaliyyətində dərin izlər qoyur. Araşdırmalara görə, xroniki yuxu çatışmazlığı olanlarda ürək-damar sistemi xəstəlikləri, depressiya, şəkərli diabet və piylənmə ehtimalı kəskin artır, ölüm riski isə 10 faiz çoxalır.

Amerikalı elm adamları sübut ediblər ki, ekran qarşısında uzun zaman keçirmək xüsusilə uşaqlarda və yeniyetmələrdə beyinin qərar qəbul etmək, diqqət toplamaq və emosiyaları idarə etmək funksiyalarından cavabdeh olan prefrontal korteks adlanan hissəsinin inkişafına birbaşa təsir göstərir. Bu isə bəzi hallarda impulsiv davranışların artmasına və sosial bacarıqların zəifləməsinə səbəb olur.

Göründüyü kimi, smartfonlar təkcə zamanımızı deyil, sağlamlığımız üçün vacib olan yuxumuzu da “oğurlayır”. Günün yorğunluğunu aradan qaldırmaq üçün istifadə etdiyimiz, əyləncə vasitəsi kimi gördüyümüz bu cihazlar əslində bizi xroniki yorğunluğa məhkum edir. Unutmayaq ki, ekran qarşısında keçirdiyimiz hər əlavə saat yuxu rahatlığımızı “oğurlayaraq” ömrümüzü qısaldır.

***Elenora HƏSƏNOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 11 (30980) 20 yanvar 2026-cı il, çərşənbə axşamı

İDMAN

## “Qarabağ” – “Ayntraxt” oyununun hakimləri



**UEFA Çempionlar Liqasının əsas mərhələsində Bakıda “Qarabağ” və Almaniyanın “Ayntraxt” komandaları arasında keçiriləcək VII tur oyununun hakim təyinatları açıqlanıb.**

Qarşılaşma İsveçrədən olan hakimlər briqadasına tapşırılıb.

Baş hakim Sandro Şererə Stefan De Almeyda və Conas Erni kömək edəcəklər. Dördüncü hakim funksiyasını isə Yohannes fon Mandaks yerinə yetirəcək. VAR-da Fedayi San, AVAR-da Lukas Fendrix olacaq.

Qeyd edək ki, yanvarın 21-də Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək “Qarabağ” – “Ayntraxt” matçı saat 21:45-də başlayacaq. Ağdam təmsilçisinin rəsmi saytının yaydığı məlumata görə, artıq 24 500 bilet satılıb.

## Gəncədə yeni cüdo salonu açılıb



**Gəncə İdman Sarayında yeni cüdo zalı fəaliyyətə başlayıb. Mərasimdə Azərbaycan Cüdo Federasiyasının (ACF) icraçı vitse-prezidenti Rəşad Rəsullu, ACF prezidentinin müşaviri Natiq Bağırov, Olimpiya mükafatçısı, ACF İcraiyyə Komitəsinin üzvü Mövlud Mirəliyev, Dünya çempionu, ACF İcraiyyə Komitəsinin üzvü Elxan Məmmədov və digər rəsmilər iştirak ediblər.**

Cüdo Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, müasir standartlara cavab verən tatamilərlə təchiz olunmuş zalın ümumi ölçüsü 483 kvadratmetrdir. Bundan başqa, məşqçi və paltardəyişmə otaqları da mövcuddur. Zalda 300-dən çox idmançı cüdo ilə məşğul ola biləcək.

Qeyd edək ki, 2022–2025-ci illərdə Azərbaycan Cüdo Federasiyası tərəfindən Gəncə, Sumqayıt, Qusar, Ağstafa, Zaqatala, Goranboy, Sabirabad, Bakının Zirə qəsəbəsi, Ağdaş, Kürdəmir, Astara, Cəlilabad, Tərtər, Qax, İmişli, Şabran və Zaqatalanın Mosul kəndində yeni cüdo zalları istifadəyə verilib. Həmçinin Bakı və regionlardakı 179 idman zalına ümumilikdə 13200 tatami paylanılıb.

## Qılıncoynadanlarımızın 2 Türkiyə bürüncü




**Azərbaycan qılıncoynadanları Türkiyənin paytaxtı Ankarada keçirilən açıq turnirdə iki bürünc medal qazanıblar.**

Bu barədə Azərbaycan Qılıncoynatma Federasiyasından məlumat verilib.

Maqsud Hüseynli böyüklər, Fərəh Abasova isə gənclər arasında sablya növündə mükafatçılar sırasına düşüblər.

Kişi sablyaçılardan Rəsul Əliyev 60 iştirakçı arasında 7-ci, Timur Husnaddinov 12-ci, Nahid Məmmədli isə 22-ci olub.

Qızların yarışında medalın bir addımlığında mübarizəni dayandıran Valentina Zeynalova 5-ci, Leyla Əhmədova 11-ci, Ayan Ağasıyeva 13-cü, Züleyxa Sultanlı 20-ci, Cahan Sadıxova 24-cü, İrina Lobas isə 27-ci olub.

***Qabil YUSİFOĞLU***
***XQ***

2009-cu il noyabrın 7-də Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tovuz rayon qeydiyyat şöbəsi tərəfindən 570009-Q1-006 nömrə ilə dövlət qeydiyyatına alınmış “Mülkülü” sudan istifadə edənlər birliyi ləğv olunaraq hüquqi şəxsin qoşulma şəklində yenidən təşkili (birləşmə) formasında 2006-cı il iyunun 2-də Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tovuz rayon qeydiyyat şöbəsi tərəfindən 5700011-Q1-0007 nömrə ilə dövlət qeydiyyatına alınmış “Arzu” sudan istifadə edənlər birliyinin bazasına qoşulmuş (birləşdirilmiş) və onun hüquqi varisidir.

2006-cı il sentyabrın 18-də Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tovuz rayon qeydiyyat şöbəsi tərəfindən 5700011-Q1-0008 nömrə ilə dövlət qeydiyyatına alınmış “Azər-səll” sudan istifadə edənlər birliyi ləğv olunaraq hüquqi şəxsin qoşulma şəklində yenidən təşkili (birləşmə) formasında 2011-ci il dekabrın 2-də Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tovuz rayon qeydiyyat şöbəsi tərəfindən 570011-Q1-0014 nömrə ilə dövlət qeydiyyatına alınmış “Öysüzlü” sudan istifadə edənlər birliyinin bazasına qoşulmuş (birləşdirilmiş) və onun hüquqi varisidir.

*Futbol gözləntimiz*

# Finala bərabər oyun

## *Ümid edirik ki, hər şey yaxşı olacaq*

**Start ayının 3-cü ongünlüyünə yenicə qədəm qoyduğumuz 2026-cı ildə beynəlxalq meydanda ilk rəsmi sınaq, UEFA Çempionlar Liqası turnirinin əsas mərhələsində Ağdam komandasının 7-ci tur görüşü ərəfəsindəyik. Azərbaycan çempionu Almaniyanın Frankfurt şəhərinin “Ayntraxt” klubuna qarşı. Əzəmətli “Tofiq Bəhramov” stadionunda futbol ictimaiyyətimizin Bundesliqa komandası ilə səbirsizliklə gözlədiyi finala bərabər oyun.**

Görüşə sabah, yanvarın 21-də saat 21:45-də start veriləcək. Oyundan sonra sentyabrda 75 yaşını bayram edəcəyimiz stadionun tribunalarında və meydanda nələr baş verəcək, kim sevincdən özünü göyün yeddinci qatında hiss edəcək, kim məyus olacaq? Bu suala müsbət cavaba ehtiyacımız böyükdür, çox böyük...

Liqa mərhələsinin ilk həftələrindən bu günə qədər rəqiblərin göstərdikləri nəticələri əks etdirən turnir cədvəli xatırladır ki, yolun artıq arxada qalan hissəsində “Qarabağ” futbolçuları frankfurtlu qonaqlarından daha üstün, daha keyfiyyətli oyun nümayiş etdirmiş, böyük əzmkarlıqla yadda qalmışlar. Bu da komandaya hazırda 7 xalla cədvəldə hamımızı təmin edən 22-ci pillədə irəliləmək imkanı yaratmışdır. Cəmi 4 xalla 30-cu mövqedə olan “Ayntraxt”ın isə finişə yekun cədvəlində ən yaxşı 24 kollektiv sırasında çatmaq ümidləri o qədər də perspektivli görünmür. Deməli, sabah Almaniya təmsilçisi meydanda özünü heç də təvazökar qonaq kimi aparmayıb, dərhal yüksək iddialı oyuna, hücum futboluna üstünlük verəcək.




Turnir cədvəli bizim üçün bir maraqlı məqamı da xatırladır. Cədvəldə Ağdam komandasından sonrakı üç pillədə irəliləyən “Napoli”, “Kopenhagen” (hərəsinin 7 xalı var) və “Benfika” (6) azərbaycanlı azarkeşlərə daha yaxşı tanışdırlar. Ölkə çempionumuz indiki Liqa yolunda italyanlara uduzmuş, Danimarka və Portuqaliya klubları ilə görüşlərdən isə qalib ayrılmışdır. İndi bu dörd komanda arasında finişdə ilk “24-lükdə” yer almaq uğrunda kəskin rəqabət getməsi də onu bildirir ki, bu gün “Qarabağ”ın adının Avropa klub futbolunun sayılıb-seçilən nümayəndələri ilə yanaşı çəkilməsi təsadüfi deyil. Yeri gəlmişkən, qarşıdakı 7-ci turda “Kopenhagen”–“Napoli” görüşü Danimarka və İtaliya ilə yanaşı, ölkəmizdə də maraqla gözlənilir. Bu rəqiblərdən hər hansı biri qələbə təqdirində finişi indiki halda xilasedici hədd kimi görünən 10 xal və daha yaxşı əhvalla gözləyəcək. “Benfika” isə İtaliyada “Yuventus”un qonağı olacaq.

İngiltərənin “Arsenal” klubunun qibtəediləcək yüzfaizli nəticə–18 xalla tək-tənha başçılıq etdiyi cədvəldə “Qalatasaray”ın 9 xalla 18-ci mövqedə olduğunu da qeyd edək. İstanbul klubu son iki görüşdən birincisini sabah evdə “Atletiko”ya (Madrid) qarşı keçirəcək, bir həftədən sonra isə rəqib meydanında “Mançester Siti” ilə üz-üzə gələcək.

“Liverpul” da “Qarabağ” pərəstişkarlarının xüsusi maraq dairəsindədir. Yanvarın 28-də 8-ci turda komandamız futbolun vətənində İngiltərənin məhz bu klubu ilə qarşılaşacaq. Qurban Qurbanovun futbolçularının əsas mərhələdə son rəqibi bu gün 12 xalla 9-cu yerdə və ya birbaşa səkkizdəbir finala vəsiqə verən 8-ci pillənin bir addımlığındadır. Bu isə sonuncu turda bizi ikiqat çətin oyunun gözlədiyi qənaətinə gəlməyimizə heç bir şübhə yeri qoymur. Elə ona görə də “Ayntraxt”la sabahkı matçdan maksimum fayda götürmək mütləq şərtdir.

Antalyada qış hazırlığının ikinci mərhələsi də başa çatmış, “Qarabağ” Bakıya qayıtmışdır. Qardaş ölkədə təlim-məşq toplanışının gedişində Özbəkistanın “Neftçi”, Xorvatiyanın “Osiyek” və Polşanın “Zaqlembe” komandalarına qarşı keçirilmiş üç yoldaşlıq görüşü (müvafiq surətdə 5:0, 3:1 və 3:1) böyük oyunlar üçün darıxmış futbolçulara müəyyən dərəcədə mühitə uyğunlaşmaq, özlərini sınaq şəraitində hiss etmək imkanı vermişdir. Bu görüşlərdə “Qarabağ”ın gənc yetirmələri Əli Bəşirov, Bəhruz Qurbanlı və Hikmət Cəbrayılzadənin də meydana çıxıb, oyunları ilə özləri haqqında xoş təəssürat yaratmaları da yaxşı əlamətdir.

...Təxminən ay yarımlıq sakit həyatdan sonra yenidən nəfəsimizi dərmədən gərgin mübarizə meydanında həyəcanla oyununu izləyəcəyimiz bütün Azərbaycanın sevimli komandasına “Xoş gördük, “Qarabağ”! deyirik və həmişəki kimi, bir an belə dayanmadan onu var qüvvə ilə dəstəkləməyə hazırıq. Həm də ümid edirik ki, hər şey yaxşı olacaq.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan yumşaq inventarların (yaylı döşəklərin) satın alınması məqsədilə*

## AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2026-cı il yanvarın 26-sı saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu:** (012) 404-37-00, daxili: 1263.

**Ünvan**: Bakı, Mikayıl Useynov küçəsi 2.

## “Gəncə Dəyirman”ASC səhmdarlarının nəzərinə!

7 mart 2026-cı il saat 10:00-da “Gəncə Dəyirman” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2025-ci ilin yekunu üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti barədə təftiş komissiyasının hesabatı

**2.** Cəmiyyətin illik balansının müzakirəsi və təsdiqi

**3.** Sair məsələlər.

Yığıncaqda səhmdarların iştirakı vacibdir.

**Əlaqə telefonu: 055-636-16-60.**

**Ünvan: Gəncə şəhəri, Ş.İ.Xətai prospekti 93.**

HAVA

## Yağış, sulu qar və qar yağacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında havanın soyuq və arabir yağıntılı olacağı, bəzi yerlərdə intensivləşəcəyi, sulu qara, nisbətən yüksək ərazilərdə isə qara keçəcəyi gözlənilir. Mülayim şimal küləyi arabir güclənəcək.**

Havanın temperaturu gecə və gündüz 0-3 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 766 millimetr civə sütunu, nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, sulu qar, qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 2-6 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 2 dərəcəyədək isti, dağlarda gecə 8-13, yüksək dağlıq ərazilərdə 13-18, gündüz 3-8 dərəcə şaxta olacaq.

Əsasən dağlıq və dağətəyi rayonlarda yollar buz bağlayacaq.

***Q.ƏLİYEV***
***XQ***

✓ ***2021-ci ildə Bakı Biznes Universiteti tərəfindən Qasımova Əfruz Adil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.***

✓ ***2021-ci il noyabrın 1-də Azərbaycan Respublikasının Mərəkazi Seçki Komissiyası tərəfindən 24 saylı Nizami birinci seçki dairəsi dairə seçki komissiyasının katibi İsmayılov Nəcəf Hüseyn oğlunun adına verilmiş 24/2 saylı üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN!**

“Xalq qəzeti”nin kollektivi iş yoldaşları Müşfiq Cəfərova atası

**MİRZƏ CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Şəhər Ağsaqqallar Şurasının sədri professor Nurəddin Məmmədov və idarə heyətinin üzvləri Şura sədrinin birinci müavini, birinci dərəcəli dövlət qulluqçusu Zabit Xəlilova anası

**XANIM XƏLİLOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2869
SİFARİŞ 68
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00